Xalqın qəzeti!

# Xalq qəzeti

№ 150 (30266) 20 iyul 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Ölkə qarşısında duran bir çox vəzifələr var. İnfrastruktur layihələri təkcə Qarabağda, Şərqi Zəngəzurda yox, bütün ölkə üzrə həyata keçirilir. Sənaye inkişafı ilə bağlı və digər məsələlərlə bağlı bizim çox böyük maliyyə resurslarımız cəlb edilir, səfərbər olunur. Əlbəttə ki, biz ayrılan hər bir vəsaitə böyük qənaətlə yanaşmalıyıq və şəffaflıq tam təmin edilməlidir.**

# Azərbaycan – Özbəkistan dostluğu və qardaşlığı birgə uğurların tükənməz qaynağıdır

## Prezident İlham Əliyev Özbəkistanın Baş nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu qəbul edib.**

Dövlətimizin başçısı bu yaxınlarda Özbəkistan Prezidenti ilə telefon danışığını xatırlayaraq söhbət zamanı Şavkat Mirziyoyevi seçkilərdə inamlı qələbə münasibətilə təbrik etdiyini və əlaqələrimizin bütün istiqamətlərdə müsbət inkişaf dinamikasına malik olmasından məmnunluq ifadə edildiyini bildirdi. Dövlətimizin başçısı əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi baxımından Özbəkistanın Baş naziri Abdulla Aripovun ölkəmizə səfərinin əhəmiyyətini qeyd etdi.

İkitərəfli münasibətlərin ildən-ilə daha da inkişaf etdiyini vurğulayan Azərbaycan Prezidenti gələcəkdə də əməkdaşlığın genişləndirilməsi ilə bağlı yeni uğurlu layihələrin icra olunacağına əminliyini bildirdi.

Abdulla Aripov, ilk növbədə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını Prezident İlham Əliyevə çatdırdı və vurğuladı ki, Özbəkistan Prezidenti həmişə dostu və qardaşı Prezident İlham Əliyevlə təmaslardan böyük məmnunluq duyduğunu bildirir.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.

Abdulla Aripov Özbəkistanda keçirilmiş seçkilərdən sonra Şavkat Mirziyoyevi təbrik edən ilk dövlət başçısının məhz Prezident İlham Əliyev olduğunu qeyd edərək vurğuladı ki, bu da dövlət başçıları və ölkələrimiz arasında dostluğun və qardaşlığın nümunəsidir.

Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın çox böyük uğurlar əldə etdiyini deyən Özbəkistanın Baş naziri Bakının inkişafının onlarda dərin təəssürat hissi yaratdığını dedi.

Qonaq Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının əhəmiyyətini vurğuladı.

Görüşdə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri və bu səfər çərçivəsində əməkdaşlığımızın hərtərəfli inkişafı ilə əlaqədar müəyyən edilmiş prioritet sahələr, bu istiqamətdə görülmüş işlərin nəticələrinin çox müsbət olduğu qeyd edildi, iqtisadi-ticarət, investisiyalar, energetika, kənd təsərrüfatı, nəqliyyat-logistika, sənaye sahələrində yeni layihələrin həyata keçirildiyi diqqətə çatdırıldı.

Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti vurğulandı, Azərbaycanda yaradılmış azad iqtisadi zonada Özbəkistan şirkətlərinin iştirakı perspektivləri, hökumətlərarası komissiyanın fəaliyyəti və iyulun 18-də Şuşada keçirilən Azərbaycan-Özbəkistan Birgə Hökumətlərarası Komissiyasının 12-ci iclasının önəmi qeyd edildi.

***AZƏRTAC***

# Zelenski Ukraynaya dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edib



**Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycanın Ukraynaya elektrik avadanlıqları alınması və göndərilməsi məqsədilə 7,6 milyon dollar ayırmasına görə Prezident İlham Əliyevə təşəkkür edib.**

Volodimir Zelenski tviter səhifəsində yazıb: **“Ukraynanın ehtiyacları üçün enerji avadanlıqlarının alınması məqsədilə yardımın ayrılmasına dair Sərəncama görə Prezident İlham Əliyevə minnətdaram. Bu dəstək təcavüzkarın davamlı hücumları qarşısında enerji sektorunun sabitliyini təmin etmək üçün vacibdir. Enerji sistemini qışa hazırlamaq üçün tərəfdaşlarımızla fəal işləməyə davam edirik”.**

# Ağdam–Xankəndi yolunda təxribat: Rusiya Qərb vasitəçiliyinə qarşı



**“Uzaq sahillərdə” filmində deyildiyi kimi: eyni dalğa, eyni koordinat. Bu ifadəni Qarabağdakı separatçıların Ağdam-Əsgəran yolunu bağlamaları müstəvisində işlətmək tam yerinə düşür. İzah edək nə üçün?**

Yadınızdadırsa, ötən ilin dekabrında azərbaycanlı ekofəalların və qeyri-hökumət təşkilatları təmsilçilərinin Laçın-Xankəndi yolunda aksiyaları başlamışdı. Təxminən altı aya qədər davam etmiş aksiyanın başlıca səbəbi bu idi ki, Qarabağdakı separatçıların təşkil etdikləri etiraz nəticəsində ölkəmizin rəsmilərinin və mütəxəssislərinin “Qızılbulaq” qızıl və “Dəmirli” mis yataqlarına girişinə maneçilik törədilmişdi. Nəzərə alaq ki, onların qarşısının kəsilməsi, böyük anlamda Azərbaycanın özünə məxsus olana sahiblənmək kimi haqlı məqsədinə qarşı atılmış addım idi.

*(ardı 6-cı səhifədə)*

# Ölkəmiz beynəlxalq logistika qovşağına çevrilib

**Prezident İlham Əliyev iyulun 11-də cari ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədəki çıxışında bildirib ki, ölkəmizin son vaxtlar nəqliyyat sektorunun əhəmiyyətinin daha da artması, bəzi məhdudlaşdırıcı tədbirlər hesabına yeni nəqliyyat marşrutlarının açılması və respublikamızın əlverişli coğrafi vəziyyəti Azərbaycan üçün əlavə imkanlar yaradıb.**



Ölkə rəhbəri daha sonra respublikamızda nəqliyyat sektorunun inkişafı ilə bağlı uzun illər ardıcıl siyasət aparıldığını və öz ərazimizdə infrastrukturun əvvəlki dövrün tələbatına uyğun olaraq tam modernləşdirildiyini vurğulayıb. “Amma bu gün tələbat daha da artır. Çünki yüklər artır, nəqliyyat marşrutları, qeyd etdiyim kimi məhdudlaşır. Həm Şimaldan Cənuba və əks istiqamətdə, həm də Şərqdən Qərbə və əks istiqamətdə yükdaşımaların artması göz önündədir. Burada da Azərbaycan çox etibarlı tərəfdaş kimi çıxış edir və öz qonşuları ilə sıx təmasdadır, qonşuların nəqliyyat problemlərinin həlli üçün öz köməyini də əsirgəmir”,–deyə dövlətimizin başçısı diqqətə çatdırıb.

*(ardı 8-ci səhifədə)*

**Rəsmi İrəvanın Avropada, eləcə də okeanın o tayında özünə beynəlxalq dəstək aradığı, bu məqsədlə yeni “diplomatik kampaniyaya” start verdiyi barədə ötən nömrədəki yazımızda bəhs etmişdik. Avropaya “dilənçilik turnesinə” çıxan Ermənistan XİN-in başçısı Ararat Mirzoyanın beynəlxalq institutların rəhbərləri, dövlət rəsmiləri ilə elə ilk təmaslarında Bakının ünvanına yalan və böhtandan yoğrulmuş iddialar səsləndirməsi qətiyyən təəccüblü olmadı.**

# Siyasi avantürizm mərəzə çevriləndə…



Hayastanın “armenpress” agentliyi yazır ki, A.Mirzoyan ATƏT-in baş katibi Xelqa Şmidlə görüşündə Cənubi Qafqazda təhlükəsizliyin vəziyyəti, eləcə də, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması prosesində son irəliləyişlər barədə ətraflı danışıb. Ardınca “Dağlıq Qarabağ xalqının hüquq və təhlükəsizliyi” məsələsinin beynəlxalq mexanizm (?) çərçivəsində həllinin vacibliyini xüsusi olaraq vurğulayıb. Azərbaycanın BMT Beynəlxalq Ədalət Məhkəməsinin 22 fevral və 6 iyul tarixli qərarlarının icrasından, guya, boyun qaçırdığını deyən Mirzoyan Bakının “Laçın dəhlizini bağlı saxladığını” iddia edib. Hayların baş diplomatı bir az da irəli gedərək ATƏT-in baş katibinin diqqətini “XXI əsrdə Avropanın qonşuluğunda növbəti humanitar fəlakətin və Dağlıq Qarabağ əhalisinin etnik təmizləməyə məruz qalmasının qarşısının alınması üçün beynəlxalq aktorların fəal hərəkətə keçməsinin zəruriliyinə” yönəltməyə cəhd göstərib. Hətta, bu məqsədlə ATƏT-in mövcud mexanizm və vasitələrindən “effektiv istifadəni” yada salıb. Həmçinin, Mirzoyanın Avstriyanın Avropa və beynəlxalq məsələlər üzrə federal naziri Aleksandr Şallenberqlə birgə mətbuat konfransında Azərbayacana qarşı səsləndirdiyi iddialarının nə hüquqi əsası var, nə də məntiqi izahı.

*(ardı 6-cı səhifədə)*

# Özbəkistanla əlaqələrimiz yüksələn xətlə inkişaf edir



**Bugünlərdə Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Şuşada keçirilmiş 12-ci iclasında bu barədə geniş danışılmış, müzakirə olunmuş məsələlər və imzalanmış sənədlər çoxtərəfli əməkdaşlığın uğurla davam etdirilməsinə yönəlmişdir.**

*(ardı 8-ci səhifədə)*

# Demarkasiyanı dalana dirəyən səbəblər



Səhifə ⇨ 7

# “Qarabağ”ın parlaq qələbəsi



Səhifə ⇨ 12

## S.B.İmamverdiyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında və elmi-pedaqoji sahədə uzunmüddətli səmərəli fəaliyyətinə görə Sudeif Bəşir oğlu İmamverdiyev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyul 2023-cü il**

## Bir qrup şəxsin "Minatəmizləmə sahəsində xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətində fərqlənən aşağıdakı şəxslər "Minatəmizləmə sahəsində xidmətlərə görə" medalı ilə təltif edilsinlər:

Məhərrəmov Vüqar Qurbanəli oğlu – polkovnik
Əzizov Vüqar Əhyəddin oğlu – polkovnik-leytenant
Məmmədov İsmayıl Ramazan oğlu – kapitan
Zeynalov Şakir Rəşid oğlu – kapitan
Əliyarov Asif Amil oğlu – kiçik leytenant
Əliyev Mirsəfər Loğman oğlu – kiçik leytenant
Mustafayev Bəhruz Xaliq oğlu – gizir
Cəfərov Təhmiraz Sərxan oğlu – kiçik gizir
Hüseynov Yasin Camal oğlu
Xudiyev Asəf Mürsəl oğlu
Xudiyev Ramil Tehran oğlu
Quliyev Elçin Aydın oğlu
Quliyev Vüsal Vidadi oğlu
Məmmədov Arzu Dostəli oğlu
Mirzəyev Elməddin Tofiq oğlu
Namazov Bəhruz Rafiq oğlu
Rzayev Şamil Etibar oğlu
Salmanov Rövşən Şahverdi oğlu
Sultanov Azər Əli oğlu
Şahverənov Fikrət Qüdrət oğlu
Vəliyev Elman Ənvər oğlu
Vəliyev Ruhin Sultan oğlu
Zeynalov Telman Bəbir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyul 2023-cü il**

## Ararat Mirzoyan sabitlikdə maraqlı deyil



**İyulun 18-də Avstriyanın Avropa və beynəlxalq məsələlər üzrə federal naziri Aleksandr Şallenberqlə mətbuat konfransı zamanı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan növbəti dəfə Azərbaycanı bir sıra əsassız iddialarla təqsirləndirərək bölgədə sülh və sabitlikdə maraqlı olmadığını nümayiş etdirib.**

XİN-in məlumatında deyilir ki, Ermənistan xarici işlər nazirinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etmək əvəzinə, 30 ilə yaxın müddətdə işğal altında saxladığı, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdiyi Qarabağda yaşayan ermənilərin "hüquq və təhlükəsizliyini" bəhanə gətirərək sülh prosesinə müxtəlif iddialarla maneçilik törətməsi Ermənistan rəsmilərinin əsl niyyətlərindən xəbər verir.

Bölgədə "gərgin humanitar vəziyyət" iddiaları Ermənistanın siyasi avantürası və manipulyasiyasıdır. Azərbaycan tərəfindən təklif olunan Ağdam-Xankəndi yolu vasitəsilə yüklərin daşınmasına qarşı çıxılması da bu iddiaların heç bir əsasının olmadığının nümunəsidir.

XİN-in açıqlamasında sonda deyilir ki, Azərbaycanın şərq bölgələrindən Naxçıvana maneəsiz nəqliyyat yollarının açılışı üzrə öhdəliyinə son üç ilə yaxın dönəmdə riayət etməyən Ermənistanın indi də nəqliyyat infrastrukturlarının açılmasını müxtəlif bəhanələrlə yubatması və şərtləndirməsi, bu ölkənin 30 ilə yaxın müddətdə özünütəcrid siyasətinin heç bir xeyir gətirmədiyini hələ də anlamadığını nümayiş etdirir.

**"Xalq qəzeti"**

## Bəzi xarici jurnalistlərin adı "qara siyahı"dan çıxarılıb




**Xarici İşlər Nazirliyi, Azərbaycan Mətbuat Şurası və Medianın İnkişafı Agentliyi Azərbaycan ərazilərinə qanunsuz səfər etmiş bəzi xarici jurnalistlərin "qara siyahı"dan çıxarılması ilə bağlı bəyanat yayıb.**

Bəyanat iyulun 19-da XİN, Medianın İnkişafı Agentliyi və Mətbuat Şurası tərəfindən birgə keçirilən mətbuat konfransında qəbul edilib.

Bu il, məhz "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycanda milli mətbuatın yaranmasının 148 illiyində Azərbaycan tərəfi keçmiş işğal olunmuş ərazilərə qanunsuz səfər etmiş 58 xarici media nümayəndəsinin adlarının bu siyahıdan çıxarılmasına dair qərar qəbul edib. Beləliklə, adları siyahıya daxil olunan şəxslərin Azərbaycan Respublikası ərazisinə daxil olmasına qoyulan qadağa aradan qaldırılıb.

**"Xalq qəzeti"**

## AHİK İcraiyyə Komitəsinin iclası



**Dünən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) İcraiyyə Komitəsinin növbəti iclası keçirilib.**

Məclisi giriş sözü ilə açan AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev bildirib ki, gündəliyə İcraiyyə Komitəsinin və Aparatın 2023-cü ilin II yarımilliyi üçün iş planı, 2024-cü ildə üzv təşkilatlarda hesabat-seçki kampaniyasının hazırlanması və keçirilməsi, Məclisin tərkibində dəyişiklik edilməsi, Gənclər Şurasının yeni heyətinin və sədrinin təsdiq edilməsi, digər cari və təşkilati məsələlər daxil edilib.

Qeyd edilən məsələlər ətrafında çıxışlar olub, rəy və təkliflər səslənib, müzakirələr aparılıb. İcraiyyə Komitəsinin qərarı ilə Gənclər Şurasının yeni tərkibi təsdiq edilib və Qara Ağayev sədr seçilib. Digər məsələlər də səsə qoyularaq müvafiq qərar qəbul edilib.

Sonda Səttar Möhbalıyev əməyin mühafizəsi, təhlükəsizlik texnikası kimi məsələlər üzrə qayda və normalara əməl edilməsini tövsiyə edib. AHİK sədri müraciətlərin dərindən araşdırılması, şəhid ailələrinin və qazilərin problemlərinə həssaslıqla yanaşılması, eləcə də işçilərin istirahəti, müalicəsinin təşkili və sağlamlığının qorunması ilə bağlı tapşırıqlar verib.

**"Xalq qəzeti"**

## Əli Əsədov Özbəkistanın Baş naziri Abdulla Aripov ilə görüşüb

**İyulun 19-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən qəzetimizə bildiriblər ki, əvvəlcə hökumət başçılarının keçirdikləri təkbətək danışıqlarda ikitərəfli gündəliyə daxil olan aktual məsələlər müzakirə edilib.

Sonra Baş nazirlərin görüşü iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə davam edib.

Görüş zamanı qeyd olunub ki, iki ölkə arasında ikitərəfli əlaqələrin əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Özbəkistanın birinci Prezidenti İslam Kərimov tərəfindən qoyulub.

Ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə Özbəkistanda tədbirlərin yüksək səviyyədə təşkilinə görə minnətdarlıq ifadə olunub.

Məmnunluq hissi ilə vurğulanıb ki, bu gün dövlət başçıları İlham Əliyev və Şavkat Mirziyoyevin birgə səyləri sayəsində Azərbaycan-Özbəkistan əlaqələri hərtərəfli inkişaf edən strateji tərəfdaşlıq səviyyəsinə çatıb.

Tərəflər bildiriblər ki, Azərbaycan və Özbəkistan beynəlxalq təşkilatlar, o cümlədən BMT, MDB, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı çərçivəsində sıx əməkdaşlıq edirlər.

Ə.Əsədov Özbəkistana cari ildə Türk Dövlətləri Təşkilatında bu ölkənin sədrliyi dövründə uğurlar diləyib.

Qeyd olunub ki, dövlət başçıları arasında qarşılıqlı etimada əsaslanan şəxsi münasibətlər və daimi təmaslar ikitərəfli əlaqələrin möhkəmlənməsində əsas rol oynayır. Bu kontekstdə ötən il çox məhsuldar olub. Azərbaycan Prezidenti üç dəfə Özbəkistana səfər edib.

"Sanballı sənədlər paketinin imzalanması ilə əlamətdar olan dövlət səfəri daha mühüm olub. Dövlət başçıları tərəfindən imzalanan strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə yüksəldib", - deyə Ə.Əsədov qeyd edib.

Həmçinin Prezident Şavkat Mirziyoyevin cari ilin martında Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana səfərinin əhəmiyyəti qeyd olunub.

Hazırda hökumətlərin xətti ilə Özbəkistan Prezidentinin Azərbaycana dövlət səfərinə hazırlıq işləri tam sürətlə davam edir.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpası və inkişafı üzrə aparılan irimiqyaslı işlər haqqında ətraflı məlumat verilib. Bu kontekstdə Özbəkistan Prezidentinin işğaldan azad edilmiş Füzuli şəhərində 960 şagird yerlik məktəbin tikintisi üzrə təşəbbüsünə görə minnətdarlıq ifadə olunub.

Tərəflər Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlığa dair Birgə Hökumətlərarası komissiyanın iyulun 18-də Şuşada keçirilən iclasının əhəmiyyətini qeyd ediblər. Onlar ümidvar olduqlarını bildiriblər ki, iclasın yekunlarına dair əldə olunan qərarlar Azərbaycan-Özbəkistan qarşılılıqlı faydalı əməkdaşlığının möhkəmlənməsinə kömək edəcək.

Hökumət başçıları, həmçinin iki ölkə arasında iqtisadi-ticari əməkdaşlığı yüksək qiymətləndirib, 2022-ci ilin yekunlarına dair təxminən 64 faiz artan əmtəə dövriyyəsinin əhəmiyyətli dərəcədə artmasından məmnunluq ifadə ediblər.

Tərəflər investisiya qarşılıqlı fəaliyyətinin yaxşı dinamikasını vurğulayıb və dünən Şuşada Azərbaycan-Özbəkistan İnvestisiya Fondunun yaradılması ilə bağlı təsis sənədlərinin imzalanmasının əhəmiyyətini qeyd ediblər. Birgə İnvestisiya Fondunun yaradılması investisiya əməkdaşlığının möhkəmlənməsi üçün əlavə stimul kimi qiymətləndirilib.

Özbəkistan tərəfinə Azərbaycanda olan əlverişli investisiya mühiti barədə məlumat verilib.

Hökumət başçıları nəqliyyat-tranzit sahəsində əməkdaşlığın perspektivlərini müsbət qiymətləndiriblər. Ötən il iki ölkə arasında yükdaşımaların ümumi həcmi 65 faizdən də çox artıb. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta dəhliz) əhəmiyyəti xüsusi qeyd olunub.

Tərəflər, həmçinin sənaye kooperasiyasını, pambıqçılıq və ipəkçilik sahələrində əməkdaşlığın inkişafının müsbət olduğunu qeyd ediblər.

Energetika sahəsində fəal qarşılıqlı fəaliyyətin olduğu vurğulanıb. Ötən il Azərbaycan və Özbəkistan arasında energetika sektorunda əməkdaşlığa dair yol xəritəsi imzalanıb.

Baş nazirlər, həmçinin bərpa olunan enerji mənbələri sahəsində yaxşı imkanlar yarandığını bildirib, habelə kənd təsərrüfatı, mədəni-humanitar, təhsil, səhiyyə və digər sahələrdə məhsuldar əməkdaşlıqdan məmnunluq ifadə ediblər.

Sonra Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistan Respublikasının investisiyalar, sənaye və ticarət naziri Laziz Kudratov çıxış ediblər.

**"Xalq qəzeti"**

## Abdulla Aripov Bakı Limanında



**İki ölkə arasında əməkdaşlığın artırılması, Orta Dəhlizdə ticarət imkanlarının gücləndirilməsi və yeni potensialların müəyyən edilməsi məqsədilə Özbəkistanın Baş nazirinin başçılıq etdiyi nümayəndə heyəti Bakı Limanında olub.**

Bakı Limanından bildirilib ki, nəqliyyat, energetika, investisiya və ticarət sahələrinin rəhbər şəxslərinin də təmsil olduğu nümayəndə heyəti Bakı Limanının texniki imkanları, yükaşırma həcmi və terminalların iş prinsipi ilə tanış olub. Səfər zamanı qonaqlara Bakı Limanında inşası davam edən və yaxın gələcəkdə icrası nəzərdə tutulan infrastruktur layihələri barədə məlumat verilib, sualları cavablandırılıb.

Qeyd edək ki, 2018-ci ildən 2023-cü ilin ikinci rübünədək Bakı Limanı və Özbəkistan arasında hər iki istiqamət üzrə 18 min TEU konteyner, 22 min vaqon və 23 mindən çox təkərli texnika daşınıb.

## Özbəkistanın Baş naziri Füzuli rayonunda

**Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov işğaldan azad olunmuş Füzuli şəhərinə səfər edib.**



Abdulla Aripov əvvəlcə Füzuli Beynəlxalq Hava Limanına gəlib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov qonağa Füzulidə gedən təmir, bərpa və quruculuq işləri, şəhərin inkişaf perspektivləri, eləcə də investisiya potensialı barədə geniş məlumat verib.

A.Aripov 30 ilə yaxın işğal altında qalmış Füzulidə törədilmiş vandalizmin izlərinin şahidi olub. Baş nazirə şəhərin dağıntılara məruz qalmış tikililəri, terrora uğramış təbiəti barədə də məlumat verilib.

Sonra Füzuli şəhərində Özbəkistan tərəfindən inşa olunan və tikinti prosesi davam edən məktəbə baxış keçirilib.

Qeyd olunub ki, Füzuli şəhərində həm yaşayış binalarının, həm də orta məktəbin tikintisinin yaxın müddətdə tamamlanması və Böyük Qayıdış Proqramının icrasına əsasən ilk sakinlərin köçürülməsi planlaşdırılır.

Baş nazir Abdulla Aripov məktəbin tikintisində çalışan özbəkistanlı inşaatçılarla görüşüb, xatirə şəkli çəkdirib.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2005-ci il 20 aprel tarixli 226 nömrəli, “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında” 2009-cu il 9 fevral tarixli 48 nömrəli, “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2009-cu il 3 aprel tarixli 74 nömrəli, “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2011-ci il 16 fevral tarixli 386 nömrəli, “Müəyyən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq üçün tələb edilən xüsusi razılıq (lisenziya) və icazə sistemi ilə bağlı bəzi məsələlər haqqında” 2011-ci il 26 oktyabr tarixli 509 nömrəli, “Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında” 2015-ci il 31 avqust tarixli 588 nömrəli, “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, “Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə Qaydaları”nın təsdiq edilməsi haqqında” 2016-cı il 21 may tarixli 920 nömrəli, “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 30 sentyabr tarixli 1048 nömrəli fərmanlarında və “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 4 mart tarixli 1853 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 301; 2006, № 2, maddə 91, № 5, maddə 397; 2007, № 2, maddə 87; 2008, № 6, maddə 488, № 11, maddə 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2014, № 6, maddə 638; 2015, № 2, maddə 132, № 7, maddə 840; 2016, № 12, maddə 2095; 2017, № 3, maddə 378, № 6, maddə 1079; 2018, № 6, maddə 1233, № 7 (I kitab), maddə 1511; 2019, № 3, maddə 409, № 4, maddə 619, № 5, maddələr 854, 855; 2021, № 10, maddə 1104) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 11.42-ci bənd aşağıdakı redaksiyada verilsin:

“11.42. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;”;

1.2. 12.8-ci bənd ləğv edilsin.

**2.** “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61, № 7, maddə 533, № 10, maddə 780, № 12, maddə 983; 2010, № 2, maddələr 77, 80; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 108, № 9, maddə 988; 2016, № 9, maddə 1479; 2017, № 5, maddə 771, № 6, maddə 1081; 2018, № 1, maddə 47, № 3, maddə 450, № 5, maddə 912, № 12 (I kitab), maddələr 2556, 2572; 2019, № 3, maddə 409, № 5, maddə 834, № 10, maddə 1587; 2021, № 9, maddə 988; 2022, № 8, maddə 874, № 12, maddə 1425) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə II – “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə” üzrə:

2.1.1. 8.54-cü bənd aşağıdakı redaksiyada verilsin:

“8.54. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;”;

2.1.2. 9.22-ci bənd ləğv edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə VII – “Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Qiymətli Metallara və Qiymətli Daşlara Nəzarət Dövlət Xidməti haqqında Əsasnamə”nin 8.7-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“8.7. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq müvafiq fəaliyyət növlərinə icazənin verilməsi ilə bağlı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə rəy vermək;”.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 3 aprel tarixli 74 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 219; 2011, № 2, maddə 85; 2020, № 4, maddə 400) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi haqqında Əsasnamə”nin 8.23-cü bəndi aşağıdakı redaksiyada verilsin:

“8.23. radiasiya sahəsinə aid məsələlərlə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı Nazirliyə rəy vermək;”.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403; 2022, № 7, maddə 762, № 8, maddə 871, № 11, maddə 1261, № 11, maddə 1261; 2023, № 3, maddə 361; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2146 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1.44-cü yarımbəndə “Azərbaycan” sözündən əvvəl “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq,” sözləri əlavə edilsin;

4.2. 3.1.45-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.1.45. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;”;

4.3. 3.1.46-cı yarımbənd ləğv edilsin.

**5.** “Müəyyən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq üçün tələb edilən xüsusi razılıq (lisenziya) və icazə sistemi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 26 oktyabr tarixli 509 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 10, maddə 893; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.2-ci bəndə “icazə” və “icazəni” sözlərindən əvvəl “lisenziya və ya” sözləri, “icazənin” sözündən əvvəl “lisenziyanın və ya” sözləri əlavə edilsin;

5.2. 4.1-ci bəndə “icazələr”, “icazə” və “icazəni” sözlərindən əvvəl “lisenziya və ya” sözləri əlavə edilsin.

**6.** “Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 31 avqust tarixli 588 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 917; 2016, № 8, maddə 1384; 2022, № 8, maddə 861) 6-cı hissəsi ləğv edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 67, № 9, maddə 1462; 2017, № 1, maddə 65, № 7, maddə 1374; 2021, № 1, maddə 36, № 12, maddə 1404; 2022, № 8, maddə 847, № 12, maddə 1423) ilə təsdiq edilmiş “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 1-ci hissəyə “Qayda” sözündən sonra “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq” sözləri əlavə edilsin;

7.2. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara uyğun investisiya fəaliyyətini həyata keçirmək istəyən sahibkar “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 17-ci və 18-ci maddələrinə uyğun olaraq, həmçinin aşağıdakı sənədlər də əlavə edilməklə Nazirliyə ərizə ilə müraciət edir:

4.1. bu Qaydanın 3-cü hissəsində göstərilən meyarlara cavab verən investisiya layihəsi (biznes planı);

4.2. bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş məbləğin 10 faizinin müvafiq investisiya layihəsi üzrə investisiya kimi qoyulduğunu təsdiq edən sənəd.”;

7.3. 5-ci hissə ləğv edilsin;

7.4. 8-ci hissədə “gün” sözü “iş günü” sözləri ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda ikinci – dördüncü cümlələr əlavə edilsin:

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsində nəzərdə tutulan hallarda Nazirlik investisiya təşviqi sənədinin verilməsindən imtina barədə (imtina hallarına istinad edilməklə) əsaslandırılmış inzibati akt qəbul edir. İmtina haqqında inzibati akt 2 (iki) iş günü müddətində ərizəçiyə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Ərizəçi həmin inzibati aktdan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.”;

7.5. 9-cu hissədə “gün” sözü “iş günü” sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 may tarixli 920 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 881; 2018, № 12 (I kitab), maddə 2583; 2019, № 6, maddə 1031; 2023, № 2, maddə 245) ilə təsdiq edilmiş “Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və digər buraxılış sistemlərindən istifadə Qaydaları”nın 1.5.3-cü, 3.4.2-ci yarımbəndlərindən və 5.6-cı bəndindən “xüsusi” sözü çıxarılsın.

**9.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 30 sentyabr tarixli 1048 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1485) ilə təsdiq edilmiş “Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi”nin 3.4-cü bəndinə (hər iki halda) “lisenziya” sözündən sonra “və ya icazə” sözləri əlavə edilsin.

**10.** “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli 1853 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 496; 2019, № 6, maddə 1084; 2023, № 2, maddə 282) 2.5-ci bəndindən “xüsusi” sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyul 2023-cü il**

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi barədə” 2006-cı il 19 aprel tarixli 394 nömrəli, “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” 2006-cı il 25 may tarixli 413 nömrəli, “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və işçilərin say həddinin təsdiq edilməsi haqqında” 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli, “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında” 2006-cı il 29 dekabr tarixli 511 nömrəli, “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında” 2007-ci il 19 mart tarixli 560 nömrəli, “Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamənin, komitənin strukturunun təsdiq edilməsi, aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” 2007-ci il 9 noyabr tarixli 647 nömrəli və “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 26 iyun tarixli 148 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 326; 2008, № 2, maddə 50, № 4, maddə 260, № 6, maddə 508; 2009, № 9, maddə 687, № 12, maddə 983; 2010, № 2, maddələr 83, 85; 2011, № 2, maddələr 85, 93; 2012, № 10, maddə 955; 2014, № 5, maddə 469, № 10, maddə 1181, № 12, maddə 1575; 2016, № 11, maddə 1796; 2017, № 1, maddə 62, № 3, maddə 357, № 9, maddə 1648, № 11, maddə 2017, № 12 (I kitab), maddə 2300; 2018, № 4, maddə 676, № 7 (I kitab), maddə 1452; 2019, № 5, maddə 816; 2021, № 7, maddə 727; 2022, № 2, maddə 106) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

“8.10. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;”;

1.2. 9.24-cü bənd ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 411, № 8, maddə 680; 2007, № 6, maddə 602, № 8, maddə 770, № 10, maddə 947; 2008, № 7, maddə 612, № 11, maddələr 967, 970; 2009, № 10, maddə 779, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 7, maddə 688, № 9, maddə 855; 2013, № 2, maddə 114, № 6, maddə 651, № 9, maddələr 1060, 1061; 2016, № 3, maddə 436; 2017, № 10, maddə 1781; 2018, № 2, maddə 217, № 5, maddə 932, № 10, maddə 1990; 2019, № 12, maddə 1953; 2020, № 3, maddə 228, № 6, maddə 690, № 8, maddə 1036; 2021, № 4, maddə 327, № 6 (I kitab), maddə 570, № 8, maddə 920; 2022, № 5, maddə 445, № 6, maddə 597, № 8, maddə 839, № 10, maddə 1126; 2023, № 2, maddə 249) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

“8.8. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;”;

2.2. 8.9-cu bənd ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 740; 2008, № 1, maddə 6; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamə”nin 8.7-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“8.7. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;”.

**4.** “Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli 511 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1058; 2008, № 11, maddə 980, № 12, maddə 1069; 2010, № 2, maddə 85; 2011, № 2, maddə 85; 2014, № 12, maddə 1579; 2015, № 9, maddə 997, № 11, maddə 1323; 2017, № 1, maddə 63, № 3, maddə 362, № 9, maddə 1649; 2019, № 3, maddə 409; 2022, № 2, maddə 106) aşağıdakı dəyişikliklər edilsin:

4.1. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti haqqında Əsasnamə”nin 8.19-cu bəndi aşağıdakı redaksiyada verilsin:

“8.19. yanğın təhlükəsizliyi sahəsində fəaliyyət növlərinə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy vermək;”;

4.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi haqqında Əsasnamə”nin 8.11-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“8.11. tikinti sahəsində fəaliyyət növlərinə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy vermək;”.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 239; 2008, № 1, maddə 4, № 3, maddə 168, № 8, maddə 722, № 11, maddə 970; 2009, № 1, maddə 11, № 4, maddə 221, № 7, maddə 532, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 193, № 7, maddə 625; 2011, № 2, maddə 85, № 3, maddə 178, № 11, maddə 994; 2012, № 4, maddə 287; 2013, № 2, maddə 121, № 5, maddə 513, № 9, maddə 1044, № 12, maddə 1551; 2014, № 9, maddə 1063; 2015, № 2, maddə 119, № 9, maddə 978; 2016, № 5, maddə 868; 2017, № 5, maddə 816; 2019, № 5, maddə 836; 2022, № 8, maddə 871; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2148 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

5.1. 9.11-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“9.11-1. “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün iş icazələrini, onların dublikatlarını və əlavələrini vermək, onları yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, həmçinin icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;”;

5.2. 9.11-2-ci və 10.4-cü bəndlər ləğv edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 noyabr tarixli 647 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 11, maddə 1095; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2016, № 11, maddə 1831; 2017, № 1, maddə 39; 2019, № 3, maddə 437; 2021, № 8, maddə 915; 2022, № 4, maddə 306, № 6, maddə 752) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamə”nin 8.14-cü bəndi aşağıdakı redaksiyada verilsin:

“8.14. müvafiq sahədə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;”.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1238, № 10, maddə 1991, № 11, maddə 2287; 2019, № 3, maddə 411, № 4, maddə 619, № 5, maddələr 839, 855, № 6, maddə 1027, № 12, maddə 1921; 2020, № 1, maddə 5, № 2, maddə 100, № 8, maddə 1039, № 11, maddə 1357; 2021, № 1, maddə 30, № 6 (I kitab), maddələr 579, 593, № 8, maddə 908, № 12, maddələr 1369, 1416; 2022, № 4, maddələr 305, 306, № 5, maddələr 443, 448, № 10, maddə 1136, № 12, maddə 1438; 2023, № 1, maddə 89, № 2, maddə 245, № 3, maddə 359, № 4, maddə 474; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 8 iyun tarixli 2176 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı”nın 10-cu hissəsinin “Göstərdiyi xidmətlər” sütunundan “məhsulların, o cümlədən” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyul 2023-cü il**

### Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" 2001-ci il 30 iyun tarixli 518 nömrəli, "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2001-ci il 20 iyul tarixli 544 nömrəli, "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin və komitənin strukturunun təsdiq edilməsi barədə" 2012-ci il 4 iyun tarixli 646 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"nin təsdiqi barədə" 2013-cü il 24 aprel tarixli 865 nömrəli, "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2014-cü il 11 aprel tarixli 149 nömrəli, "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi barədə" 2014-cü il 15 may tarixli 168 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2001-ci il 3 noyabr tarixli 596 nömrəli Fərmanının ləğv edilməsi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416; 2004, № 6, maddə 440, № 9, maddə 674; 2005, № 6, maddə 491, № 12, maddə 1102; 2006, № 7, maddə 592, № 8, maddə 659; 2007, № 6, maddə 615, № 9, maddə 869, № 10, maddə 947, № 11, maddə 1106; 2008, № 3, maddə 168, № 8, maddə 719; 2009, № 5, maddə 322, № 12, maddə 983; 2010, № 2, maddə 83, № 3, maddə 185; 2011, № 2, maddə 85, № 6, maddə 508, № 9, maddə 791; 2012, № 9, maddə 852; 2013, № 5, maddə 511, № 11, maddə 1320; 2014, № 12, maddə 1573; 2015, № 2, maddə 127, № 6, maddə 697, № 12, maddə 1474; 2016, № 3, maddə 455, № 6, maddə 1070, № 12, maddə 2057; 2017, № 5, maddə 783, № 10, maddə 1796; 2018, № 6, maddə 1204, № 10, maddə 2012, № 12 (I kitab), maddə 2595; 2019, № 2, maddə 207; 2023, № 3, maddə 378; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 2 iyun tarixli 2163 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.9-cu yarımbənddən "(lisenziyaların)" sözü çıxarılsın;

1.2. aşağıdakı məzmunda 3.1.9-1-ci yarımbənd əlavə edilsin:

"3.1.9-1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq fəaliyyət növlərinə lisenziya və ya icazə, onların dublikatlarını və əlavələrini vermək, həmin lisenziyaları və ya icazələri yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, lisenziya və icazə şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirmək;";

1.3. 4.1.6-cı yarımbənddən "(lisenziya)" sözü çıxarılsın.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 481; 2005, № 5, maddə 403; 2008, № 3, maddə 175, № 11, maddə 970; 2009, № 7, maddə 533, № 11, maddə 881, № 12, maddə 983; 2011, № 2, maddə 85, № 12, maddə 1138; 2012, № 11, maddə 1110; 2013, № 2, maddə 113; 2014, № 4, maddə 367, № 11, maddə 1416; 2018, № 2, maddə 190; 2020, № 7, maddə 889; 2023, № 3, maddə 348) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 7.9-6-cı bəndə "o cümlədən" sözlərindən sonra "Lisenziyalar və icazələr haqqında" və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq" sözləri əlavə edilsin;

2.2. 7.10-cu bənddə "xüsusi razılığın (lisenziyanın)" sözləri "lisenziyanın" sözü ilə əvəz edilsin;

2.3. 7.10-6-cı bənd ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 540; 2013, № 12, maddə 1552; 2014, № 1, maddə 14; 2015, № 6, maddə 699; 2016, № 9, maddə 1487, № 10, maddə 1626; 2017, № 12 (I kitab), maddə 2333; 2018, № 7 (I kitab), maddə 1487; 2019, № 6, maddə 1031; 2020, № 2, maddə 97, № 6, maddə 702; 2022, № 7, maddə 742, № 8, maddə 871, № 11, maddə 1268; 2023, № 2, maddə 245, № 3, maddə 368; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 may tarixli 2132 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1.10-cu yarımbənddə "qanunvericilikdə" sözü "normativ hüquqi aktlarda" sözləri ilə əvəz edilsin, həmin yarımbənddən "lisenziya və" sözləri çıxarılsın;

3.2. aşağıdakı redaksiyada 3.1.28-1-ci yarımbənd əlavə edilsin:

"3.1.28-1. Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq fəaliyyət növlərinə icazə, onların dublikatlarını və əlavələrini vermək, həmin icazələri yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, habelə icazə şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirmək;".

**4.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039, № 10, maddə 1247; 2021, № 1, maddələr 16, 36, № 6 (I kitab), maddə 567, № 8, maddə 919, № 11, maddə 1211, № 12, maddə 1367; 2022, № 1, maddə 29, № 4, maddələr 302, 323, № 5, maddə 475, № 6, maddə 594, № 8, maddə 874, № 10, maddə 1142, № 12, maddələr 1411, 1428, 1441; 2023, № 4, maddə 480; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2186 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.5.4-cü, 4.11.7-ci, 4.11.11.5-ci və 4.11.12-ci yarımbəndlər ləğv edilsin;

4.2. 4.11.13-cü və 4.11.14-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.11.13. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq ərazidə tikintiyə və tikinti obyektlərinin istismarına icazələr vermək və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək;

4.11.14. müvafiq ərazidə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq səyyar (mövsümi) ticarət və xidmət yerlərinin müəyyən edilməsinə görə icazə, onların dublikatlarını və əlavələrini vermək, həmin icazələri yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, icazə şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirmək;";

4.3. 4.18.2-ci yarımbənddən "4.5.4-cü," sözləri çıxarılsın.

**5.** "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475, № 10, maddə 1133, № 11, maddə 1264; 2023, № 1, maddə 84, № 2, maddə 245; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 may tarixli 2154 nömrəli Fərmanı) 5.18-ci bəndində "xüsusi razılıq (lisenziya)" sözləri "lisenziyanın" sözü ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 aprel tarixli 865 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 379, № 10, maddə 1156; 2014, № 5, maddə 477, № 6, maddə 646; 2016, № 8, maddə 1384; 2019, № 2, maddə 240; 2021, № 5, maddə 455; 2022, № 8, maddə 843) ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.3.4-cü yarımbəndə "bu Əsasnamə" sözlərindən əvvəl "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu və" sözləri əlavə edilsin;

6.2. 9.2-ci bəndin birinci cümləsinə "bu Əsasnamə" sözlərindən əvvəl "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu və" sözləri əlavə edilsin və həmin bəndin ikinci cümləsi çıxarılsın;

6.3. 9.3-cü bəndin ikinci cümləsinə "siyahısı" sözündən sonra "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu nəzərə alınmaqla" sözləri əlavə edilsin;

6.4. 9.4-cü və 9.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"9.4. İdarəedici təşkilat ərizəni "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq qəbul edir və qeydiyyata alır. İdarəedici təşkilat ərizənin qeydiyyata alındığı tarixdən ərizəçinin təqdim etdiyi ərizənin və ona əlavə edilmiş sənədlərin bu Əsasnamənin 9.3-cü bəndinin ikinci cümləsinin tələblərinə uyğunluğunu yoxlayır. Ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və ərizəçinin sənaye parkının rezidenti kimi qeydiyyata alınmasından imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, idarəedici təşkilat ərizənin qeydiyyata alındığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq, onların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bütün çatışmazlıqlar ərizəçiyə eyni vaxtda bildirilməlidir.

9.5. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman qeydiyyat müddətinin axımı dayandırılır və dayandırılmış müddət qeydiyyat prosedurunun müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur. Ərizəçi ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu bənddə göstərilən müddətdə aradan qaldırmadıqda, idarəedici təşkilat ərizənin baxılmamış saxlanılması haqqında inzibati akt qəbul edir və bu barədə məlumatı 2 (iki) iş günü müddətində ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir. Ərizəçi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra sənaye parkının rezidenti kimi qeydiyyata alınması üçün təkrar ərizə ilə idarəedici təşkilata müraciət edə bilər.";

6.5. 9.8-ci bənddə "15 (on beş)" sözləri "7 (yeddi)" sözləri ilə əvəz olunsun və həmin bəndə "qeydiyyata alınması" sözlərindən sonra "barədə qərar qəbul edir və ərizəçiyə səlahiyyətli orqanın təsdiq etdiyi formaya uyğun sənaye parkının qeydiyyat şəhadətnaməsini verir" sözləri əlavə edilsin;

6.6. 9.9.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"9.9.2. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsində müəyyən edilmiş hallarda.";

6.7. 9.10-cu bəndin birinci cümləsi çıxarılsın.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 365, № 6, maddə 637; 2015, № 3, maddə 272; 2018, № 5, maddə 899; 2020, № 9, maddə 1149; 2021, № 6 (I kitab), maddə 588, № 8, maddə 926; 2022, № 8, maddə 859) ilə təsdiq edilmiş Əlavə 1 – "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 3.0.7-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"3.0.7. Nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;".

**8.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 168 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 481; 2017, № 8, maddə 1521; 2019, № 2, maddə 242, № 6, maddə 1027; 2022, № 5, maddə 472, № 8, maddə 847, № 12, maddə 1465) ilə təsdiq edilmiş "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1.2.4-cü yarımbəndə və 8.2-ci bəndə "bu Əsasnamə" sözlərindən əvvəl "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu və" sözləri əlavə edilsin;

8.2. 6.1.4-cü yarımbəndə "bu Əsasnamə" və birinci halda "Azərbaycan Respublikası Nazirlər Kabinetinin" sözlərindən əvvəl "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu və" sözləri əlavə edilsin;

8.3. 8.3-cü bəndin ikinci cümləsinə "siyahısını" sözündən sonra "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu nəzərə alınmaqla" sözləri əlavə edilsin;

8.4. 8.4-cü və 8.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"8.4. İdarəedici təşkilat ərizəni "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 31-ci maddəsinə uyğun olaraq qəbul edir və qeydiyyata alır. İdarəedici təşkilat ərizənin qeydiyyata alındığı tarixdən ərizəçinin təqdim etdiyi ərizənin və ona əlavə edilmiş sənədlərin bu Əsasnamənin 8.3-cü bəndinin ikinci cümləsinin tələblərinə uyğunluğunu yoxlayır. Ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan, ərizəçinin texnoparkın rezidenti kimi qeydiyyata alınmasından imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, idarəedici təşkilat ərizənin qeydiyyata alındığı tarixdən beş iş günündən gec olmayaraq, onların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bütün çatışmazlıqlar ərizəçiyə eyni vaxtda bildirilməlidir.

8.5. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci on iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman qeydiyyat müddətinin axımı dayandırılır və dayandırılmış müddət qeydiyyat prosedurunun müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur. Ərizəçi ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu bənddə göstərilən müddətdə aradan qaldırmadıqda, idarəedici təşkilat ərizənin baxılmamış saxlanılması haqqında inzibati akt qəbul edir və bu barədə məlumatı iki iş günü müddətində ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir. Ərizəçi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra texnoparkın rezidenti kimi qeydiyyata alınması üçün təkrar ərizə ilə idarəedici təşkilata müraciət edə bilər.";

8.5. 8.10-cu bənddə "qeydiyyat prosedurunun ümumi müddətinin on beşinci iş günündən gec olmayaraq" sözləri "idarəedici təşkilat tərəfindən ərizəçinin innovasiya layihəsi təqdim edildiyi gündən yeddi iş günü müddətində" sözləri ilə əvəz olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci – dördüncü cümlələr əlavə edilsin:

"Texnoparkın ekspertlər şurasının əsaslandırılmış müraciəti ilə həmin müddət iyirmi gündən çox olmayan müddətə uzadıla bilər. Bu müddət ərzində rəy bildirilmədikdə innovasiya layihəsi bu Əsasnamənin 8.8-ci bəndində nəzərdə tutulan meyarlara uyğun hesab olunur. Texnoparkın ekspertlər şurasının rəy verməsi üçün bu Əsasnamədə nəzərdə tutulan müddət ərizəçinin texnoparkın rezidenti kimi qeydiyyata alınması ilə bağlı müddətə daxil edilmir.";

8.6. 8.11-ci bənddən ", habelə ərizədə və ona əlavə edilən sənədlərdə aşkar edilmiş çatışmazlıqlar bu Əsasnamənin 8.5-ci bəndində müəyyən edilmiş müddətdə aradan qaldırılmadıqda," sözləri çıxarılsın.

**9.** "Reklam yayımına icazə (razılıq) verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 noyabr tarixli 596 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 704; 2003, № 10, maddə 563; 2004, № 12, maddə 1005; 2005, № 2, maddə 69; 2008, № 1, maddə 8; 2012, № 11, maddə 1082; 2013, № 5, maddə 497; 2014, № 9, maddələr 1027, 1067, № 10, maddə 1185; 2015, № 9, maddə 1003) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 iyul 2023-cü il**

# Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməliyyat müşavirəsi

**İyulun 19-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 2023-cü ilin birinci yarısında korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.**



Müşavirədə çıxış edən Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin həyata keçirilməsi, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı, bu istiqamətdə görülən sistemli işlərdən bəhs edərək, paralel olaraq yenidənqurma və bərpa işlərində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da yaxından iştirak etdiyini xüsusilə vurğulayıb.

Baş prokuror ötən yarımildə cinayətkarlıqla mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Baş İdarənin Baş Prokurorluğun aidiyyəti struktur qurumları ilə birgə effektiv və səmərəli fəaliyyət göstərdiyini vurğulayıb.

Müşavirədə hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov Baş İdarədə baxılmış müraciətlər, cinayət xarakterli məlumatlar, həyata keçirilmiş əməliyyat və qabaqlayıcı tədbirlər, onların müsbət nəticələri və digər əhəmiyyətli məlumatları müqayisəli şəkildə təhlil etməklə müşavirə iştirakçılarının diqqətinə çatdırıb.

***Q.QASIMOV,***
***"Xalq qəzeti"***

# ANAMA-nın yaradılmasının 25-ci ildönümü qeyd edilib

**Tədbirdə hökumət rəsmiləri, ölkəmizdə akkreditə olunmuş diplomatik korpus nümayəndələri və vətəndaş cəmiyyəti təşkilatlarının təmsilçiləri iştirak ediblər.**





1998-ci il iyulun 18-də Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə yaradılan ANAMA minatəmizləmə sahəsində əldə etdiyi 25 illik təcrübəsi ilə qlobal miqyasda aparıcı quruma çevrilib.

Tədbirdə çıxış edən ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov qeyd edib ki, agentlik işğaldan azad edilmiş ərazilərin partlayıcı qurğulardan təmizlənməsi, bu ərazilərdə bərpa-quruculuq fəaliyyətinin təhlükəsiz icrası, keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşması, eləcə də regionda sülh və əmin-amanlığın bərpası və davamlı inkişafına müsbət töhfəsini verir. Ötən 25 il ərzində ANAMA tərəfindən 900 mindən çox mina və digər partlayıcı sursat aşkar edilərək zərərsizləşdirilib. Vüqar Süleymanov mina təhlükəsi ilə mübarizə fəaliyyətində göstərdikləri dəstəyə görə həm yerli, həm də beynəlxalq qurumlara təşəkkürünü bildirib.

Nazirlər Kabinetinin Aparat rəhbəri Rüfət Məmmədov bildirib ki, bu gün ən aktual və şərəfli işlərdən biri də ANAMA əməkdaşlarının həyata keçirdiyi minatəmizləmə fəaliyyətidir. Bu fəaliyyətlə məşğul olan şəxslər həyat və sağlamlıqlarını təhlükə altına ataraq şərəfli vəzifələrini yerinə yetirirlər. Onların bu fəaliyyəti dövlətimizin başçısı tərəfindən yüksək qiymətləndirilir və bu sahəyə xüsusi diqqət yetirilir.

BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Vladanka Andreeva deyib ki, mina qurbanlarının sayının artması Azərbaycanda humanitar minatəmizləmə işlərinin sürətləndirilməsi üçün birgə səy və resurslara ehtiyac olduğunun göstəricisidir. Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko vurğulayıb ki, Aİ dünyada mina təhlükəsi ilə mübarizə fəaliyyətinin dəstəklənməsində qlobal liderdir. Azərbaycanda bu fəaliyyətin dəstəklənməsi isə Aİ ilə əməkdaşlıqda başlıca prioritetlərdən biridir. Regionda sülh və davamlı inkişafın əsas şərtlərindəndir.

***"Xalq qəzeti"***

# Bütün türklərin qəlbində yaşayan lider

## Qazaxıstanda ulu öndərin ehtiramla yad edilmədiyi şəhər yoxdur



**Mənim altmışdan çox yaşım var. Yeni Azərbaycanda kimin kim olduğunu, hansı siyasətçinin nəyə xidmət etdiyini dərindən öyrənmək üçün vaxtım və imkanım olub. Üstəlik, Naxçıvanda doğulub böyümüşəm. Bu iki faktı ona görə xatırladıram ki, ulu öndər Heydər Əliyevin türkdilli ölkələrdə, İslam aləmində və ümumiyyətlə, dünyadakı nüfuzu haqqında çox şey öyrənmişəm.**

Bu ilin may ayında Astanada keçirilən bir tədbirdə hiss etdim ki, Heydər Əliyev mövzusu tükənən deyil. Yəni onun siyasi uzaqgörənliyi və lider kimi müdrikliyi haqqında hələ hər şeyi bilmirik. Biz bu mövzuda hələ çox öyrənməliyik və öyrənəcəyik. Söhbət Qazaxıstan Respublikasının Milli Akademik Kitabxanasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Heydər Əliyev və Türk dünyası" adlı beynəlxalq konfransdan gedir.

Həmin konfransın iştirakçılarına təqdim olunan "Xoşbəxt həyat" sənədli filminin nümayişi sübut etdi ki, ümummilli liderimizin siyasi fəaliyyəti həqiqətən də titanik, ölçüyəgəlməz və çoxşaxəlidir. Mən onu demək istəmirəm ki, qazax qardaşlarımız Azərbaycan xalqının böyük oğlunu bizdən yaxşı tanıyırlar. Demək istəyirəm ki, "Qazaqstan" telekanalı tərəfindən hazırlanmış bu filmin müəllifləri mövzuya daha böyük məsuliyyətlə yanaşmış və daha yeni faktlar, səmimi fikirlər, arqumentlər ərsəyə gətirmişlər.

Bundan başqa, bu ilin aprelində Astanada Heydər Əliyev küçəsinin təntənəli açılış mərasimində iştirak edən Qazaxıstan Prezidenti Kasım – Jomart Tokayev demişdi ki, Heydər Əliyev Bakı ilə Astana arasındakı ikitərəfli münasibətlərin təşəkkülünə və möhkəmlənməsinə çox qiymətli töhfələr vermişdir: "Biz yaxşı xatırlayırıq, o, qazaxlar haqqında həmişə səmimi sözlər deyir, bizim soykökümüzün və irsimizin ortaq olmasını vurğulayırdı. Heydər Əliyev deyirdi ki, xalqlarımızın dərin tarixə gedib çıxan kökləri qazax və Azərbaycan xalqları arasında qarşılıqlı münasibətlərin əsasıdır".

Bu, bir faktdır ki, Heydər Əliyev Türk dünyasını bütövləşdirmək, türk xalqlarını yaxınlaşdırmaq üçün böyük səylər göstərirdi. O, türk dövlətlərinin inteqrasiyasına xidmət edən əməkdaşlıq təşkilatlarının qurulmasına mühüm töhfələr verib. Təsadüfi deyil ki, bugünkü Türk Dövlətləri Təşkilatı və Türk Akademiyası kimi təşkilatların təsisi ideyası Heydər Əliyevin doğulduğu qədim Naxçıvan torpağında formalaşıb. Bu faktın özlüyündə böyük simvolik mənası var.

Mən qazaxıstanlı dostlarımdan müxtəlif tədbirlərdə dəfələrlə eşitmişəm ki, Heydər Əliyev təkcə Azərbaycan xalqının övladı deyildi. O, böyük Türk dünyasının çox ləyaqətli və müdrik oğludur. Mən bunu qazaxlardan da şəxsən eşitmişəm, özbək, qırğız və türkmənlərdən də. Təbii ki, Anadolu türkləri başda olmaqla.

Bu ölkədə çoxdan yaşadığıma görə müstəqillik dövründə Azərbaycan – Qazaxıstan dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafının bütün mərhələləri gözümün qabağında olub. Kiçik də olsa, bir çox detalların, hətta iştirakçısı olmuşam.

Yadımdadır, ulu öndər 1997-ci il iyunun 10-11-də Qazaxıstan Prezidentinin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olanda hamıdan çox biz – diaspor fəalları fərəhlənir və onu daha böyük məsuliyyətlə izləyirdik. Çünki Heydər Əliyev hansı ölkəyə səfər etsə, mütləq oradakı Azərbaycan diasporunun üzərinə yeni vəzifələr qoyurdu. Xatırladım ki, Qazaxıstandakı Azərbaycan diasporu həm tarixiliyi, həm əhatəliliyi, həm də ölkə əhalisi ilə qarşılıqlı fəaliyyəti baxımından xüsusi önəm kəsb edir.

Tarixilik arqumentini əsaslandırmaq üçün SSRİ-nin ilk onilliklərində çoxsaylı soydaşlarımızın buraya sürgün edilməsini, sonrakı onilliklərdə iqtisadi münasibətlərin bir-birinə bağlanmasını, ulu öndərin ilk dəfə Azərbaycan rəhbəri olduğu 70-ci illərdə gənclərimizin ali təhsil almaq üçün SSRİ-nin bütün ali məktəbləri kimi Qazaxıstana da çoxsaylı soydaşlarımızın göndərilməsini, 1987-ci ildən – ümummilli liderimizin Kremldəki bütün vəzifələrindən istefa verməsindən ta 1993-cü ilin payızına qədər xeyli soydaşımızın ölkəni tərk edərək bu yerlərə köçməsini xatırlatmaq kifayətdir. Məhz ona görə də bu ölkədəki diaspor təşkilatlarımızın fəaliyyəti çoxşaxəlidir. Ölkə əhalisi ilə qarşılıqlı fəaliyyətimizi asanlaşdıran isə xalqlarımızın eyni kökdən olmasıdır.

Yada saldığım 10 iyun 1997-ci il tarixli səfərdə ulu öndərimiz bu təmasların Qazaxıstan – Azərbaycan münasibətlərində, xüsusən, Azərbaycanın həyatında mühüm hadisə olduğunu vurğulamışdı. Mərhum liderimiz, eləcə də, bizim hər birimizin qürurla qəbul etdiyimiz faktları – bu gün artıq tarixin arxivinə göndərilmiş Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında qazax xalqının, o cümlədən şəxsən prezidentin dəstəyinin həmişə hiss olunduğunu, münaqişənin ilk günlərindən Qazaxıstan dövlətinin Azərbaycanın ərazi bütövlüyünü və bölünməzliyini dönmədən müdafiə etdiyini dilə gətirmişdi.

O səfərdə mühüm tarixi sənədlərin imzalanması da əlamətdar idi, Heydər Əliyevin xalqlarımızın həyatında yeni mərhələnin başlandığı barədə dedikləri də. Ulu öndər mətbuat konfransındakı bəyanatında demişdi: "Xalqlarımız ümumi tarixi köklərə, zəngin birgə tarixə, zəngin yaxın və oxşar ənənələrə malikdirlər. Bizi keçmişlə birgə tariximizdə olanlar da birləşdirir. Lakin Qazaxıstan və Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra ölkələrimizin həyatında və xalqlarımızın həyatında tamamilə yeni mərhələ başlandı".

Ulu öndərin 100 illiyi münasibətilə özümüzün – yeni Atırauda yaşayan azərbaycanlıların da reallaşdırdığı tədbirlər haqqında söz açmazdan əvvəl cənab Qasım –Jomart Tokayevin bu mövzuda olan daha bir neçə fikrini də yada salmaq istəyirəm: "Heydər Əliyev kimi dünya miqyaslı şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək və qorumaq bizim borcumuzdur. Astanada onun adını daşıyan yeni küçəni açmaqla biz bu nəcib işə mühüm töhfə veririk. Bu, Azərbaycan xalqının böyük oğluna bizim səmimi münasibətimizin və ehtiramımızın əlamətidir. Küçə boyunca dünyada ən böyük sferik bina olan "Nur Aləm", Astana Balet Teatrı, Mərkəzi Botanika bağı, habelə, şəhərin ən iri ticarət-əyləncə mərkəzi kimi mühüm obyektlər yerləşir... Bu küçənin açılışı




Qazaxıstanda Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş bir sıra mühüm tədbirlərə start verəcək. Rəmzi haldır ki, Heydər adının tərcüməsi "irəlidə gedən" deməkdir". Avropa ifadəsi olan "lider" sözü də elə irəlidə gedən deməkdir. Biz həmin ifadəni öndər kimi qəbul etmişik.

O ki qaldı, həyata keçirdiyimiz tədbirlərə, deyə bilərəm ki, biz ulu öndərin ad günlərini hər il qeyd edirik. Özü də yüksək səviyyədə. Bu tədbirlərin hamısı ölkəmizin Aktaudakı baş konsulluğunun xətti ilə – Atırau vilayəti də məhz Aktaudakı konsulluğun əhatə dairəsindədir – reallaşdırılır. Bu gözəl şəhərdə fəaliyyət göstərən azərbaycanlıların "Novruz" Tarix və Mədəniyyət Mərkəzi hər il Xalel Dosmuxamedov adına Atırau Dövlət Universitetində anım mərasimi təşkil edir. Universitetin nəzdində fəaliyyət göstərən Azərbaycan Tarixi və Mədəni İrsinin Araşdırma Mərkəzində keçirilən tədbirdə universitetin müəllim və tələbə heyəti, "Novruz" Tarix və Mədəniyyət Mərkəzinin fəalları, mətbuat nümayəndələri iştirak edirlər.

Biz altı il əvvəl həm Azərbaycanın təbliğinə xidmət edərək, həm ulu öndərin xatirəsinə ehtiram əlaməti olaraq, həm də şəhərimizdəki ali məktəbin tələbələrinin daha məsuliyyətlə oxumasına stimul vermək məqsədilə hər il beş əlaçı tələbəyə verilən "Heydər Əliyev mükafatı" təsis etmişik. Təbii ki, bu mükafatların kimə veriləcəyini universitet rəhbərliyi müəyyən edir. Bütün təqdimat mərasimlərində isə Qazaxıstandakı səfiriyimizin təmsilçiləri, Aktaudakı konsulluğumuzun və universitetin rəhbərliyi daim yanımızda olurlar. Onu da əlavə edim ki, 1950-ci ildən fəaliyyət göstərən bu çoxprofilli ali məktəb ölkədəki bu qəbildən olan təhsil müəssisələrinin reytinqində altıncı yeri tutur. Burada Avrasiyanın bir sıra ölkələrinin gəncləri kimi, azərbaycanlı tələbələr də təhsil alırlar.

Sonda bir daha xatırlatmaq istəyirəm ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Qazaxıstanda daim hörmətlə anılır və ehtiramla yad edilir. Bu, bir tərəfdən ulu öndərin türk xalqları qarşısındakı misilsiz xidmətlərinə verilən qiymətin, digər tərəfdən isə qazax xalqının qədirbilənliyinin göstəricisidir.

Təbii ki, təqvim ili hələ başa çatmayıb və ona görə də Qazaxıstanda "Heydər Əliyev ili" çərçivəsində keçirilən tədbirlər davam edəcəkdir.

***Eldar ƏHMƏDOV,***
***Qazaxıstanın Atırau şəhərindəki "Novruz" Azərbaycan Tarix və Mədəniyyət Mərkəzinin rəhbəri***




# YAP-ın yubiley müsabiqəsi

**Yeni Azərbaycan Partiyasının "Heydər Əliyev İli" çərçivəsində jurnalistlər arasında keçirdiyi "Heydər Əliyev və yeni Azərbaycan" mövzusunda fərdi yazı müsabiqəsinin nəticələri açıqlanıb.**

Partiyadan bildirilib ki, təqdim edilən yazıların qiymətləndirilməsi zamanı mövzunun əhatə olunması, əsaslandırma, dil və üslub xüsusiyyətləri, dövlətçilik maraqlarının üstün tutulması kimi meyarlar əsas götürülüb. Yekunda müsabiqə şərtlərinə uyğun olaraq, 3 nominasiyanın hər biri üzrə bir nəfər I, bir nəfər II, bir nəfər isə III yer üzrə qalib olub.

"Tənəzzüldən intibaha: SSRİ dönəmində Azərbaycanın yüksəlişi" adlı birinci mövzu üzrə Azərbaycan Dövlət İnformasiya Agentliyinin (redaksiya müdiri Abbasəli Yadigarov I,"Səs" qəzetinin müxbiri Lalə Mehralıyeva I I, "Xalq cəbhəsi" qəzetinin müxbiri Əli İbrahimov III yerə layiq görülüblər.

"Qurtuluşdan tərəqqiyə: müstəqillik dövründə Heydər Əliyevin yeni və müasir dövlət quruculuğu" adlı ikinci yaradıcılıq yarışmasında "İki sahil" qəzetinin bölmə müdiri Elçin Namazov I, "Şərq qapısı" qəzetinin müxbiri Ramiyə Əkbərova II, "Kaspi" qəzetinin müxbiri Rufik İsmayılov III yeri tutublar.

"Tərəqqidən Zəfərə: Heydər Əliyev ideyaları ilə yeni zirvələrə doğru" nominasiyasında isə "Yeni Azərbaycan" qəzetinin müxbiri Mübariz Abdullayev I, "Azəri Press Agentliyi"nin redaktoru Ramiz Cürənov II, "moderator.az" saytının redaktoru Seymur Əliyev III yer mükafatlarını qazanıblar.

Bildirilib ki, çap mətbuatı ilə yanaşı, onlayn media subyektlərinin təmsilçiləri, regionlarda fəaliyyət göstərən mətbu orqanların nümayəndələri də müsabiqəyə həvəslə qoşulublar. Təqdim olunmuş yazılarda Ümummilli liderin həyat yoluna, xalqımız qarşısında müstəsna xidmətlərinə, zəngin dövlətçilik irsinə, əbədiyaşar ideyalarına həssaslıqla nəzər salınıb, önəmli faktlar və maraqlı məqamlara əhatəli nəzər salınıb.

***"Xalq qəzeti"***

# "Heydər Əliyev həyatının 100 anı" BMT-nin Cenevrə Ofisində

**Azərbaycan dövlətinin qurucusu, dünyanı heyran qoyan dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar "Azərbaycan və ingilis dillərində işıq üzü görmüş "Heydər Əliyev həyatının 100 anı" kitabının Birləşmiş Millətlər Təşkilatının Cenevrə Ofisində təqdimat mərasimi keçirilib.**



BMT Cenevrədəki Bölməsinin baş direktoru, xanım Tatyana Valovaya dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin BMT–Azərbaycan əlaqələrinə xüsusi önəm verməsi barədə fikirlərini bölüşərək, bu sahədə onun çoxşaxəli fəaliyyətindən, ilk növbədə, Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasındakı səylərindən danışıb.



Cenevrə Ofisi baş direktorunun kabinet rəhbəri, "Heydər Əliyev həyatının 100 anı" kitabının redaksiya heyətinin üzvü David Çikvaidze, Heydər Əliyev həyatının 100 anı" kitabının müəllifi, "Azərbaycanım" beynəlxalq jurnalının baş redaktoru, Beynəlxalq Elmlər Akademiyasının müxbir üzvü Emil Nəsirli bildiriblər ki, ulu öndər Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq aləmdəki nüfuzu artıb, hərtərəfli inkişafa nail olunub, müstəqilliyimizin əbədi və dönməz olması təmin edilib.

Qırğız Respublikasının BMT-nin Cenevrədəki Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Ömər Sultanov, Türkiyə Respublikasının daimi nümayəndəsi Güven Begeç, Azərbaycan Respublikasının Daimi Nümayəndəliyinin müvəqqəti işlər vəkili Dilarə Abdullayeva ümummilli lider Heydər Əliyevin rəhbərliyim ilə siyasi və diplomatik sahədə öz ölkəsinə qazandırdığı böyük uğurlardan bəhs ediblər.

Sonra tədbirdə təqdimatı keçirilən kitabın videoslaydı təqdim olunub.

Xatırladaq ki, "Heydər Əliyev həyatının 100 anı" kitabının ilk təqdimatı mayın 5-də Bakıda, Atatürk Mərkəzində keçirilib. Xarici ölkələrdəki təqdimatlar isə bundan əvvəl İstanbulda və Parisdə olub.

***"Xalq qəzeti"***

# Ağdam–Xankəndi yolunda təxribat: Rusiya Qərb vasitəçiliyinə qarşı

## Moskva Vardanyan kartını yenidən işə saldı

(əvvəli 1-ci səhifədə)

İndi də oxşar durum var. Azərbaycan öz ərazisinə və əhalisinə sahiblənmək istəyir. Ağdam-Əsgəran yolu ilə Qarabağ ermənilərinə humanitar yardım daşıyır. Bunu edir ki, separatçıların "humanitar böhran" şousu əhəmiyyətini itirsin. Ölkəmiz bunu həm də ona görə edir ki, Laçındakı sərhəd-nəzarət buraxılış məntəqəsinin fəaliyyətinin tam məhdudlaşdığı bir dövrdə Qarabağın erməni əhalisi korluq çəkməsin. Məntəqənin fəaliyyəti nə üçün məhdudlaşıb, onu da hər birimiz yaxşı bilirik. Əvvəla, orada Azərbaycan hərbçilərinə atəş açılmışdı və buna görə məsuliyyət müəyyənləşməmişdi, ikincisi isə Qarabağa qaçaqmalçılığın həyata keçirilməsinə cəhd göstərilmişdi ki, bu işdə isə Beynəlxalq Qırmızı Xaç Komitəsi alətə çevrilmişdi...

Bəli, mövcud durumda Azərbaycan üzərinə düşəni etməlidir. Yəni, bildirdiyimiz kimi, Qarabağ ermənilərinə, yəni, öz vətəndaşlarına yaşamaları üçün yardım göstərməlidir. Elə məhz bu məqamda növbə gəlir "Uzaq sahillərdə" filmindəki məşhur ifadəyə. Daha doğrusu, həmin ifadəni nə üçün işlətməyimizin izahına.

Separatçılar Azərbaycanın humanitar yardımlarının daşındığı Ağdam-Əsgəran yolunu məhz qondarma qurumda keçmiş "dövlət naziri" postunu tutmuş, hazırda isə ictimai hərəkat yaradaraq, oyunbazlıq edən Ruben Vardanyanın başçılığı ilə bağlayıblar. Onlar yola beton plitələr düzərək, gediş-gəlişin qarşısını almağa çalışıblar. Yayılmış videogörüntülərdə bu məqsədlə uşaqlardan istifadə edildiyi də diqqət çəkməkdədir...

Aksiyaçılar açıq şəkildə bildiriblər ki, yolu kəsməkdə məqsəd humanitar daşımaların qarşısını almaqdır. Yada salaq ki, ötən ilin dekabrında da Azərbaycanın dövlət rəsmilərinin və mütəxəssislərinin "Qızılbulaq" və "Dəmirli" yataqlarına getmələrinə, ekoloji durumu müəyyənləşdirmək üçün tədbir görmələrinə əngəli məhz həmin Vardanyanın dəstəsi törətmişdi. Bəli, eyni dalğa, eyni koordinat.

*

Bu yerdə diqqəti Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan baş naziri Nikol Paşinyanın iyulun 15-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş görüşünə yönəldək. Ş.Mişelin həmin görüşlə bağlı açıqlamasında bir şərti hissə var - "Humanitar yardımlar".

Mişel bildirmişdi ki, 15 iyul görüşündə Qarabağın erməni əhalisinin durumunu, Laçın dəhlizi ətrafındakı situasiyanı müzakirə ediblər. "Aydındır ki, mövcud vəziyyət dayanıqlı deyil və heç kimin marağına uyğun gəlmir. Vəziyyətin normallaşmasına kömək üçün mümkün konkret addımları da müzakirə etdik", - deyən vasitəçi əlavə etmişdi ki, Laçın yolunun açılmasını vacib sayır. Diqqət çəkən məqam isə onun "Azərbaycanın Ağdamdan humanitar yardımları təmin etmək istəyini də qeyd etdim" deməsidir.

Əlbəttə, Aİ Şurasının prezidenti diplomatikliyini qorumuş və istəmişdi ki, haqqında söz açdığı mətləb böyüməsin. Yəni, o, birbaşa "ərazi Azərbaycanındırsa, öz əhalisini təmin etməli olan tərəf də Azərbaycandır" deyə bilərdi. Ancaq deməmiş və hər iki variantı – həm Laçın, həm də Ağdam yolu ilə daşımaları vacib saymış və əhalinin ehtiyaclarının təmin olunması üçün müştərək humanitar yardımların çatdırılmasını dəstəklədiyini vurğulamışdı. Ancaq cənab Mişelin təqdir etdiyi məqamı, yəni Azərbaycanın Ağdamdan humanitar yardımları məsələsini dilə gətirməsi yenilik idi. Deməli, Ş.Mişel faktiki olaraq, bölgənin hüquqi sahibinin – Azərbaycan dövlətinin yerli əhalinin – Qarabağ ermənilərinin qayğısına qalmalı olduğu düşüncəsini beynəlxalq ictimai rəyə çatdırdı.

Deməli, Ağdam-Əsgəran yolunda separatçıların təşkil etdikləri aksiyanın 15 iyul görüşündən sonra reallaşması təsadüfi deyil. Rusiyanın maşası olan Vardanyanın meydana çıxması da, həmçinin. Daha bir diqqətçəkən məqam Rusiyanın Xarici İşlər Nazirliyinin iyulun 15-də – Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə danışıqlarının getdiyi bir vaxtda bəyanat səsləndirməsidir. Kreml tərəfindən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın eykamlaşdırıldığı bu sənəd, faktiki olaraq iki Cənubi Qafqaz ölkəsi arasındakı razılığın inkarı ruhunda idi. Təxminən belə: sizin Brüsseldə hansı qərara gəlməyinizdən asılı olmayaraq, mənim şəxsi mənafe güdən oyunlarım var. Oyun isə özünü çox gözlətmədi.

*

Rusiyanın adamı olan R.Vardanyan dövriyyəyə girdi və Azərbaycanın Qarabağa humanitar yardım daşımasının qarşısını almağa girişdi. Bunula Mişelin beynəlxalq ictimai rəyə Azərbaycanın özünə məxsus əraziyə və əhaliyə yardım göstərməsi məntiqinə qarşı çıxıldı. Qarşı çıxanları müşayiət edənlər isə Rusiya sülhməramlılarıdır. Belə nəticəyə gəlirik ki, Moskva Qarabağda separatçılığın saxlanılmasında maraqlı olduğunu bir daha ortaya qoydu. Özü də bu niyyətin gerçəkləşdirilməsi son dərəcə yaramaz üsullardan istifadə ilə özünü göstərdi. Hər halda, Ağdam-Əsgəran yolunun kəsilməsinə uşaqların cəlb olunmasından böyük rəzalət yoxdur...

Bu mənzərə dəryada boğulanın saman çöpündən yapışması effekti verməkdədir. Rusiya hələ də Vardanyan kimi cılız bir kartdan yararlanırsa, deməli, onun təsir qüvvəsi tükənib. Belə davranışlar yalnız müəyyən vaxtın udulmasına səbəb ola bilər. Bəs sonra? Nəzərə alaq ki, bu sayaq yaramaz metodların tətbiqi davamlı xarakter daşıya bilməz. Üstəlik, Azərbaycanın əks addımlarını hesablamaq zərurəti də yaranır. Hər halda Bakı borclu qalmır. Necə ki, borclu qalmadığını Laçın-Xankəndi yolunda altı aya qədər davam etmiş aksiya ilə göstərdi, yenə də oxşar addımlar ata və regiondakı reallığı dəyişdirmək meyillərinə cəbhə aça bilər.

*

Rusiyanın Qarabağ dirənişi fonunda R.Vardanyanın dəstəsinin aktivləşməsi və Ağdam-Əsgəran yolunda aksiyanın təşkili ilə Qarabağın erməni əhalisinə humanitar yardımların daşınmasının qarşısının alınması Ermənistana sərf edir. Ümumən, Moskvanın mövcud müstəvidəki bütün qeyri-ordinar hərəkətləri İrəvana sərfəlidir.

Diqqət yetirək, Ermənistan Rusiya XİN-in 15 iyul bəyanatına reaksiya verib bildirmədi ki, Kreml iki Cənubi Qafqaz ölkəsi arasında sülhün əldə edilməsinə qarşı çıxır. Bildirməz də. Çünki sülh istəmir. Buna görə Vardanyanın aksiyasına da səssiz yanaşır. Hətta hansısa formada dəstək də verə və bildirə bilər ki, Qarabağ erməniləri guya Azərbaycandan gələn xeyiri də istəmirlər. Axı Bakı-Xankəndi dialoqu kimi sərsəm məsələni gündəmə gətirib siyasi spekulyasiya yolu tutan, separatçı rejimi tərəf qismində görmək istəyən rəsmi İrəvandır.



Yeri gəlmişkən, Ş.Mişel liderlərin Brüssel görüşündən sonrakı açıqlamasında vurğuladığımız məsələyə də toxunmuşdu. "Yerli əhalinin ilk növbədə hüquqlarının və təhlükəsizliyinin təmin olunmasına ehtiyacı var", – deyən vasitəçi bu kontekstdə Avropa İttifaqının Bakı ilə Qarabağda yaşayan ermənilərin nümayəndələri arasında birbaşa dialoqu dəstəklədiyini diqqətə çatdırmışdı. Bu dialoqun çox vacib əhəmiyyət daşıyan etimadı təmin etməli olduğuna diqqət çəkmişdi.

Göründüyü kimi, cənab Mişel "erməni nümayəndələr" ifadəsini işlədir. Deməli, kollektiv Qərb Ermənistan hakimiyyəti tərəfindən irəli sürülən "Bakı-Xankəndi" dialoqu kimi siyasi avantüranın yalnız "dialoq" məntiqinin üzərində dayanır. Qarabağdakı separatçı rejimi nəzərə almır. Deyə bilərik ki, bu, nə rəsmi İrəvana, nə də Rusiyaya sərfəlidir. Ölkənin Xarici İşlər Nazirliyinin 15 iyul bəyanatı da, əslində, Kremlin Qərb tənzimləməsinin gətirəcəyi və özünə xoş olmayan duruma preventiv münasibəti idi. Ermənistanın oxşar spekulyativ bəyanatları həddən artıq çox olduğundan, ölkənin mövqeyini yenidən qabartmağa ehtiyac duymuruq. Onsuz da hər şey məlumdur.

*

Sonda bir məqamı da vurğulayaq: Separatçıların R.Vardanyanın başçılığı və Rusiya sülhməramlılarının müşayiəti ilə keçirdikləri aksiya onu göstərir ki, Qarabağın yerli əhalisinin durumunu düşünən yoxdur. Aksiya insan amilinin deyil, yalnız siyasi məqsədlərin öndə olduğunu yenidən göstərdi. Bir daha aydın oldu ki, bölgədəki mövcud reallığı dəyişmək üçün dəridən-qabıqdan çıxan qüvvələr yerli ermənilər yaşam hüquqlarına təcavüz yolu tutmaqdan belə çəkinmirlər, ölkəmizin qarşısında dirəniş cəhdi göstərirlər.

Bəli, onu da bildirdik ki, bu sayaq gedişlər olduqca cılız mahiyyət daşımaqdadır. Heç şübhəsiz, belə hallara qarşı Azərbaycanın əks addımları olacaqdır. Bu addımlar zaman-zaman da atılıb və onların nəticəsində hazırda Qarabağda separatçılıq çənbəri xeyli daralıb və daralacaq da.

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# Siyasi avantürizm mərəzə çevriləndə...

## Ermənistanın bölgədə "gərgin humanitar vəziyyət"lə bağlı iddiaları onun sabitlikdə maraqlı olmadığından xəbər verir



(əvvəli 1-ci səhifədə)

### "Qarabağ əhalisi" kimdir?

Amma, əlbəttə ki, rəsmi Bakı hayların baş diplomatının əsassız iddialarını, sərsəm açıqlamalarını cavabsız buraxmadı. Azərbaycan XİN A.Mirzoyanın dediklərinə operativ və kəskin reaksiya verdi:

"İyulun 18-də Avstriyanın Avropa və beynəlxalq məsələlər üzrə federal naziri Aleksandr Şallenberqlə mətbuat konfransı zamanı Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan növbəti dəfə Azərbaycanı bir sıra əsassız iddialarla təqsirləndirərək, bölgədə sülh və sabitliklə maraqlı olmadığını deyib.

Ermənistan xarici işlər nazirinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etmək əvəzinə, 30 ilə yaxın müddətdə işğal altında saxladığı, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdiyi Qarabağda yaşayan ermənilərin "hüquq və təhlükəsizliyini" bəhanə gətirərək, sülh prosesinə mübahisəli iddialarla maneçilik törətməsi Ermənistan rəsmilərinin əsl niyyətindən xəbər verir. "Qarabağ əhalisi" dedikdə yalnız erməni sakinlərin hüquqlarının nəzərdə tutulması və bu torpaqlardan qovulmuş azərbaycanlı sakinlərin "hüquq və təhlükəsizliyinin" gözardı edilməsi qəbuledilməzdir".

Mirzoyanın Bakıya qarşı iddia və tələbləri hüquqi, məntiqi nonsenslə yanaşı, ironiyalı gülüş doğuran məqamlarla "zəngindir". Elə götürək həmin Beynəlxalq Ədalət Məhkəməsinin Mirzoyanın dediyi iki məlum qərarını. Beynəlxalq Femida çıxardığı qərarları ilə Azərbaycanın öz sərhədləri daxilində suveren ərazisinə nəzarət hüququnu təsdiqləyib. Bu isə avtomatik olaraq şərti sərhəddə, Laçın yolunda Azərbaycanın qurduğu nəzarət-buraxılış məntəqəsinin ləğv edilməsi barədə Ermənistanın tələbinin tam əsassız olduğunu isbatlayır. Yəni, bizim ölkəmizdən nə İrəvanın, nə də bir başqasının nəsə tələb etməyə heç bir hüquqi ixtiyarı yoxdur.

### Alternativ yol haylara sərf eləmir

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə ötən həftə Brüsseldə keçirilən Azərbaycan və Ermənistan liderlərinin Zirvə görüşündə danışıqlar masasına qoyulan məsələlərdən biri də Xankəndiyə humanitar yardımların Ağdam vasitəsilə çatdırılması olub. Təbii ki, bu zaman Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin təchizatı da məhz Ağdam-Xankəndi yolu ilə təmin edilməlidir. Bakının Laçın yoluna alternativ kimi təklif etdiyi bu marşrut, əslində, indiki şəraitdə ən optimal variant sayılmalıdır. Amma, nədənsə, Qarabağın erməni sakinlərinə humanitar yüklərin məhz bu yolla çatdırılmasına rəsmi İrəvan etirazını bildirdi. Ən azı Brüssel görüşündən sonra hayların Bakının bu təklifinə verdiyi reaksiyalardan bu qənaətə gəlmək mümkündür. Azərbaycan XİN bəyanatında bu məsələyə də aydınlıq gətirir:

"Azərbaycan erməni sakinlərlə dialoq təşəbbüsü ilə çıxış edən tərəfdir və Azərbaycanın bu xoşniyyətli addımlarına qarşılıq verilməsi vacibdir. Bununla yanaşı, Ermənistan tərəfinə aydın olmalıdır ki, Azərbaycan ölkədə yaşayan bütün etnik azlıqların hüquq və təhlükəsizliyini bərabər şəkildə təmin edir və edəcək. Bölgədə "gərgin humanitar vəziyyət" iddiaları Ermənistanın siyasi avantürası və manipulyasiyasıdır. Azərbaycan tərəfindən təklif olunan Ağdam-Xankəndi yolu vasitəsilə yüklərin daşınmasına qarşı çıxılması da bu iddiaların heç bir əsasının olmadığının nümunəsidir".

Ermənilərin Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yoluna qarşı çıxmasının səbəbi nədir? Maraqlıdır ki, İrəvanla paralel olaraq Moskva da Bakının alternativ marşrutunu ötü üçün qəbulolunmaz sayır. Səbəb isə çox sadədir. Axı yeni yolla həm Qarabağın erməni sakinlərinin, həm də Rusiya sülhməramlılarının təminat və təchizatı həyata keçiriləndə Xankəndidə və ətraf ərazidə nə qədər ermənin yaşadığı üzə çıxacaq. Bizə çoxdan bəllidir ki, separatçılar 120 mindən dəm vursalar da, Qarabağdakı hayların gerçək sayı bundan qat-qat azdır. Digər tərəfdən, sülhməramlıların sayının da üçtərəfli Bəyanatda göstərilən 1960 nəfərdən artıq olduğu faktı yeni yolda aşkar bilinəcək. Deməli, məhz bu səbəbdən İrəvan və Moskva Ağdam-Xankəndi yolunda görünmələrini istəmir. Rəsmi Bakının siyasi iradəsi və qətiyyətinə qarşılıq olaraq Kremlin Azərbaycana qarşı aqressiv mövqe nümayiş etdirməsi müşahidə olunmaqdadır. Daha həqiqəti gizlətməyin yeri yoxdur. Bəli, Rusiya sülhməramlı hərbi kontingenti Qarabağımızda separatçıları silahlandırır, onları Azərbaycana qarşı körükləyir, eləcə də revanşist-daşnak xunta rejimindən bezmiş erməni sakinlərin bölgəni tərk etmələrinə maneçilik törədir. Azərbaycan Ordusunun mövqelərinin müntəzəm olaraq Qarabağdakı separatçılar tərəfindən atəşə tutulması da, şübhəsiz, "sülhməramsızların" əməlləridir. İndi faktiki olaraq, onlar Ağdam-Xankəndi yolunu özləri üzlərinə bağlayıblar...



### Dövrəyə yenə Klaar girir

"Biz Dağlıq Qarabağ əhalisinin hüquqlarını və təhlükəsizliyini təmin edəcək həll variantı üzərində işləyirik. İnsanlar öz evlərində özlərini təhlükəsiz hiss etməlidirlər. Biz Stepanakertlə (?) (bir müddət əvvəl Xankəndi yazan və buna görə ermənilərin qəzəbinə tuş gələn Toivo Klaar indi "qələtini" düzəltməyə çalışır) Bakı arasında dialoq qurmağa çalışırıq. Hesab edirəm ki, tərəflər bunu müzakirə edərək bütün məsələlərin həll yollarının axtarışında vacib element sayırlar".

Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar dünən ağzını göyə açıb, yenə Laçın yolundan danışıb. Azərbaycanın suveren ərazisi sayılan Laçın rayonunda keçidə nəzarət etməsi Aİ missionerini nədən bu qədər narahat edir? BMT üzvü olan bir ölkənin özünün sərhəd qapılarına nəzarət tətbiq etməsi həm daxili qayda-qanunlara, həm də beynəlxalq hüquqa əsaslanır. Yəqin bunu Aİ-nin xüsusi nümayəndəsi də bilməmiş deyil. Cənab Klaarın diqqətinə onu da ərz edək ki, "Dağlıq Qarabağ" ifadəsi mövcud deyil! Azərbaycanın Qarabağ iqtisadi rayonu var! Və burada yaşayan əhali yalnız etnik ermənilərdən ibarət olmayıb. Bəs onda bu avropalı diplomat-emissar nədən bölgənin aborigenlərini – 30 ildir doğma yurd-yuvalarından didərgin salınmış Azərbaycan türklərini yada salmaq istəmir?!

Klaarın bu açıqlaması isə onun litseydə siyasi coğrafiyadan "iki" almasının göstəricisidir: "Laçın dəhlizi açılmalı, Ağdamdan keçən yol Laçın dəhlizinə əlavə olmalıdır". Cənab xüsusi nümayəndəyə gedib xəritəyə baxmasını məsləhət görürük. Onda bəlkə o, Laçın yolu ilə Ağdam-Xankəndi yolunun bir-birinə qəti aidiyyatı olmadığını görər və anlayar.

### Bakının səbrini bir də sınağa çəkməyin...

Azərbaycan XİN-in Mirzoyana cavab-bəyanatında birmənalı olaraq vurğulanır ki, İrəvan bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin bərpa edilməsində maraqlı deyil. Bəli, aydın görünən reallıq ondan ibarətdir ki, Ermənistan sülh danışıqlarının indiki həlledici mərhələsində siyasi riyakarlığa və saxta manipulyasiyalara cəhdlər göstərir. Üstəlik, Paşinyan iqtidarı dialoq prosesinin uğurla nəticələnməsi üçün beynəlxalq hüququn onun boynuna qoyduğu öhdəliklərə də əməl etmək istəmir. İki il səkkiz aydır hayların hər cür şıltaqlığına dözürük. Rəsmi İrəvanın sülhə gəlməsi üçün həm bizim və həm də onlar üçün məqbul sayılacaq çox təkliflər verdik, güzəştə getməyə hazır olduğumuzu bildirdik. Hətta Qarabağ ermənilərinə ötən illərdə törətdikləri cinayətlərin, təxribatların üstündən keçərək amnistiya tətbiq edəcəyimizi rəsmən bəyan etdik. Anlamadılar, Bakının bunca insani, humanist addımını dəyərləndirməyə revanşist-şovinist beyinləri imkan vermədi. Amma bu qədər kifayətdir. Ürəyiyumşaqlığımızı, səxavətimizi sınağa çəkdiyiniz yetər. İndi Xankəndinin mərkəzi meydanında günlərini sayan baş separatçınız Arayikin ətrafına toplaşaraq keçirdiyiniz oturaq aksiyada yaxşı-yaxşı fikirləşin, olanlardan düzgün nəticə çıxarın. Sizə bir məsləhətimiz də var: ehtiyatlı olun, meydanda oturaq vəziyyətdə çox qalmayın, yoxsa... O zaman təcili müalicəyə ehtiyac duyacaqsınız. İntəhası, naqolay xəstəlikdən qurtulmaqdan ötrü kənara, tutaq ki, Moskvaya getmək üçün Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş rus sülhməramlıları uzağı bir nəfərə – Arayik Arutyunyana şərait yaradacaq. Fəqət, baş separatçı Qarabağdan eynilə Vardanyan kimi, sülhməramlıların yük maşınında, çirkli məhəfələrin altında gizlənərək çıxmalı olacaq...

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

### Ekspert rəyi



**Tofiq ABBASOV, politoloq**

İrəvan Qarabağ prosesinə müdaxilə etmədiyini deyir. Guya Qarabağ erməniləri özləri öz müqəddəratlarını həll etməyə çalışırlar. Bu, Bakı ilə Xankəndi arasında danışıqların mövzusu, predmetidir. Amma biz yaxşı bilirik ki, Ermənistan Azərbaycanın daxili işlərinə qarışmaqda davam edir. Digər tərəfdən isə qondarma rejimin qondarma prezidenti Arayik Arutyunyan Azərbaycana xəbərdarlıq edir ki, "belə getsə, biz sərt tədbirlərə əl atacağıq". Bunlar ya adam dilini anlamır, ya da nə etdiklərinin fərqinə varmağa əqli qüsurları imkan vermir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş komandanı İlham Əliyev birdəfəlik bildirib ki, Qarabağ problemi bizim daxili məsələmizdir. Əslində, heç problem də deyil. Erməni sakinlər üçün yeganə çıxış yolu reinteqrasiyadır, əgər bunu istəmirlərsə, çıxıb gedə bilərlər. İndi, guya, Qarabağ ermənilərinin taleyi ilə bağlı beynəlxalq mexanizm qurulmalıdır, digər ölkələr bunun üzərində işləməlidir və s. Bu kimi sərsəm bəyanatların ermənilərə heç bir faydası yoxdur və olmayacaq. Ona görə öz işlərini elə formada qursunlar ki, başları salamat qalsın. Əgər onlar silaha əl atsalar, Azərbaycan bu prosesi çox sərt şəkildə çözəcək. Yəni Qarabağda antiterror əməliyyatı keçirməklə saparatçıları sülhə məcbur edəcək. Bir də təkrar edirik: şərtlərimizi qəbul edən qalsın, etməyən rədd olub getsin!

Ararat Mirzoyan, Nikol Paşinyan gündə bir hava çalırlar. Əslində, heç özləri özlərini eşitmirlər. Bunun adı kliniki naqislikdir. Bu səbəbdən onlarla danışıq aparmaq, razılığa gəlmək müşkül məsələyə dönüb.

# Paşinyan iqtidarında başıpozuqluqdur

## Qərbdə özünə arxa-dayaq axtaran Ermənistan Moskvanın qəzəbinə tuş gəlib

**Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı 30 ilə yaxın dövrdə əsas güvənc yeri Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) adlanan hərbi-siyasi qurum idi. Bu da səbəbsiz deyildi. Çünki KTMT-nin nüvəsində Rusiya Federasiyası dayanır. Ermənistan isə Rusiyanın Cənubi Qafqazda əsas müttəfiqi hesab olunurdu. Əsas beynəlxalq məsələlərin əksəriyyətində Rusiya və Ermənistanın mövqeləri üst-üstə düşür və ya çox yaxın idi. Beləliklə, İrəvan Moskva ilə sıx müttəfiqlik münasibətinə istinad edərək işğal rejimini sürdürür, Azərbaycanla imitasiya xatirinə danışıqlar aparır, qoşunların təmas xəttində vaxtaşırı təxribatlar törədirdi.**



Nikol Paşinyanın 2018-ci ildə Ermənistanda "məxməri inqilab" yolu ilə hakimiyyəti ələ keçirməsindən sonra danışıqların mahiyyəti tamam dəyişdi. Bəllidir ki, Paşinyan 2019-cu ilin avqustun 5-də işğal altındakı Xankəndi şəhərinə növbəti dəfə qanunsuz səfər etdi. O, şəhərin mərkəzi meydanında çıxış edərək bədnam "Qarabağ Ermənistandır və nöqtə" fikrini səsləndirdi. Bu sözü həmin ilin sentyabrında Qarakilsə (ermənilər Vanadzor deyir-S.H.) şəhərində keçirdiyi mətbuat konfransında da təkrarladı. Paşinyan eyforiyada idi, necə deyərlər, kefi göylə gedirdi. Atdığı addımların məsuliyyətini dərk etmir, Azərbaycanın səbr kasasının daşmaq üzrə olduğunun fərqinə varmır, eyni zamanda, Bakının qüvvələr balansını öz xeyrinə dəyişdirdiyini, ölkəmizin gücünü lazımınca qiymətləndirmirdi. Bir sözlə, rəsmi İrəvan hər şeyi etdi ki, təki müharibə başlasın. Paşinyan əmin idi ki, arxalandığı güclər, əsasən də KTMT və Rusiya ona ciddi hərbi dəstək verəcək. Ən pis halda, onlar Azərbaycanın zəfər yürüşünü durdura biləcəklər. Ancaq yanlış hesablama burada da öz sözünü dedi. Azərbaycan ötən müddətdə ciddi diplomatik iş apardı. Haqq işi apardığını bütün dünyaya sübut etmişdi. Həmçinin Hayastanın sıx müttəfiqlərini neytrallaşdırmışdı. Nəticədə, ölkəmiz əleyhinə diplomatik təxribatlar da uğursuzluğa düçar oldu. İrəvanın təhriki ilə başlayan İkinci Qarabağ müharibəsi onun sarsıdıcı məğlubiyyəti ilə yekunlaşdı.

Moskvadan istənilən hərbi-siyasi dəstəyin əldə olunmaması, üstəlik, Vətən müharibəsindən sonrakı dövrdə sərhədyanı ərazilərdə baş verən toqquşmalar zamanı KTMT-nin Ermənistan-Azərbaycan sərhədinin demarkasiya edilmədiyini əsas gətirərək, yaxasını bu məsələdən kənara çəkməsi Ermənistanda anti-Rusiya isteriyasının yaranmasına gətirib çıxardı. Onsuz da Paşinyanın özü də daxil olmaqla hökumətinin əksər üzvləri Qərbpərəstlərdən təşkil olunub. Yeri gəlmişkən, onun müharibədən sonra xarici işlər naziri təyin etdiyi Ararat Mirzoyan bir vaxtlar əlinə plakat götürərək Rusiya əleyhinə aksiyalar təşkil etmiş şəxsdir. Belə bir komanda ilə Rusiya əleyhinə çıxmaq o qədər də çətin deyildi.

İndi isə Ermənistan rəhbərliyi vurnuxur. İrəvan Rusiyadan nəinki müharibə dövründə və ondan sonra istədiyi hərbi-siyasi dəstəyi ala bilmədi, heç hazırda sifariş verdiyi və pulunu ödədiyi silah-sursatı belə əldə edə bilmir. Sonuncu dəfə bu istiqamətdə təhlükəsizlik şurasının katibi Armen Qriqoryan və xarici işlər nazirinin müavini Mnatsakan Səfəryan narazılıqlarını bildirmişdilər. Onlar qeyd etmişdilər ki, sifariş verdikləri və pulunu ödədikləri silah-sursatı Rusiyadan ala bilmirlər.

Beləliklə, Şimaldan istədiyi hərbi-siyasi dəstəyi ala bilməyən Paşinyan rejimi hazırda gah Şərqdə, gah da Qərbdə özünə dəstək axtarır. İrəvan Hindistan, Fransa, Yunanıstan və Kipr kimi ölkələrlə hərbi əməkdaşlığı genişləndirməsinə, habelə silah alqı-satqısına dair müqavilələr imzalamasına bu kontekstdə yanaşılmalıdır.

***

Hayların hərbi əməkdaşlıq üçün üz tutduqları ünvanlardan biri də okeanın o tayı – ABŞ olub. Belə ki, Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi, müdafiə nazirinin birinci müavini, general-leytenant Edvard Asryan bugünlərdə Vaşinqtona işgüzar səfər edib. Məlumata görə, səfərdə məqsəd ABŞ Dövlət Qvardiyasının Milli Əməkdaşlıq Proqramının 30-cu ildönümünə həsr olunan konfransda iştirak etməkdir. Erməni general bu çərçivədə iyulun 18-də ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədr müavini, admiral Kristofer Qreydi və ABŞ Hərbi Hava Qüvvələrinin Baş Qərargah rəisi, general Çarlz Braunla görüşüb. Görüşlərdə Ermənistan-Amerika müdafiə tərəfdaşlığının hazırkı mərhələsi, qarşıda duran proqramlar, birgə tədbirlərin keçirilməsi, "tapşırıq komandanlığı" konsepsiyasının və peşəkar serjant sisteminin tətbiqi, hərbi hava qüvvələri sahəsində daha geniş əməkdaşlıq imkanları ilə bağlı bir sıra məsələlər, həmçinin regional təhlükəsizlik məsələləri müzakirə edilib.

### Ekspert rəyi



**Şair RAMALDANOV, ehtiyatda olan polkovnik**

– Ermənistanın müxtəlif qütblər arasında manevr etməsi ilk dəfə deyil. Bu ölkə səxər boyu bütün dövlətlər və xalqlar tərəfindən etibarsız tərəfdaş kimi qəbul olunub. Həmişə də belə olacaq. Bununla bağlı bəzi tarixi şəxslərin müəyyən fikirləri də var. Hazırda Rusiya Ukraynadakı müharibə səbəbindən çətin durumdadır. Onun lokomotivi adlandıra biləcəyimiz KTMT ilə NATO bir-birinə qarşı duran bloklardır. İrəvanın hərbi əməkdaşlıq etdiyi Fransa NATO-nun üzvüdür. İndi isə Edvard Asryanın ABŞ-a səfər etməsində təəccüblü heç nə yoxdur. Bu, Ermənistanın siyasi dəst-xəttinə uyğundur. Hazırda dünya iki qütbə bölünüb. Bir tərəfdə Rusiya, digər tərəfdə ona qarşı olan dövlətlər dayanır. Paşinyanın apardığı siyasət, atdığı addımlar, Rusiyaya qarşı olan qüvvələrlə, yaxud ölkələrlə bilavasitə təmasda olması həm Rusiyanı, həm də KTMT-nin digər üzvlərini qıcıqlandırır. Onlar bunu müxtəlif yollarla Paşinyana iqtidarına çatdırırlar.

Hazırda ABŞ-ın Cənubi Qafqazdakı ən böyük səfirliyi İrəvanda yerləşir. Avropa İttifaqının müşahidə missiyası da Ermənistanda qərar tutub. Bunlar Rusiyaya qarşı olan qüvvələrdir. Bu gün Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinin Vaşinqtona səfər etməsi ermənilərin mahiyyətini bir daha nümayiş etdirir. Ancaq digər tərəfdən, onun səfərində prinsipcə təəccüblü heç nə yoxdur. Paşinyanın atdığı addımların yanında Asryanın addımları heç nədir. Təbii ki, o, baş qərargah rəisi kimi ali baş komandanın siyasətini həyata keçirən icraçıdır. Ona görə də mən düşünürəm ki, bu səfər bütövlükdə Ermənistan hərbi-siyasi rəhbərliyinin xəttidir. Baş qərargah rəisi praktik icraçı kimi bu xətt üzrə hərəkət edir.

Bundan başqa, nəzərə almaq lazımdır ki, hazırda Brüssel formatında danışıqların müxtəlif raundları Vaşinqtonda keçirilir. Ola bilsin ki, Asryanın səfəri zamanı da təhlükəsizliklə bağlı hansısa məsələlər müzakirə olunub.

Hazırda ABŞ-la və bütövlükdə, kollektiv Qərblə Ermənistanın ən yaxın strateji müttəfiqi Rusiyanın münasibətləri Ukraynadakı savaş səbəbindən "soyuq müharibə" dövründən sonra ən pis həddədir. Müharibə səbəbindən Rusiya dünyada təklənib, onun ənənəvi müttəfiqləri isə ya ondan üz döndərib, ya da ən yaxşı halda neytral qalıblar. Bu çərçivədə İrəvan ehtiyatlı davranaraq, Moskva ilə məsafə saxlamağa üstünlük verir. N.Paşinyan bu yaxınlarda, daha doğrusu, mayın əvvəlində Çexiyada olarkən "CNN Prima News" televiziya kanalına verdiyi müsahibə zamanı bəyan edib ki, ölkəsi Ukrayna münaqişəsində Rusiyanın müttəfiqi deyil. Lakin bu vəziyyət iki ölkə arasındakı münasibətlərə birbaşa təsir edir. İndi isə Paşinyan ordunun ikinci şəxsini hərbi əməkdaşlıq üçün Rusiyanın əsas rəqibinin üstünə göndərib. Zənnimizcə, buradan hansı nəticənin çıxdığını Moskvada təxmin etmək çətin deyil.

Onu da qeyd edək ki, müdafiə naziri Suren Papikyan mülki şəxsdir. Onun daşıdığı nazir vəzifəsi də siyasi vəzifədir. Edvard Asryan isə hərbçi karyerasına malikdir. O, bu vəzifəyə bir il öncə – 2022-ci ilin iyulun 14-də təyin olunub. Təyinat zamanı Ermənistan mediasında E.Asryan haqda yayılan üç fakt diqqət çəkirdi. Qeyd olunurdu ki, E.Asryanın həyat yoldaşı və iki övladı Ermənistan yox, Rusiya vətəndaşıdır. İkincisi, E.Asryan şərti olaraq "Qasparyan böhranı" adlanan hadisələr zamanı Paşinyana qarşı çıxan generallardandır. Belə ki, o, 2021-ci ilin fevralında keçmiş baş qərargah rəisi Onik Qasparyanla N.Paşinyan arasında yaranmış qarşıdurma zamanı baş nazirin və hökumətin istefasını tələb edən 44 generaldan biridir. Hayların mediası Asryanın "Qarabağ klanı"na bağlı olduğunu yazırdı. Üçüncü məqam isə onun Xocavənd rayonunun Azıx kəndində anadan olması, işğal dövründə Qarabağda "xidmət" etməsi idi.

Paşinyanın ailə üzvləri Rusiya vətəndaşı olan, Qarabağda doğulmuş və bölgəni yaxşı tanıyan, "Qarabağ klanı"na yaxınlığı ilə seçilən, xüsusilə onun istefasını tələb edən generalı niyə baş qərargah rəisi təyin etməsini Ermənistan mediasının bir müddət müzakirə etdiyini diqqətli oxucular yaxşı xatırlayır. Görünür, Rusiya ilə bu cür bağlılığa rəğmən, ABŞ-la, bütövlükdə Qərblə hərbi əməkdaşlığı inkişaf etdirməyə çalışması, danışıqlar aparması, əsl hay xislətinə uyğun olaraq iki stulda eyni vaxtda oturmaq fərasəti Edvard Asryanın baş qərargah rəisi təyin olunmasını şərtləndirən əsas amillərdən imiş...

*Səxavət HƏMİD, "Xalq qəzeti"*

# Nazir vətəndaş qəbulu və sıra baxışı keçirib

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 18-də və 19-da Mingəçevir Şəhər Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib. Həmin gün nazir 96 vətəndaşı dinləyib, 32-si Vətən müharibəsi iştirakçısı olmaqla 225 gənci polis orqanlarına xidmətə qəbul edib.**



Bu barədə Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, nazir əvvəlcə Mingəçevir şəhərindəki Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra Şəhər Polis Şöbəsinin inzibati binasında Yevlax, Ağdaş, Ucar, Şuşa, Tərtər, Mingəçevir şəhər və rayonlarından qəbula gələn 96 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 32-si Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 225 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*"Xalq qəzeti"*

# Demarkasiyanı dalana dirəyən səbəblər

## Ermənistan və Azərbaycan arasında sərhədin demarkasiyasının neçənci ilin xəritəsi ilə aparılacağı hələ məlum deyil

**Bu məsələdə hələlik tərəflər arasında razılıq əldə olunmayıb. Ermənistan və Azərbaycan arasında sərhədin demarkasiyası üzrə komissiyanın dördüncü iclasında tərəflər prosesdə əsas kimi neçənci ilin xəritəsindən istifadə olunacağı barədə hələlik ortaq məxrəcə gələ bilməyiblər. Bu barədə Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın ofisinə istinadla "pastinfo" məlumat verib. Məlumatda birgə komissiyanın növbəti görüşünün harada və nə vaxt keçiriləcəyi göstərilmir. Əslində, burada təəccüblü heç nə yoxdur. Sərhədin demarkasiyasının həm texniki, həm də hərbi-siyasi tərəfləri var. Məsələ bundadır ki, Ermənistan SSRİ dövründəki inzibati sərhədləri qəbul etmək istəmir. Bununla paralel olaraq yenə də Azərbaycana qarşı ərazi iddialarını davam etdirir və təcavüzkar siyasətindən əl çəkmir. Göründüyü kimi, tərəflər arasında yalnız yekun sülh müqaviləsi imzalanandan sonra bu məsələ tam həllini tapa bilər.**



"Biz eramızdan əvvəlki dövrün xəritələrinə müraciət edə bilərik. Əminik ki, biz həmin xəritələrdə Ermənistanın ərazisini tapacağıq, həmçinin ona da əminik ki, Azərbaycanı heç kim onlarda tapa bilməz". Ermənistan baş naziri Nikol Paşinyan bu sözləri 2023-cü il mayın 4-də Praqada Transatlantik Münasibətlər Mərkəzində müzakirələr zamanı çıxışında demişdi. İki ölkə arasında sərhədin delimitasiya və demarkasiyası ilə bağlı məsələ dəfələrlə sülh danışıqlarının müzakirə mövzusu olub. Bu prosesdə Rusiya arxivində olan 1920-ci il xəritələri, o cümlədən 1974-cü il xəritələrindən bəhs edilib. İrəvan və Bakı son variant kimi 1975-ci ilin SSRİ Silahlı Qüvvələri Baş Qərargahının xəritəsi üzərində dayanmışdılar. Amma, görünür, Ermənistan hökuməti bu xəritədə də özünü qane etməyən nəsə tapıb.

Məsələ ondadır ki, 1986-87-ci illərdə keçmiş Azərbaycanın SSR-nin o dövrki birinci katibi Kamran Bağırovun "örüş yeri kimi" 3 min hektar ərazini əhatə edən Qazaxın 7 kəndini Ermənistana verməsi həmin kəndlərin anklava çevrilməsinə səbəb oldu. Artıq 37 ildir ki, o kəndlər Azərbaycan sərhədlərindən kənarda qalıb. Danışıqlar prosesində İrəvan həmin kəndləri qaytarmamaq, yaxud da anklav olaraq saxlamaq üçün müxtəlif bəhanələr uydurmağa çalışır. O ki qaldı, Paşinyanın istinad etməyə çalışdığı "qədim xəritələr" məsələsinə, bu, hay yalanından və riyakarlığından qeyri bir şey deyildir. "Böyük Hayastan" röyasından hələ də ayılmayan ermənilər bu əfsanəni özləri uydurub, özlərini də buna "inandırıblar". Fəqət indi bütün dünya bilir ki, ermənilər Cənubi Qafqaza gəlmədirlər, XIX əsrə qədər bu coğrafi məkanda "hay" adında "hopens" olmayıb.

Sərhədin müəyyən edilməsində öz köməyini təklif edən Moskvanın son davranışlarından sonra 10 noyabr bəyanatının bu bəndi üzrə danışıqların dalana dirənməsi gözlənilən idi.

*İ.HƏSƏNQALA, "Xalq qəzeti"*

# Gələn il ölkəmiz Beynəlxalq Müdafiə "ADEX" sərgisinə ev sahibliyi edəcək



**Gələn il ölkəmiz regionda müdafiə sənayesinə həsr olunmuş ən nəhəng tədbir olan Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" sərgisinə ev sahibliyi edəcək.**

Sentyabrın 24-26-da təşkil ediləcək sərgi 5-ci yubileyini qeyd edəcək. "ADEX" sərgisi ilə paralel olaraq, 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgisi də keçiriləcək. Sərgilər Bakı Ekspo Mərkəzində təşkil ediləcək.

Tədbiri müxtəlif ölkələrin yüksəkrütbəli şəxsləri ziyarət edir. Ənənəvi olaraq, Prezident İlham Əliyev "ADEX" və "Securex Caspian" sərgiləri ilə tanış olur. 2022-ci ildə təşkil edilmiş sərgilərin açılış mərasimində isə dövlətimizin başçısı ilə yanaşı, müdafiə naziri, general-polkovnik Zakir Həsənov və müdafiə sənayesi naziri Mədət Quliyev də iştirak edib.

"ADEX" sərgisi Azərbaycanın və dünya şirkətlərinin hərbi-sənaye komplekslərinin gücü və qüdrətinin genişmiqyaslı nümayişi, hərbi-texniki sahədə yerli və xarici ekspertlər arasında konstruktiv ünsiyyət, təcrübə mübadiləsi və səmərəli əlaqələrin qurulmasına şərait yaradır. Tədbiri ziyarət edən peşəkarlar müxtəlif ölkələri təmsil edən şirkətlərin təqdim etdiyi müdafiə kompleksindəki yeniliklərlə, həmçinin Azərbaycanın güc strukturlarının satınalma potensialı ilə tanış ola biləcəklər.

Bu sərgi dəniz, hava və quru qoşunları üçün nəzərdə tutulmuş məhsulların, eləcə də milli təhlükəsizlik (Homeland Security) məhsullarının təqdim edilməsi üçün ideal platformadır. Bununla yanaşı, "ADEX" sərgisi sektorun iştirakçıları, ziyarətçiləri və ekspertləri arasında təcrübə mübadiləsinə, o cümlədən məhsulların regional müdafiə sənayesi bazarının tələblərinə uyğun olaraq modernləşdirilməsinə şərait yaradır.

Növbəti il keçiriləcək "ADEX 2024" sərgisində təyyarə və aviasiya sistemləri, dəniz gəmiləri və hərbi dəniz sistemləri, zirehli döyüş nəqliyyat vasitələri, hərbi laboratoriyalar, hərbi təhsil müəssisələri, logistika xidmətləri, radioelektron sistemlər, C4ISR, optik-elektron avadanlıq və sistemlər, pilotsuz sistemlər, hərbi geyim və ləvazimatlar, silah və sursat, simulyatorlar və təlim sistemləri, radiasiya, kimyəvi və bioloji müdafiə (RKB), hərbi təşkilatlar, ixracın təşviqi ilə məşğul olan müəssisələr və digər sektorların təmsil olunması planlaşdırılır.

# Ölkəmiz beynəlxalq logistika qovşağına çevrilib

## I yarımildə ərazimizdən 30 milyon ton yük daşınıb

(əvvəli 1-ci səhifədə)

Göründüyü kimi, Prezident İlham Əliyevin mövcud sahəyə diqqət və qayğısının nəticəsidir ki, bu gün Azərbaycanın beynəlxalq yükdaşımalarda fəaliyyəti getdikcə genişlənir. Bu, müxtəlif istiqamətlərdə hərəkət edən nəqliyyat vasitələrinin sayının getdikcə artması, mövcud sahədə bazarın şəffaflaşması nəticəsində "kölgə"də işləyən daşıyıcıların qeydiyyata alınması, onların bəzilərinin fəaliyyətinin bərpa edilməsi, bəzilərinin isə daxili bazardan beynəlxalq bazara keçidinin reallaşması ilə bağlıdır. Bundan savayı, yükdaşımalarda qanunvericiliyin təkmilləşdirilməsi də daim diqqət mərkəzində saxlanılır.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, cari ilin 6 ayında isə idxal-ixrac əməliyyatları üzrə 29 milyon 910 min 271 ton yük daşınıb. Bunun isə 4,8 faizi dəniz, 12,7 faizi dəmir yolu, 8,7 faizi isə avtomobil nəqliyyatına aid olub. Xarici ticarət əməliyyatları üzrə nəqliyyatın bütün növləri ilə daşınan yüklərin dəyəri isə həmin dövr üzrə 26 milyard 166 milyon 413 min ABŞ dolları təşkil edib.

Hazırda yük daşımaların artmasında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) fəaliyyəti daha çox diqqət çəkir. Bu marşrut Çindən Türkiyəyə və Avropa ölkələrinə, eləcə də əks istiqamətdə yük axınının artırılmasına xidmət etməklə region ölkələrinin ticarət-iqtisadi əlaqələrinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.



Cari ilin I yarısında Orta Dəhlizin Azərbaycan seqmenti üzrə yükdaşımaların həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,8 dəfə və yaxud 77,2 faiz artaraq 1 milyon 325 min ton təşkil edib.

Xatırladaq ki, Orta Dəhliz Çindən Avropaya quru yolla daşınan yüklərin Qazaxıstan və Azərbaycandan keçərək ötürülməsini nəzərdə tutur. Çin yükləri Qazaxıstanın sərhəddə yerləşən Dostık dəmir yolu stansiyasından daxil olaraq birbaşa Xəzərdə yerləşən Aktau dəniz limanına daşınır və oradan bərə ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gətirilir. Buradan isə Türkiyə və Gürcüstanın Qara dəniz limanları vasitəsi ilə Avropaya ötürülür.

Yeri gəlmişkən, burada bir məqama da toxunmaq istərdik. Belə ki, Rusiya–Ukrayna müharibəsi başlayandan indiyədək dünyanın ən böyük yükdaşıma şirkətləri tərəfindən Azərbaycan üzərindən daşımaları şərtləndirən Orta Dəhlizdən istifadəyə start verilib. Bu isə ölkəmizin ərazisindən tranzit yükdaşımaların həcmində kəskin artıma gətirib çıxarıb.

Orta Dəhlizin tam gücü ilə işə düşməsi üçün gömrük sənədləşdirilməsinin unifikasiyası, "vahid pəncərə" sistemi və tarif siyasəti çərçivəsində ümumi prinsiplərin hazırlanması da sürətlənib. Bütün bunlar isə marşrutun həm kommersiya dəyərini, həm də geosiyasi önəmini artırmağa hesablanıb.

Beləliklə, Orta Dəhliz yalnız Azərbaycanın yox, bütün regionun iqtisadi inkişafına təkan verəcək, bölgədə sülh və sabitliyin bərqərar olması üçün əlavə təsir vasitəsinə çevriləcək, Avropa İttifaqı (Aİ) ölkələrinə yükdaşımaların fasiləsizliyini təmin edəcək.

Hazırda Çinlə Aİ arasındakı üç ticari marşrutdan biri məhz Orta Dəhlizdir ki, onun uzunluğu avtomobil və dəmir yolu ilə 4256 kilometr, dəniz yolu ilə isə 508 kilometrdir. Bu marşrut ilə hərəkət edən standart konteyner qatarı Çindən Aİ-yə yükləri orta hesabla 20-25 sutkaya çatdırır. Müqayisə üçün deyək ki, Çindən və Cənub-Şərqi Asiya ölkələrindən Aİ-yə yüklərin əhəmiyyətli hissəsi indi Süveyş kanalından keçilməklə 35-42 sutkaya daşınır.

Xəzər dənizində ən böyük ticari donanmaya (53 gəmi) malik olan Azərbayan Avropa və Asiya qitələrinin qovşağında yerləşdiyindən beynəlxalq miqyasda nəqliyyat habına çevrilib. Belə ki, ötən il ölkəmizdən keçən tranzit yükdaşımaların həcmi 75 faiz artıb. Artım bu ilin əvvəlindən bəri sürətlə yüksəlməkdədir.

Qeyd edək ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılaraq "vahid pəncərə" prinsipi tətbiq olunur.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### *Ekspert rəyi*

**Aqil ƏSƏDOV,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru**



Qloballaşma və inteqrasiya proseslərinin sürətlənməsi ilə xarakterizə olunan XXI əsr milli iqtisadiyyatın və onun ayrı-ayrı sektorlarının inkişafına öz təsirini göstərir. Qlobal məkanda baş verən sosial-iqtisadi proseslər bütövlükdə milli təsərrüfatların, eləcə də ayrı-ayrı sahələrin qarşısında müəyyən vəzifələr qoyur ki, bu vəzifələrin də uğurlu icrasını nəqliyyatın iştirakı olmadan təsəvvür etmək mümkün deyil.

Bütün bunları dəqiqliklə nəzərə alan Azərbaycan hökuməti ölkəmizdə nəqliyyat sisteminin təkmilləşdirilməsi, nəqliyyat xidmətlərinin yaxşılaşdırılması istiqamətində davamlı addımlar atır, müvafiq proqram və layihələr hazırlayaraq uğurla reallaşdırır. Ölkə başçısının qəbul etdiyi qərar və sərəncamlar ölkəmizin nəqliyyat sistemində idarəetmənin və xidmətlərin təkmilləşdirilməsi, beynəlxalq tələblərə uyğunlaşdırılması və ümumilikdə milli nəqliyyat sisteminin dünya nəqliyyat sisteminə inteqrasiyasının hüquqi əsaslarını təşkil edir. Uğurla reallaşdırılan qərar və sərəncamların nəticəsidir ki, həyata keçirilən layihə və proqramlar mühüm nəqliyyat-tranzit qovşağı kimi Azərbaycan Respublikasında yeni bir nəqliyyat sistemi formalaşdırır.

Ölkədə mobillik, yol hərəkəti təhlükəsizliyi və yol-nəqliyyat infrastrukturu ilə bağlı vahid dövlət siyasəti, vahid institusional sistem, vahid prinsip və yanaşmalar, vahid nəzarət və cavabdehlik olmalıdır. Azərbaycan Respublikası Prezidentinin "Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması haqqında" 2023-cü il 19 aprel tarixli sərəncamı da məhz vahidlik, çeviklik, mobillik və səmərəli koordinasiyanın təmin olunması zərurətindən irəli gələn addımdır.

Onu da qeyd edim ki, bu istiqamətdə görüləsi işlər də çoxdur. Məsələn, Şimal-Cənub və Şərq-Qərb dəhlizləri boyunca, Azərbaycan daxilində TIR avtomobillərinin parklanması və sürücülərin istirahəti üçün, texniki baxış və xidmətlər üçün xüsusi məntəqələrin yaradılması zəruridir. Regional nəqliyyat qovşaqlarında intellektual idarəetmənin tətbiqi ilə daşıma sifarişlərini qəbul edən və tənzimləyən xüsusi mərkəzlərin formalaşdırılması isə dəhliz boyunca aktivliyi artıra bilər. Bütün bunlarla yanaşı, özəl sektorda yerli və beynəlxalq bazarda daşımaları həyata keçirməyə qadir milli daşıyıcı şirkətlərin fəaliyyətinin dəstəklənməsi vacibdir.



# Özbəkistanla əlaqələrimiz yüksələn xətlə inkişaf edir

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın dost Özbəkistanla iqtisadi əlaqələri ildən-ilə genişlənir. İqtisadi münasibətlərin dərinləşməsində ikitərəfli əməkdaşlıq üzrə müştərək hökumətlərarası komissiya mühüm rol oynayır. Xatırladaq ki, Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiya 1997-ci il iyunun 18-də Daşkənd şəhərində yaradılıb. Ötən müddətdə komissiya ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlığın inkişafına mühüm töhfələr verib.

İclasda çıxış edən Azərbaycan Respublikasının iqtisadiyyat naziri, hökumətlərarası komissiyanın həmsədri Mikayıl Cabbarov tədbirin Şuşada təşkil olunmuş ilk hökumətlərarası komissiya iclası olduğunu vurğulayıb. Nazir xalqlarımızı və ölkələrimizi dostluq münasibətləri, ortaq tarix, kök, ənənələr və mədəniyyətin birləşdirdiyini deyib, əlaqələrin genişləndirilməsi məqsədilə reallaşdırılan tədbirlərin önəmini diqqətə çatdırıb. Bildirilib ki, Özbəkistanla qarşılıqlı faydalı əlaqələr yüksələn xətlə inkişaf edir.

Azərbaycanla Özbəkistan arasında iqtisadi əlaqələrin mövcud vəziyyəti barədə məlumat verən iqtisadiyyat naziri qeyd edib ki, iqtisadi-ticarət, investisiya tərəfdaşlığımız genişlənir. Qeyd olunub ki, Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun yaradılması da investisiya əməkdaşlığının, işgüzar dairələr arasında dialoqun inkişafına yeni təkan verəcək. Bundan əlavə, enerji, regionlararası əməkdaşlıq, sənaye, xüsusilə avtomobil sənayesi, tekstil, kənd-təsərrüfatı, nəqliyyat-tranzit, səhiyyə, turizm, humanitar və digər sahələr üzrə əlaqələrin inkişafı iqtisadi əməkdaşlığımızın gündəliyində olan məsələlərdəndir.

İclasda Azərbaycanda əlverişli biznes mühiti, iqtisadi fəallığın artırılması istiqamətində tətbiq edilən mexanizmlər, azad olunmuş ərazilərimizdə həyata keçirilən reinteqrasiya tədbirləri barədə məlumat verilib. Özbəkistan tərəfindən Füzulidə 960 şagird yerlik məktəb binasının tikildiyi vurğulanıb, Qarabağın bərpasında iştirak etdiyinə görə qardaş ölkəyə minnətdarlıq ifadə olunub.

Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratov hökumətlərarası komissiyanın Şuşada təşkilindən məmnunluğunu ifadə edib, Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işlərini yüksək qiymətləndirib. Bildirilib ki, Özbəkistan işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinə töhfə verməyə daim hazırdır. Özbəkistanlı nazir ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu tərəfdaşlıq əlaqələrini vurğulayıb, yeni əməkdaşlıq istiqamətləri, işgüzar münasibətlərin inkişafı və birgə layihələrin icrası barədə fikirlərini bölüşüb.

İclasda iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi, nəqliyyat-tranzit, sənaye, energetika, kənd təsərrüfatı, investisiya və digər sahələrdə tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi barədə müzakirələr aparılıb.

Tədbirin sonunda hökumətlərarası komissiyanın həmsədrləri tərəfindən Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasının yekunlarına dair Protokol imzalanıb. Sənədə əsasən, iqtisadi-ticarət, enerji, nəqliyyat, innovasiyalar və startaplar, səhiyyə, kənd təsərrüfatı, qida təhlükəsizliyi, su təsərrüfatı, turizm, humanitar və sosial sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

İclasda Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Özbəkistanın Yenidənqurma və İnkişaf Fondu arasında Azərbaycan–Özbəkistan İnvestisiya Şirkətinin yaradılması haqqında saziş, həmçinin energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə dair sənədlər imzalanıb.

Yeri gəlmişkən, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün "Tvitter" səhifəsində Şuşa tədbiri ilə bağlı paylaşım edib. "Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratovla Azərbaycan–Özbəkistan birgə hökumətlərarası komissiyasının Şuşada keçirilən 12-ci iclasına həmsədrlik etdik. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi, sənaye, energetika, kənd təsərrüfatı sahəsində əməkdaşlığın və qarşılıqlı investisiyaların təşviqi istiqamətində həyata keçirilən tədbirləri dəyərləndirdik",–deyə paylaşımda qeyd edilib.

İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, nazirlərin Şuşa görüşündə dost Özbəkistanla ikitərəfli əlaqələrin inkişafında dövlət başçılarımızın siyasi iradəsinin, yüksək səviyyəli səfərlərin, keçirilən görüş və tədbirlərin xüsusi rolu vurğulanıb. Qeyd olunub ki, iqtisadi əlaqələrin inkişafında mühüm platforma olan Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın fəaliyyəti qarşılıqlı səylərlə daha da aktivləşdirilib. Görüşdə Azərbaycanın əlverişli biznes və investisiya mühiti, azad edilmiş ərazilərimizdə həyata keçirilən yenidənqurma və bərpa, həmçinin, biznesin dirçəldilməsi işləri, sərmayədarlar üçün yaradılan imkanlar barədə məlumat verilib, özbəkistanlı investorlar ölkəmizdə yaradılan işgüzar mühitdən yararlanmağa dəvət ediliblər.

Görüşdə iqtisadi-ticarət əlaqələrinin şaxələndirilməsi, nəqliyyat-tranzit, sənaye, energetika, kənd təsərrüfatı, investisiya və digər sahələrdə tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi barədə müzakirələrlə yanaşı, qarşılıqlı maraq doğuran digər məsələlərdən də ətraflı bəhs olunub.

Yeri gəlmişkən, Azərbaycan ilə Özbəkistan arasında əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 12-ci iclasında iştirak etmək üçün Şuşa şəhərinə səfər edən Özbəkistan nümayəndə heyəti ölkəmizin mədəniyyət paytaxtında həyata keçirilən bərpa və yenidənqurma işləri ilə tanış olub. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun və Özbəkistanın investisiyalar, sənaye və ticarət naziri Ləziz Kudratovun da iştirakı ilə keçirilən tanışlıq zamanı Şuşanın tarixi, dağıdılmış abidələrin bərpası istiqamətində həyata keçirilən tədbirlər, şəhərin yenidən qurulması məqsədilə görülən işlər haqqında ətraflı məlumat verilib. Özbəkistan nümayəndə heyətinin üzvləri qədim Azərbaycan şəhərinin bərpası və abadlaşdırılması işlərini yüksək qiymətləndiriblər.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

## Naxçıvanda sınaq sahələrində taxıl biçini

**Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Araz" Elm-İstehsalat Birliyinin əkin sahələrində taxıl biçininə başlanılıb. Zəmilərə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin 4 kombaynı çıxarılıb.**



Biçinə baxış keçirən Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini Xəyalə Dadaşovaya bildirilib ki, "Araz" Elm-İstehsalat Birliyi tərəfindən ötən ilin payızında 117 hektar sahədə bu ilin məhsulu üçün taxıl əkini keçirilib. Onun 107 hektarını buğda, 10 hektarını isə arpa təşkil edir. Sahələrdə "Qobustan", "Əhmədağa", "Konya", "Fatimə", "Bayraqdar" buğda və "Qarabağ-22", "Qarabağ-33" arpa toxum sortları ilə yanaşı, Rusiya Federasiyasından gətirilmiş "Alekseiç", "Tanya", "Qomer", "Qrom" buğda sortlarının da sınaq əkinlərini həyata keçirib. İlk gündə 41,6 hektarda biçin aparılıb, orta məhsuldarlıq 27 sentner olub.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***



## Xarici investisiya qoyuluşu 21 faiz artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–iyun aylarında ölkəmizdəki xarici müəssisə və təşkilatlar əsas kapitala 1 milyard 939,4 milyon manat vəsait yönəldib. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 20,7 faiz çoxdur.**

Hesabat dövründə xarici investisiyaların 1 milyard 838,3 milyon manatı (94,8 faizi) Böyük Britaniya, Fransa, ABŞ, Türkiyə, Yaponiya, İsveçrə, Rusiya, Norveç və İran sərmayədarlarına məxsus olub.

***"Xalq qəzeti"***

## Sumqayıt Kimya Sənaye Parkı 60 ölkəyə məhsul ixrac edir

**Ötən altı ay ərzində Sumqayıt Kimya Sənaye Parkında 1,3 milyard manatlıq məhsul istehsal olunub. İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, ixrac edilən məhsulun həcmi 446,3 milyon manat təşkil edib.**



İndiyədək sənaye parkında 8,7 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 36 faizi ixracın payına düşüb. İxrac ölkələri kifayət qədər genişdir. Sənaye parkı dünyanın 60 ölkəsinə məhsul ixrac edir.

Qeyd edək ki, hazırda parkda 20 rezident fəaliyyət göstərir. Sənaye parkına yatırılan sərmayənin həcmi 5,3 milyard manatdan çoxdur. Burada 6400-dən artıq daimi iş yeri yaradılıb.

***"Xalq qəzeti"***

“Xalq TV”nin qonağı

# Azərbaycan multikulturalizmi bu gün dünyada mədəni zənginlik modeli sayılır

## Müsahibimiz AMEA-nın həqiqi üzvü, birinci dərəcəli dövlət müşaviri, Xalq yazıçısı Kamal Abdulladır

**– Kamal müəllim, illər keçdi, ədəbiyyatımızdan, elimizdən böyük isimlər gəldi keçdi. Bəs bügünkü durum sizi qane edirmi?**

– Təbii ki, ümumiyyətlə, ömrümüzdə, ictimai həyatımızda çox gözəl və çox məsuliyyətli, son dərəcə tutumlu illər yaşadıq. Vətən mücadiləmiz 44 günlük müharibə ilə başa çatdı. Xeyirli olsun millətimiz üçün, torpaqlarımız üçün. Ədəbiyyatımızda, elmimizdə yeni adlar yarandı. Bu təbiidir, zamanın və həyatın təbii axarıdır. Mənə elə gəlir ki, bugünkü durumla bağlı sualın cavabı bir qədər qəribə səslənsə də “Qane edir”– deyərdim. Yəni ədəbiyyatımız da var, ədəbi tənqidimiz də, ədəbi əsərlər barədə müxtəlif fikirlər söyləyən insanlarımız da. İnsanlarımız kitab oxuyur, sənətlə maraqlanır, mədəniyyət əsərləri ilə maraqlanırlar. Sərgilər keçirilir, müsiqi əsərləri səslənir. Mədəniyyətimiz özünün bütün sahələrində inkişafdadır.

Elə güman edirəm ki, Azərbaycan bu gün, həqiqətən də, son dərəcə güclü iqtisadi, siyasi inkişafı ilə yanaşı, eyni zamanda, mədəni, elmi tərəqqisini də yaşayır. Bu, o demək deyil ki, hökmən hansısa elm sahəsində mütləq bir sıçrayış olmalıdır, hökmən bütün dünya bu barədə danışmalıdır. Bəzən bizdə müəyyən elmi institutlarda çalışan mütəxəssislərdən gözləyirlər ki, bunlar nəsə sıçrayışvari bir tapıntı, nəsə şedevr əsərlər ortaya qoysunlar. Bu, belə olmur onun da öz vaxtı var. Ona doğru, addım-addım tələsmədən son dərəcə böyük bir hazırlıq işləri görə-görə getmək lazımdır.

**– Siz cəmiyyətdə, ilk növbədə dilçi-alim, ədəbiyyatşünas kimi tanındınız. Amma siz həm də dəyərli ədəbi əsərlərin müəllifisiniz. Nə vaxt hiss elədiniz ki, həm də yazıçısınız?**

– Vallah, bu, deyəsən, əgər səhv etmirəmsə, 8 yaşımda baş verdi, çünki ilk şeirimi mən o vaxt yazmışdım. Söhbət ondadır ki, bir uşaq orta məktəbdə şeir yazırsa, özünəməxsus bir iddiası olur. O iddianı yavaş-yavaş həyat tənzimləyir, başqa sözlə, həyat onu sürtür, dəyişir, eşir-əliyir və gəlir sənin öz real cizgilərinə çevrilir. Sən öz real cizgilərin içindən görünməyə başlayırsan. Məndə də belə oldu. Özümü deyim ki, bir yazıçı kimi hiss edirəm, ya bir alim kimi hiss edirəm –məndə belə şeylər yoxdur. Kim kənardan nə şəkildə görürsə– eləyəm.

**– Sizin nəsildə mərhum alimimiz Xudu Məmmədovun “Qoşa qanad” baxışına bir sevgi gördük. Sizcə, bu gün o “Qoşa qanad” baxışı aktualdırmı?**

– Çox dəyərli bir ziyalımız, alimimiz olan Xudu Məmmədov Məmməd Əmin Rəsulzadənin “Əsrimizin Siyavuşu” əsərini qoşa qanada bənzədirdi. Mənə elə gəlir ki, Xudu müəllimin sözlərində böyük həqiqət var. O, gözəl bir bənzətmə ilə bizim elmimizin, mədəniyyətimizin qoşa qanad durumunu izah edib.

**– Cəmiyyətdə belə bir qənaət var ki, alim sırf elmlə məşğul olmalıdır, yazıçı da ədəbiyyatla. Elə ki, məmur oldular, yaradıcılıqda bir baryer yaranır. Amma siz fəaliyyətinizlə bunun əksini sübut etmisiniz. Məmur kimi də uğurlar qazanmısınız, alim kimi də, yazıçı kimi də.**

– Zənnimcə, bu, insanın özündən asılıdır. Mən harada olmuşamsa o istiqamətdə çalışmışam ki, bildiyimi yaradıcı şəkildə reallaşdırım. Beynimdən keçənləri reallaşdırmaq həmişə mənim arzum olub. Bu mənada mən, məsələn, universitetdə çalışmışamsa kafedra müdiri kimi, rektor kimi də buna bir məmurluq deməzdim. Çünki universitetdə rektor da haradasa yaradıcı bir işdir.

**– Amma siz həm də ölkə Prezidentinin müşaviri olmusunuz.**

– Bəli, cənab Prezidentin müşaviri oldum. Dövlət başçısı bizim qarşımıza elə dəqiq, Azərbaycan üçün vacib və faydalı tövsiyələr və vəzifələr qoyurdu ki, onları yerinə yetirmək üçün məmur olmaq lazım deyildi. Cənab Prezident bizim həmin istiqamətdə yaradıcı şəxs kimi fəaliyyətimizi də tənzimləyir.

**– Bu yaxınlarda siz hörmətli alimimiz Rafiq Əliyevlə həmmüəllif olaraq “Dədə Qorqud dastanı və qeyri-səlis məntiq” əsərini çap etdirdiniz. Qəribədir, qeyri-səlis məntiq deyəndə, əsasən, texniki fənlər – riyaziyyat, fizika, elektrotexnika nəzərdə tutulur. Siz bədii-bioloji yaradıcılıqla qeyri–səlis məntiqin əlamətlərini görürsünüz.**

– Mən sizə bir şey deyim, bunu Rafiq müəllimdən eşitmişəm – o, bizim böyük alimimiz Lütfi Zadə ilə yaxından tanış idi, onun bir növ mənəvi-elmi varisi də sayılır – deyir ki, qeyri-səlis məntiqin sosial elmlərə tətbiq olunmasını Lütfi Zadə özü arzu edirdi. O, bu nəzəriyyəni sosial elmlər üçün nəzərdə tutmuşdu. Təəssüf ki, sosial elmlərdən əvvəl müəyyən informasiya nəzəriyyəçiləri, informatiklər, kibernetiklər, başqa mühəndislər başladılar o nəzəriyyənin prinsiplərini dəqiq elmlər istiqamətində işlətməyə və müəyyən iqtisadi nailiyyətlərə də nail oldular.



Doğru qeyd edirsiniz ki, biz ilk dəfə olaraq Rafiq müəllimlə “Kitabi-Dədə Qorqud”a üz tutduq. Oğuz türklərinin ən qədim abidəsi olan bu dastan bu istiqamətdə bizə çox gözəl örnəklər verdi. Məsələn, qeyri-səlis məntiqin əsas ruhu, canı ondan ibarətdir ki, bir növ onun mənəvi azadlığını göstərmək üçün imkanlar verir. Onun seçim imkanının genişliyini göstərir, dünyanı daha obyektiv, daha real şəkildə görmək üçün şərait yaradır. Onun qarşısında duran Aristotel məntiqi vaxtikən əgər dünyanı iki rəngdə: ağ və qara rənglərdə görürsə, qeyri-səlis məntiq rəngli televizorda olan kimi dünyanı onun bütün çeşidli rənglərində görməyə çalışır.

Ağ və qaranın arasında sonsuz sayda- ağımtıl, ağabənzər, qaramtıl, qaravari və s. kimi rənglər var. Biz onları bəzən görmürük, hətta görürüksə də onları ifadə etməkdə çətinlik çəkirik. Çünki bizim dilimiz bizim şürumuzdan həmişə arxada qalır. Bu mənada, Zadənin qeyri-səlis məntiq ideologiyası ondan ibarətdir ki, insan sanki mütləqiyyət dövründən beyni, şüuru ağ və qaraya bölünür. Ağ, ya qara, bu, bir mütləq anlayışların hakimliyi dövrüdür. Elə bil, dağ çayıdır burula-burula gəlib birdən böyük bir dənizə yaxud da, okeana qarışır.

Bu mənada qeyri-səlis məntiq bizim əcdadlarımızın təsəvvüründə özünü göstərirdisə və “Kitabi– Dədə Qorqud” dastanında da öz əksini tapırdısa, bu o deməkdir ki, bizim əcdadlarımız demokratik düşüncəyə malik olublar. Həmin demokratik düşüncə özünün ərsəyə gətirdiyi dastanda öz əksini tapıb: nə ölüdür, nə diri. Aristotel deyirdi ki, ya ölüdür, ya diri, amma nə ölüdür, nə diri. Bəlkə bu komadadır? Koma ölü ilə diri arasında bir haldır. Aristotel iki əkslik arasında 3-cünü istisna edirdi. Üçüncü ola bilməzdi. Qeyri-səlist məntiq isə onun içinə 2-ci, 3, 4, 5-cini də gətirə bilir ki, Dədə Qorqud dastanında bunu kifayət qədər nümunələrinə rast gəlinir.

Küçücük ölüm adlı bir anlayış var. Salur Qazan, Qan Turalı küçük ölümə düçar olurlar. Bu, nə deməkdir? Elə bərk yatırlar ki, onları oyatmaq mümkün olmur. Düşmən gəlir, onları öldürmək ərəfəsinə çatır, qəhrəmanımız yatır. O zaman Oğuz igidləri yeddi gün, yeddi gecə yatardılar. Bunun adına küçücük ölüm deyilirdi. İndiki tibbi dillə desək bu komadır. Yəni üçüncüdür nə ölüdür, nə diri. Bu cür misallar Dədə Qorqud dastanında kifayət qədər var. Biz bunları üzə çıxarırıq. Baxın seçim iki idi: ya ölü, ya diri. Amma indi koma da girdi araya neçə oldu seçim? Təbii ki, üç. Elə məqamlar var ki, orada 4-cü 5-ci hallar da var. Deməli, seçimin imkanı böyüyür, genişlənir. Bu, nəyi göstərir? Bu, bir başa demokratik yanaşmanın siqlətini göstərir. Yəni məsələyə mütləqiyyət, diktatura şəklində deyil, məsələyə daha yumşaq obyektiv aləmə olan kimi yanaşma cəhdimiz var.

**– Yəni, qısası, əcdadlarımız, babalarımız qeyri-səlis də düşünüblər?**

– Yox, mən deməzdim ki, qeyri-səlis düşünüblər. Orada Aristotel məntiqinin də öz yeri var. Bunun da öz veri var. Babalarımız, əcdadlarımız ən azından dünyanı olduğu rəngarənglikdə görmək arzularını ortaya qoyublar.

**– Siz Bakı Slavyan Universitetində rektor olmusunuz. Sizin rəhbəyliyinizlə universitet ilk dəfə olaraq, bir ali təhsil ocağı qəlibindən çıxıb mədəni mərkəzə çevrildi. Xarici ölkələrdə Slavyan Universitetinin Azərbaycan dili mədəniyyət mərkəzləri açılırdı. İndi Azərbaycan Dillər Universitetinin rektorusunuz. Bu ənənə davam edirmi?**

– Bakı Slavyan Universitetində əsası qoyulan o ənənələr ulu öndər Heydər Əliyev tərəfindən tövsiyə olunmuşdu ki, Bakı Slavyan Universiteti slavyan dünyasını əks etdirməlidir, onunla əlaqələr qurmalıdır. Slavyan ölkələri ilə münasibətlərini qurmalıdır, o ölkələrin universitetlərindəki mötəbər şəxslərin gəlişini təşkil etməlidir. Tələbə mübadiləsi aparılmalıdır. Universitetdə biz türk mərkəzi də açdıq. Mənə elə gəlir ki slavyan dünyasını, türk dünyası olmadan, türk dünyasını da slavyan dünyası olmadan öyrənmək mümkün deyil. Bunların ikisi hökmən bir-birini tamamlamalıdır.

Doğrudur, başqa ölkələrdə də Azərbaycan dili mədəniyyət mərkəzləri açılırdı. Bizdə olduğu kimi, tutaq ki, bolqar dili dərslərimizdə bolqar mədəniyyətini təbliğ etmək üçün müəyyən işlər görürdüksə, Bolqarıstanın paytaxtında, Sofiya Universitetində Azərbaycan dili mərkəzi açmışdıq. Eyni zamanda, Rusiyada Yekaterinburq Universitetində Azərbaycan dili mərkəzimiz var idi və ilaxır.

Əlbəttə, bu ənənələr indi də Azərbaycan Dillər Universitetində davam etdirilir. Bu gün burada 20-dən çox dil öyrənilir. Onların hər birinin bir mərkəzi var. Və bu dil mərkəzlərimizdə biz işimizi elə qurmağa çalışırıq ki, güzgüvari şəkildə həmin ölkələrdəki universitetlərdə də Azərbaycan dili və mədəniyyəti və yaxud da Azərbaycan dili və multikulturalizm mərkəzlərini aça bilək. Bu şəkildə Çində, Rusiyada, Serbiyada, Ruminiyada belə mərkəzlər fəaliyyət göstərir. Macarıstan, BƏƏ və bir sıra başqa ölkələrdə də bu istiqamətlər üzrə işlər görülməkdədir.

**– Multikulturalizm, tolerantlıqla bağlı sual vermək istəyirəm. Necə düşünürsünüz, bizim xalqın o dəyərlərə bağlılığı nə dərəcədədir?**

– Bilirsinizmi, Prezident İlham Əliyev multikulturalizmi Azərbaycanın dövlət siyasətinin bir komponenti etdi. Bu ulu öndərdən gələn bir tövsiyə idi. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi bazasını hazırlamışdı. Yəni Azərbaycanın müxtəlif bölgələrində yaşayan xalqlara münasibətini elə əks etdirirdi ki, o münasibət bizim siyasətmizin aparıcı ünsürünə çevrilirdi. Bunu çox böyük bir siyasi uzaqgörənliklə Prezident İlham Əliyev davam etdirdi. Və Azərbaycanda multikulturalizm təntənəsini xalqımıza da, bütün dünyaya da yaşatdı.

Baxın multikulturalizm ili qeyd olundu, Bakıda Beynəlxalq Multikulturalizm Mərkəzi fəaliyyət göstərməyə başladı. Və bu gün Azərbaycan multikulturalizmi bütün dünyada qəbul olunan bir modeldir. Azərbaycanda yaşayan xalqlar, bütövlükdə, Azərbaycanın gücüdür. Bunu ulu öndər deyirdi. Yəni Azərbaycanın gücü bizim, Azərbaycan xalqlarının hamısının bir yerdə gücüdür. Bax, budur multikulturalizmin dayaq nöqtəsi. Və bir də Prezident İlham Əliyev bunu həmişə vurğulayırdı. Azərbaycan multikulturalizminin tarixə gedən qədim kökləri var, qaynaqları var.

Ədəbiyyatımızda, mədəniyyətimizdə bu qaynaqlar var, ictimai-fəlsəfi fikir tariximizdə də var. Bu qaynaqlar bizim klassiklərimizin, böyük sənətkarlarımızın əsərlərində də özünü göstərir.

Biz çox zaman bu misraların üzərindən asanlıqla keçirik, amma aləmin qəmdən xali edilməsi nə deməkdir? Təsəvvür edirsinizmi, 16-cı əsr bir Azərbaycan şairi. Əslində, o, bir renosans şairidir. Biz Da Vinçidən, Rafaeldən danışırıq, görkəmli möhtəşəm simalardan danışırıq və çox zaman unuduruq ki, onların Qərbdə təbliğ etdiyi o humanist dəyərlər Azərbaycanda da təbliğ edilib.

Azərbaycan şairləri tərəfindən təbliğ edilib. Füzuli aləm deyəndə o bütün insanları nəzərdə tuturdu. Ağlı, qaralı, sarılı bütün insanları. Bu, özü multikulturalizmin himnidir desək, səhv etmərik. Yəni Füzulidən, Nizamidən, Nəsimidən gələn multikultural dəyərə malik misralar, ölməz deyimlər Azərbaycan multikulturalizminin ulu öndər və İlham Əliyev tərəfindən siyasi bir istiqamətə çevrilməsinin əsas səbəbi oldu.

**– Deyirsiniz ki, “Dədə Qorqud”da Təpəgöz suyun qabağını kəsmişdi. Basat gəldi Təpəgözü öldürdü, suyun qarşısı açıldı. Suqovuşan su anbarının azad edilməsini də buna bənzətmək olar. Çağdaş ədəbiyyatımız bu qəhrəmanlığı necə bədiiləşdirir?**

– Təbii ki ədəbiyyatımız ölkəmizin sülh siyasətini dəstəkləməli və ona arxa durmalıdır. Qarabağ müharibəsi ilə bağlı bəzi əsərlər yazılıb, diqqətəlayiq əsərlər var, filmlər çəkilib.

Amma prinsip etibarilə, Qarabağ haqqında bizim bu böyük müharibədə, mücadiləmizdə qalib gəlməyimizin əsl təsviri, ədəbi, bədii, mədəni, mənəvi təsviri hələ irəlidədir. Bir müddət keçməlidir ki, bir az kənardan biz bu hadisələrə baxa bilək. Bizim o cəngavərlərimizin dik qayalara dırmaşmalarının ağırlığını, siqlətini duya bilək, onu başa düşək. Onları ora nə qaldırırdı? Onların evi, eşiyi, ailəsi vardı, bütün bunları arxada qoyub Şuşaya qalxmağa onları nə təhrik edirdi?

Şübhəsiz ki, Azərbaycan Bayrağı, Azərbaycan Himni, Azərbaycan Prezidentinin məsuliyyət və kəskinliklə dediyi sözlər. Onları qayaların üstündən Şuşa şəhərinə və bütün Qarabağa elə bil ki, quş kimi qanadlandırırdı. Mənə elə gəlir ki, bütün bunları axıra qədər dərk etmək üçün bir ədəbiyyat, bir mədəniyyət adamı üçün müəyyən bir vaxt lazımdır. Vaxt lazımdır ki, bunun bütün möhtəşəmliyini biz olduğu kimi qəbul edə bilək. O bizim canımıza hopmalıdır. Prinsip etibarilə, bu Qələbə təkcə Azərbaycanın Ermənistan üzərində qələbəsi deyildi. Bu saflığın, təmizliyin, doğruluğun, əyrilik, yalan, böhtan üzərində qələbəsi idi. Bütün dünya da bunu bu cürə qəbul etdi. Çünki artıq hamı bilirdi ki, Qarabağla, Azərbaycanla bağlı problemlər hansı səviyyədədir. Ulu öndər əlində, sanki, coğrafiya müəlliminin çubuğu nə qədər xarici ölkə prezidentinə Qarabağ haradadır, Azərbaycan haradadır, Ermənistan haradadır, dərsini vermişdi. Bütün bunlar boşa gedə bilməzdi.

Onlar da bunu bilirdilər, bəs qəbul edirdilərmi? Bəli, artıq yavaş-yavaş onu da qəbul edirlər.

**– Maraqlı müsahibəyə görə sağ olun!**

*Anar TURAN, “Xalq qəzeti”*

---

# Milli teatr Gürcüstandan mükafatla qayıdıb

**Xəbər verdiyimiz kimi, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Gürcüstanda Nodar Dumbadze adına IV Beynəlxalq Teatr Festivalında iştirak edib. Sənətçilərimiz orada məşhur gürcü yazıçısı Qoderzi Çoxelinin eyniadlı hekayəsi əsasında səhnələşdirilən “Küknarlara məktub” tamaşasını təqdim ediblər.**





Tamaşanın ideya müəllifi və quruluşçu rejissoru Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunu, eləcə də Yevgeni Vaxtanqov adına Rusiya Dövlət Akademik Teatrı yanında Boris Şukin adına Teatr İnstitutunun diplomantı Nigar Güləhmədova, quruluşçu rəssamı Samirə Həsənova, işıq üzrə rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Kamil İsmayılov, rejissor assistenti Dilbər İsmayılovadır. Azərbaycanın incəsənət ustalarının səhnə işi festivalın beynəlxalq münsiflər heyətinin qərarı ilə “Gürcü nəsrinin ən yaxşı interpretasiyasına görə” mükafatına layiq görülüb.

Səhnə əsəri müharibədən qayıdan, çiynində küknar ağacı bitən yaralı əsgər Berinin cəmiyyətə uyğunlaşa bilməməsi haqqındadır. Ətrafındakıların onu cəmiyyətə uyğunlaşdırmaq cəhdləri boşa çıxır və yaralı əsgər cəmiyyəti yox, təbiəti seçir. Müəllifin mövqeyinə görə, ən ciddi qayıdış təbiətə olmalıdır. Beləcə, Beri təbiətlə ahəngdə yaşayır, yaradana qayıdış yolunu tapır. Yaşatmaq missiyalı insan müharibələrin vurduğu yaraları sağaltmaq istəyir.

**Nigar Güləhmədovanın teatrın növbəti uğuru barədə dedikləri:**

– Festival Gürcüstanın Quriya vilayətinin Ozurgeti şəhərində keçirilirdi. Bizimlə yanaşı, İspaniya, Portuqaliya, Ukrayna, Qazaxstan və Özbəkstanın teatr truppaları, həmçinin Gürcüstanın müxtəlif teatrlarını təmsil edən kollektivlər – ümumilikdə 700 nəfər iştirakçı 30 pyesin tamaşasını təqdim elədi.

Azərbaycan Mədəniyyət Nazirliyinin dəstəyi ilə festivala yollanan kollektivimizin çıxışı tamaşaçılar tərəfindən böyük çoşqu ilə qarşılandı. Tamaşanı yüksək dəyərləndirən beynəlxalq münsiflər heyəti isə bizi “Gürcü nəsrinin ən yaxşı interpretasiyası” mükafatına layiq gördü.

Tamaşanın əsas məzmunu bundan ibarətdir ki, öz övladı olmayan baş qəhrəman küknarı doğma balası kimi bəsləyib qoruyur. Bütün bu təzadlar insanla təbiətin və insanların bir-biri ilə qarşıdurmasının möhtəşəm alleqoriyasıdır.

Əsində, bu tamaşa mənim rejissor kimi diplom işimdir. Keçən il Boris Şukin adına Teatr İnstitutunda sınaqdan keçdiyim imtahanda da müəllimlər tərəfindən yüksək balla qiymətləndirilib. Bu il müdiriyyət tərəfindən festivalda iştirak etmək təklifini alandan sonra tamaşa üzərində yenidən iş başladı. Teatr aktyorlarımızın psixoloji tiplər palitrası genişdir. Gürcü xalqının dərdi də, sevinci də bizə yaxındır.

Buna görə də Əməkdar artistlər Elşən Rüstəmov (Beri), Almaz Amanova (Berinin arvadı), Ayşad Məmmədov (Coğrafiya müəllimi), aktyorlar Rüstəm Rüstəmov (Kolxoz sədri və meşəbəyi), Dilarə Nəzərova (Tibb bacısı), Firuzə Balayeva (Qonşu qadın) və digərləri yüksək ustalıq nümayiş etdirdilər.

Beynəlxalq festivalda fərqləndiyimizə görə sevinirik. Bundan sonra da Azərbaycan mədəniyyətinin uğurları naminə əlimizdən gələni edəcəyik.

*Əli NƏCƏFXANLI, “Xalq qəzeti”*

# Ailə cəmiyyətin özəyi, ana və uşaqlar isə sabahıdır

## Azərbaycan dövləti xalqımızın sabahına bu prizmadan baxır



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova 2023-cü ilin birinci yarımilinə həsr olunmuş brifinqdə ötən dövrə nəzər saldı və görülən işləri jurnalistlərin diqqətinə çatdırdı. Gündəlik işlər barədə komitə tərəfindən mətbuata açıqlamalar verildiyini deyən sədr bidirdi ki, 2023-cü ilin 6 ayına yekun vurulur və görülən işlər barədə medianı məlumatlandırmaq istədik.**

B.Muradova vurğuladı ki, 6 ay ərzində normativ hüquqi bazanın gücləndirilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində komitə tərəfindən 6 sənəd layihəsi hazırlanmış və 5 sənəd layihəsinə rəy və təklif verilmişdir. Prezident İlham Əliyevin 9 iyun 2023-cü il tarixli sərəncamı ilə "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı"na uyğun olaraq, 2023–2024-cü illərdə "Uşaq hüquqları haqqında" yeni Qanun hazırlanır. Layihə üzərində iş başa çatıb, digər qurumlara rəy və təkliflərini bildirmək üçün göndərilib və yaxın zamanda Milli Məclisə təqdim ediləcək. "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının tələblərinə uyğun olaraq, müvafiq qanunvericilik aktlarına əlavə və dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentin fərmanı ilə 4 məcəllə və 6 qanunda müvafiq dəyişikliklər edilməsi barədə qanun qəbul edilib. Sənəddə istismar qurbanlarına hüquqi yardım formaları və qaydaları, belə hadisələrin öyrənilməsi və maarifləndirmə işinin aparılması ilə əlaqədar məqamlar da öz əksini tapıb.

B. Muradova dedi: – Qurum tərəfindən "2021–2023-cü illər üzrə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kommunikasiya Strategiyası və Sosial Media Siyasətinə uyğun olaraq görülən işlərə dair Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına il ərzində iki dəfə hesabat təqdim edilir. "Gender bərabərliyinin təminatları haqqında" Qanunun 20-ci maddəsinə uyğun olaraq, cari ilin sentyabr ayında Milli Məclisin plenar iclasında gender bərabərliyinin təmin edilməsi ilə bağlı 2022-ci ilə dair məlumat təqdim ediləcək. 2022–2026-cı illər üçün sosial inkişaf strategiyası və böyük qayıdışa dair növbəti dövlət proqramının üzərimizə qoyduğu vəzifələri yerinə yetirmişik.

Qeyd edildi ki, yarım il ərzində komitə tərəfindən 6 müxtəlif mövzuda araşdırma və təhlil yekunlaşıb: Ölkədə qohum evlilikləri üzrə vəziyyətin öyrənilməsi; Azərbaycanda erkən uşaqlıq dövründə xidmətlərin əlçatanlığı və təminatı; "Uşaqlara qarşı zorakılıq hallarının səbəbləri, miqyası, nəticələri və qarşısının alınması: Qanunvericilik və onun tətbiqi praktikası"; Təhsil müəssisələrində rəhbər vəzifələrdə gender bərabərsizliyi; Medianın intiharlara təsiri; Erkən nikah halları.

Həmçinin 8 min 523 nəfərin iştirakı ilə 6 layihə çərçivəsində 40 təlim, seminar və icma görüşü keçirilmişdir. İcra edilən layihələr Türkiyə ilə Azərbaycan arasında imzalanmış fəaliyyət planına uyğun olaraq, Türkiyədən dəvət olunmuş hekayəçilərin iştirakı ilə 5 minə yaxın valideyn və uşaq auditoriyasını əhatə edən layihə çərçivəsində nağıl günləri, "Uşaq və ailələrə psixo-sosial dəstək", "İnsan alveri və məcburi əməyə yox deyək!", "Həyatının memarı sən özünsən", "Erkən nikah və qohumlar arasında nikahın mənfi nəticələri", "Məişət zorakılığına yox deyək" mövzularını əhatə edib.

Bundan başqa, ötən dövrdə qadın və gender məsələləri üzrə 1056 nəfərin iştirak etdiyi 1 layihə çərçivəsində 9 təlim, seminar və 3 konfrans keçirilmişdir. Hazırda komitənin 17 rayonda Qadın resurs mərkəzi fəaliyyət göstərir. Cari yarımil ərzində Qadın resurs mərkəzləri tərəfindən 3 min 782 nəfərin iştirakı ilə 126 görüş, dəyirmi masa və 82 təlim keçirilmişdir. Ümumilikdə bölgələrdəki mərkəzlərin fəaliyyətindən 4 min 970 nəfər bəhrələnmişdir.

Komitədə uşaq məsələlərinə də xüsusi diqqət ayrılmış, 6 ayda 6 layihə icra edilmişdir. Layihə çərçivəsində keçirilən 29 təlim, seminar və konfranslarda 1868 nəfər iştirak etmişdir. Layihələr "Mənim hüquqlarım", "Kitab sərgisi", "Qızlar müzakirəyə qoşulur", "Oğlanlar müzakirəyə qoşulur", "Susma, səsini eşitdir" və "Kitab sərgisi"nə həsr olunmuşdur.

Bundan başqa, regionlarda Uşaq və ailələrə dəstək mərkəzləri yaradılıb. Belə mərkəzlərdən bəhrələnənlərin sayı ötən dövrdə 20 min 500-dən çox olub. Mərkəzlərə 1570 nəfər tərəfindən 1608 müraciət daxil olmuş, onlardan 646-sı təmin edilmişdir. 2023-cü ilin birinci yarımili ərzində erkən nikah faktı ilə bağlı 20 fakt üzrə monitorinq – ailə səfərləri təşkil edilib. 17 erkən nikahın qarşısı alınıb. 11 Uşaq və ailələrə dəstək mərkəzləri tərəfindən 6 ay müddətində 4 "açıq qapı günü" keçirilib, müraciət edən 517 vətəndaşa psixoloji, hüquqi və sosial problemlərin həlli üzrə dəstək göstərilmişdir. Müraciətlərin 42 faizi sosial problemlər (219), 33 faizi uşaq məsələləri (172), 18 faizi hüquqi yardım (91) 7 faizi psixoloji konsultasiya (35) ilə bağlı olub.

Vətəndaş müraciətlərindən danışan B Muradova yarım il ərzində komitəyə 1834 müracətin daxil olduğunu, onun 528-nin Vətəndaşların Qəbulu Mərkəzində həyata keçirildiyini diqqətə çatdırdı. Qeyd etdi ki, 148 müraciət yerində məsləhət və əlaqələndirmə ilə cavablandırılmış, 380-i qeydiyyata alınaraq həlli istiqamətində müvafiq iş görülmüşdür.

Məişət zorakılığı ilə bağlı müraciətlərin ötən ilin birinci yarısı ilə müqayisədə 10 artığını deyən sədr 11 rayonun vətəndaşlarını əhatə etməklə, 6 regionda qəbul keçirildiyini, 64 vətəndaşın ərizə, müraciət və təkliflərinə baxılıb, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verildiyini bildirdi. Qeyd etdi ki, komitəyə müraciət edən 517 vətəndaşa psixoloji, hüquqi və sosial problemlərin həlli üzrə dəstək göstərilib. Müraciətlərdən 42 faizi sosial problemlərlə bağlı olub. Onun sözlərinə görə, vətəndaş müraciətlərində üstünlük təşkil edən mövzular məhkəmə qərarlarının icrası, məişət zorakılığı və işlə təmin olunma ilə bağlı olub. 860 – Gender əsaslı zorakılıqla bağlı dəstək xəttinə 6 ayda 146 müraciət daxil olub. Məişət zorakılığı ilə bağlı daxil olan müraciətlərə dair lazımı tədbirlər görülmüş, yerli icra hakimiyyətlərinin gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qrupları ilə əlaqə saxlanılaraq, müraciətlər komitə tərəfindən nəzarətə götürülmüşdür.

Şəhid ailələri və qazilər komitə tərəfindən hər zaman diqqətdə saxlanılır və qayğı ilə əhatə olunurlar. Komitə əməkdaşları həssas qrupdan olan və psixo-sosioloji dəstəyə ehtiyacı olan 104 ailəyə baş çəkib və iki mindən çox uşağa psixoloji yardım göstərilib. Regionlarda yaradılan dəstək mərkəzlərinin gördüyü işlərin əhəmiyyətindən danışan komitə sədrinin sözlərinə görə, yaxın zamanlarda Zəngilan və Füzulidə Uşaq və ailələrə dəstək mərkəzləri, Laçında isə Qadın resurs mərkəzi yaradılacaq.

Bahar Muradova "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın bu il başa çatdığını və bununla bağlı ölkəmizdə beynəlxalq konfrans keçiriləcəyini də diqqətə çatdırdı.

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

# "Azexport" portalı ilk sərbəst satış sertifikatını təqdim edib

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu azexport.az portalı növbəti sərbəst satış sertifikatını (Certificate of Free Sale) təqdim edib.**

Sertifikat Azərbaycanda istehsal olunan bioloji fəallığa malik qida əlavəsi məhsulunun Gürcüstan Respublikasına ixracı üçün nəzərdə tutulub. Portalın rəhbəri Ayxan Qədəşov bildirib ki, qeyd olunan məhsullar sertifikatın olmaması səbəbi ilə digər ölkələrdən alınırdı. "Azexport" portalı tərəfindən sərbəst satış sertifikatının təqdimatından sonra bu məhsullar Azərbaycandan alınacaq. Bununla yanaşı, istehsalçı şirkət bənzər kateqoriyadan olan məhsullar üçün də sertifikat alaraq ixrac coğrafiyasını genişləndirməyi planlaşdırır.

Qeyd edək ki, sərbəst satış sertifikatı Azərbaycan Prezidentinin 12 sentyabr 2017-ci il tarixli fərmanına uyğun olaraq "Azexport" portalı tərəfindən təqdim olunur. Sertifikat ixrac olunan malın Azərbaycan Respublikasında sərbəst dövriyyədə olduğunu, aidiyyəti dövlət orqanları və qurumları tərəfindən sertifikatlaşdırıldığını və standartlara cavab verdiyini təsdiqləyir.

Ümumilikdə, 2018-ci ilin aprelindən cari il iyul ayına kimi 653 adda məhsula sərbəst satış sertifikatı təqdim olunub. Sertifikatın verilməsi "Made in Azerbaijan" məhsullarının əvvəllər ixracında çətinliklər yaranmış 100-dən artıq Amerika, Asiya, Okeaniya, Avropa və Körfəz ölkəsinə ixracını asanlaşdırıb.

***"Xalq qəzeti"***

# Fövqəladə Hallar Nazirliyinin növbəti yanğın təlimi



**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə və Dövlət Yanğın Nəzarəti xidmətləri Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Molla Cümə küçəsi,11B,15B,17B,19B ünvanlarında yerləşən "Real" MTK-ya məxsus çoxmərtəbəli yaşayış kompleksində təlim keçirib.**

Təlim "şərti yanğın" həyəcan siqnalı ilə yanğın texnikalarının yaşayış binasına, həmçinin su hovuzuna yaxınlaşa bilməsi və ümumilikdə ərazidəki yanğına qarşı əməliyyat şəraitinin qiymətləndirilməsi məqsədilə keçirilib.

Təlim zamanı şəxsi nəqliyyat vasitələrinin nizamsız park edilməsi və süni maneə səbəbindən yanğın avtomobillərinin yaşayış binasına və su hovuzuna sərbəst şəkildə yaxınlaşa bilmədiyi müəyyən olunub. Bundan əlavə, nasosxananın sistemə qoşulu olmadığı, binanın ilkin yanğınsöndürmə vasitələri ilə tam təmin olunmadığı, daxili yanğın su kranlarının tam komplektləşdirilmədiyi, qəza-işıqlandırma sisteminin olmadığı və elektrik təsərrüfatının "Elektrik Qurğularının Quraşdırılması Qaydaları"nın tələblərinə cavab vermədiyi və yanğın xəbərverici siqnalizasiya qurğusunun işlək vəziyyətdə olmadığı da müəyyən edilib.

Qeyd olunan nöqsanların aradan qaldırılması barədə yaşayış kompleksinin yanğın təhlükəsizliyinə məsul şəxslərinə şifahi və yazılı "tapşırıqlar" verilib, eyni zamanda yaşayış kompleksinin sakinləri ilə yanğın təhlükəsizliyinin təmin olunması barədə maarifləndirici söhbətlər aparılıb.

Nəzərə çatdırılıb ki, yanğın və digər fövqəladə hadisələr zamanı xilasetmə və yanğınsöndürmə avtomobillərinin, digər iriqabaritli xüsusi təyinatlı texnikaların binaların həyətinə maneəsiz daxil olması, çevik şəkildə döyüş vəziyyətinə gətirilməsi və əməliyyatların effektli keçirilməsi, habelə su hovuzları və hidrantlardan rahat istifadə üçün avtomobillər yalnız təyin olunmuş yerlərdə, bir-biri ilə ara məsafəsi gözləməklə, digər avtomobillərin sərbəst keçid imkanı təmin olunmaqla park edilməlidir.

# Ermənistan ərazilərimizi ekoloji terrora məruz qoyub

## Bu düşmənçilik beynəlxalq cinayət səviyyəsinə yüksəlib



**Ermənistan uzun illər Azərbaycana qarşı ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara ciddi ziyan vurmaqla düşmənçiliyini davam etdirib. Cinayətkar dövlətin belə əməlləri işğal dövründə, Vətən müharibəsi günlərində, eləcə də savaşdan ötən müddətdə özünü qabarıq büruzə verib.**

Hamımız yaxşı xatırlayırıq ki, İkinci Qarabağ müharibəsi vaxtı ölkəmizin milli parkları da daxil olmaqla qorunan təbiət əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən genişmiqyaslı yanğınlara səbəb olan raket atəşinə tutulurdu. O zaman Şuşa şəhəri yaxınlığında meşə sahələrindəki qiymətli ağaclar fosfor silahlarından istifadə nəticəsində yandırıldı. Nəticədə min illər ərzində formalaşan torpağın üst təbəqəsi tamamilə sıradan çıxdı.

Ümumiyyətlə, Ermənistan 30 ildən çox bir müddətdə ərazilərimizdə olan təbii sərvətləri talan edib, qızıl, civə, mis, qurğuşun, sink, kömür və s. daxil olmaqla 163 faydalı qazıntı yatağı, həmçinin meşə örtüyü, nadir ağaclar işğalçı tərəfindən qanunsuz istismara məruz qalıb.

Ən təhlükəli məqamlardan biri də budur ki, Ermənistan illərdir ki, su mənbələrini də çirkləndirir, radioaktiv tulantıları çaylara axıdır. Bütün bunlar beynəlxalq cinayətlərdir. Transsərhəd çay olan Oxçuçay Ermənistan ərazisində daim kəskin çirklənməyə məruz qalır.

Bu yaxınlarda Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu barədə aparılan monitorinqlə bağlı ətraflı məlumat yayıb. Monitorinqin nəticələrindən də göründüyü kimi, Qafan və Qacaran dağ-mədən sənayesinin tullantıları ilə hədsiz dərəcədə çirkləndirilən Oxçuçay, belə demək mümkünsə, sənaye tullantılarının kollektoru rolunu oynayır. Bu sular təmizlənmədən birbaşa çaya axıdıldığı və çirklənmə səviyyəsi dəfələrlə normadan artıq olduğu üçün onun su ehtiyatlarının ölkə ərazisində istifadəsi yararsız hesab edilir.

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi ekoloji terrorda xarici şirkətlərin, xüsusilə Qərb şirkətlərinin iştirakına dair çoxsaylı faktlar mövcuddur. İşğalçı ölkədə dağ-mədən şirkətlərinin fəaliyyəti Oxçuçayda fəlakətli vəziyyət yaradıb. Təəssüf ki, bu prosesdə Almaniyanın "CRONIMET Holding GmbH" şirkəti yaxından iştirak edib. Bununla əlaqədar olaraq Azərbaycan cəmiyyətində dərin narahatlıq yaranıb.

Oxçuçayın Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına töküldüyünü nəzərə alsaq, qeyd edə bilərik ki, onun çirklənməsi Araz çayının su ehtiyatlarının keyfiyyətinə də birbaşa təsir göstərir. Araz çayı Kür çayının ən böyük sağ qolu olmaqla Ermənistanla digər transsərhəd çaydır və Azərbaycanın əkin sahələrinin suvarılmasında həlledici rol oynayır. Lakin çaydakı suyun keyfiyyətinin ciddi dəyişikliyi səbəbindən onun məişət və kənd təsərrüfatı ehtiyacları üçün istifadəsi həm də son dərəcə mənfi təsirlərə yol açır.

Azərbaycanın çağırışlarına, beynəlxalq təşkilatlara müraciətlərinə baxmayaraq, Ermənistan Naxçıvan Muxtar Respublikası ilə sərhəddə– Arazdəyən kəndində böyük metallurgiya zavodu tikir. Bununla da İrəvan 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımızda həyata keçirdiyi ekoloji terroru davam etdirmək niyyətini nümayiş etdirir.

Müəssisənin inşasına 70 milyon dollar yatırılacaq. Sahəsi 16 min 500 kvadratmetr olacaq zavod ildə 180 min ton məhsul istehsal edəcək. Metallurgiya zavodu ABŞ-da fəaliyyət göstərən "CS Global Investments" (sahibi Hindistan əsilli Bobbi Kanqdır) və "Virtual Funding" (sahibi Ermənistan vətəndaşı Qriqor Ter-Qazaryandır) şirkətlərinin investsiyası hesabına salınır.

Ermənistan bu addımı ilə birincisi "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 1991-ci il Espo Konvensiyasını kobud şəkildə pozur. İşğalçı ölkənin də imza atdığı həmin sənədə əsasən, bu zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işi aparılmalı, tikinti ilə əlaqədar qiymətləndirmə sənədinə qonşu dövlət olan Azərbaycanın müvafiq qurumları baxmalı, eyni zamanda, bölgəyə yaxın yaşayan azərbaycanlıların rəyi nəzərə alınmalıdır. Ermənistan isə müvafiq beynəlxalq sənədlərə məhəl qoymadan ətraf mühitə, ekologiyaya ziyan vurmaqla məşğuldur.

Ümumiyyətlə, düşmən ölkənin törətdiyi terror onun qoşulduğu ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaların, o cümlədən "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında BMT konvensiyasının pozulması deməkdir.

***M.YAQUBZADƏ,***
***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

### *Ekspert rəyi*



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Azərbaycanın qeyri-hökumət təşkilatları tərəfindən Ermənistanın qanunsuz, ekoloji terroru ilə bağlı müraciətin məhz Birləşmiş Millətlər Təşkilatına ünvanlanması səbəbsiz deyil. Hər şeydən öncə qeyd etmək istəyirəm ki, hazırda bizim bədnam qonşumuzla diplomatik əlaqələrimiz yoxdur. Digər tərəfdən, Azərbaycan və düşmən Ermənistan BMT-nin subyektləridir, 30 ildən artıqdır ki, bu qurumda təmsil olunurlar. Belə olan təqdirdə ümid edirik ki, Birləşmiş Millətlər Təşkilatında ermənilərə təsir edərək başa salarlar ki, özlərini beynəlxalq standartlara, dünya miqyasında qəbul olunmuş normalara uyğun, qonşuları narahat etməmək ab-havasına uyğun aparsınlar.

Azərbaycan 1995-ci ildə mədən sənayesində hasilatın pay bölgüsü sazişləri çərçivəsində neft və qaz layihələrinin kəşfiyyatı və işlənməsinə başlayıb. Özü də bu layihələr, əsasən də, Xəzər dənizində, 4 su sərhədi olan qonşu dövlətlərin əhatəsində həyata keçirilir. Azərbaycan indiyədək Xəzərdə 600 milyon tondan artıq neft və kondensat hasil edib. Mən hələ Azərbaycanın Xəzərdə reallaşdırdıqları qaz layihələrini nəzərdə tutmuram. Çünki qaz ətraf mühitə daha az təsir edən bir enerjidaşıyıcısıdır. İndiyədək Azərbaycana heç bir qonşu ölkə irad bildirməyib. Çünki bizim xarici tərəfdaşlarımızla həyata keçirdiyimiz layihələrin ətraf mühitə heç bir mənfi təsiri olmayıb. Azərbaycanın mədən sənayesində həyata keçirdiyi bütün layihələr beynəlxalq normalara tam uyğundur. Özü də həmin layihələr ölkəmizin quru sərhədlərindən 70-100 kilometr kənarda reallaşdırılır.

İndi siz təsəvvür edin, cinayətkar Ermənistan Azərbaycanla vur-tut 10 kilometr aralıda, hətta bəzi ərazilərdə daha yaxın bir məsafədə layihə həyata keçirir. Ermənistan çəkinmədən bütün ekolji normalara zidd olaraq mədənçıxarma sənayesi üzrə layihə həyata keçirir, bu məqsədlə xarici tərəfdaşları ilə müqavilələr imzalayır. Yeri gəlmişkən, həmin müqavilələrin bəziləri özəl şirkətlərlə bağlanıb. Hətta bədnam qonşumuz bunun üçün beynəlxalq təşkilatlardan kreditlər də alıb.

Belə bir layihənin icrasından öncə ətraf mühitə və sosial təsirlərə dair hesabat hazırlanıb təqdim olunmalıdır. Bəlkə də belə bir sənəd var. Ancaq onu icra etmirlər. Ermənistan sanki o layihələri məhz Azərbaycana, onun iqtisadiyyatına, insanlarına neqativ təsir etmək üçün, ona zərbə vurmaq üçün həyata keçirir. Ancaq bu tip layihələr, ümumiyyətlə, ona yönəldilməlidir ki, ilk növbədə, ölkənin iqtisadiyyatını gücləndirsin, orada yaşayanların həyat şəraitini yaxşılaşdırsın, ətraf mühitə ziyan vurmasın. Digər tərəfdən, əgər o layihələr sərhəd bölgələrində realllaşdırılırsa, beynəlxalq əlaqələrin güclənməsinə, qarşıdurmaların aradan qaldırılmasına və münasibətlərin inkişaf etdirilməsinə yönəldilsin. Ancaq Ermənistanın atdığı addımlar yalnız və yalnız münasibətlərin kəskinləşməsinə, əlaqələrin daha da pisləşməsinə və qarşıdurmaların artmasına yönəldilib.

Biz də bunu qabardırıq ki, sonrakı dövrlərdə münasibətlərin daha kəskinləşməsinin qarşısını almaq üçün beynəlxalq ictimaiyyət, donorlar, bu layihələri maliyyəşdirən qurumlar Ermənistana təsir göstərsin və metallurgiya zavodunun Azərbaycana, bütövlükdə, ətraf mühitə neqativ təsirlərinin qarşısını alsınlar.

BEYNƏLXALQ HƏYAT

## Avropa İttifaqı 2024-cü ildə də Türkiyəni quruma qəbul etməyəcək

### Vizasız rejimə isə ümid yoxdur

**Türkiyə 2024-cü ildə Avropa Birliyinə üzv olmayacaq. Bu barədə Aİ Xarici İşlər Xidmətinin rəsmi nümayəndəsi Piter Stano məlumat verib. Onun sözlərinə görə, "Aİ-yə daxil olmaq prosesi saatlarla deyil, illərlə davam edir". O əlavə edib ki, Aİ Türkiyəyə hətta vizasız rejim verməyə hələ hazır deyil.**



"Viza rejiminin liberallaşdırılması qərarı üzv dövlətlər tərəfindən namizəd ölkə insan haqları və siyasi azadlıqlar da daxil olmaqla bütün zəruri meyarları yerinə yetirdikdən sonra qəbul edilir.

İyulun 10-da NATO sammiti ərəfəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirmişdi ki, ölkəsinin Avropa İttifaqına gedən yolda maneələr aradan qaldırıldıqdan sonra, Ankara İsveçin alyansa üzvlüyünə razılıq verəcək.

Alyansın baş katibi Yens Stoltenberq isə demişdi ki, Stokholm "Gömrük İttifaqının modernləşdirilməsi və viza rejiminin liberallaşdırılması da daxil olmaqla Türkiyənin Aİ-yə daxil olması prosesinin yenidən başlaması" səylərini dəstəkləyəcək.

Bu açıqlamalardan sonra Avropa Komissiyası dərhal bəyan etdi ki, Türkiyənin İsveçin NATO-ya üzvlüyünü ratifikasiya etməsi və onun Aİ-yə daxil olması istiqamətində irəliləyişi bir-biri ilə əlaqələndirilə bilməz. Hələ may ayının sonlarında Avropa Parlamentinin ən böyük fraksiyası–"Avropa Xalq Partiyası"nın rəhbəri Manfred Veber bəyan etmişdi ki, "artıq heç kim Türkiyənin Aİ-yə tam üzv olmasını istəmir".

Fransa parlamentinin deputatı Tyerriy Mariani "İzvestiya"ya deyib ki, o, Türkiyə ilə danışıqları bərpa etməyin mənasını görmür: "NATO sammiti çərçivəsində imzalanan saziş, əsasən, İsveç üzərinə götürdüyü öhdəliklərdir və bu məsələni irəliyə apardığını görnüşü yaradır".

Görünür, Türkiyə çox qərarlıdır. Bu ölkənin vitse-prezidenti Cevdet Yılmaz demişdi ki, Ankara əsas diqqətini Gömrük İttifaqı və vizasız rejimlə bağlı məsələlərə yönəltmək niyyətindədir. "İndi Gömrük İttifaqı yalnız sənaye sahəsini əhatə edir, gələcəkdə qarşılıqlı fəaliyyət sahələri genişlənəcək. Top Avropa İttifaqı tərəfindədir. Ümid edirik ki, onlar vəziyyəti düzgün qiymətləndirəcəklər".

İstənilən halda, Türkiyə mövzusu müzakirə olunacaq. "Hürriyet" qəzetinin məlumatına görə, bu müzakirənin hansı istiqamətdə inkişaf edəcəyi ilə bağlı ilk siqnallar Aİ xarici işlər nazirlərinin iyulun 20-nə planlaşdırılan görüşündə veriləcək. Xatırladaq ki, Ankara İsveçin NATO-ya üzvlüyünün təsdiqi ilə bağlı protokolu bu ilin oktyabrından tez ratifikasiya etməyəcək.

Türkiyənin Avropa Birliyinə daxil olmasının tarixi 1950-ci illərin sonlarından başlayıb. 1963-cü ildə Türkiyə Cümhuriyyəti o vaxtkı Avropa İqtisadi Birliyi (AİƏ) ilə assosiasiya sazişi imzalayıb və bu, iqtisadi əməkdaşlığı gücləndirməyə imkan verib. Sonradan bu, 1995-ci ildə fəaliyyətə başlayan Gömrük İttifaqının yaradılmasına səbəb oldu. Bununla belə, Aİ-yə tam üzvlük yolu hələ də həllini tapmayıb. Ankara 1987-ci ildə birliyə üzv olmaq üçün ərizə verib, lakin namizəd statusu ona yalnız 12 il sonra - 1999-cu ildə verilib. Əslində, Türkiyə Avropa İttifaqına üzv olmaq gözləntiləri baxımından "mütləq çempiondur". Məsələn, 2013-cü ildə Aİ-yə üzv olan Xorvatiya 10 il, Şimali Makedoniya 17 ilə yaxın, Monteneqro isə 12 ilə yaxın gözləyib. Türkiyə isə quruma üzv olmaq üçün 25 ilə yaxındır gözləyir.

Türkiyəli politoloq Kerim Hasın fikrincə, Ərdoğan real olaraq Avropa ilə danışıqlarda irəliləyiş gözləyəcək qədər sadəlövh deyil. Onun sözlərinə görə, Ankaranın Türkiyənin Aİ üzvlüyünün ən azı söz və bəyanat səviyyəsində dəstəklənməsinə ehtiyacı var, çünki bu, Türkiyənin iqtisadi vəziyyətini yaxşılaşdıra bilər. "Ərdoğan Qərbdən investisiya cəlb etməyə ümid edir. İnvestorlar Fitch və ya Moody's kimi reytinq agentliklərinə müraciət edirlər. Və Qərb dövlətlərinin və ya təşkilatlarının rəhbərlərinin Türkiyənin Avropa İttifaqına üzvlüyü ilə bağlı müsbət fikirlər söyləməsi çox vacibdir. Bu, investorlara təsir edə bilər".

Kərim Has hesab edir ki, Avropa İttifaqı Türkiyə ilə Gömrük İttifaqını yeniləməkdə maraqlı ola bilər. Keçən il Almaniya kansleri Olaf Şolz bildirmişdi ki, Almaniya bu məsələdə sürətli irəliləyişə ümid edir.

***P.ƏFƏNDİ, "Xalq qəzeti"***

İdman

## Paralimpiyaçılarımız "Paris-2024"də yüksək nəticəyə iddialıdırlar

**Azərbaycanın paraatletika üzrə komandası Parisdə keçirilən dünya çempionatında 2 qızıl, 1 bürünc medal və növbəti Yay Paralimpiya Oyunlarına 5 vəsiqə qazanmaqla mükəmməl nəticə göstərdi.**

Qəhrəman paralimpiyaçılarımız bununla, həm dünya çempionatında güclərini nümayiş etdirdilər, həm də Paris Paralimpiadasında medala ən iddialı idmançılardan olduqlarını sübut etdilər.

"Xalq qəzeti"nə müsahibəsində dünya çempionatında yığmamızın uğurla çıxış etdiyini bildirən Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidentinin köməkçisi, idman şöbəsinin müdiri Kamal Məmmədov komandanın yaxşı formada olduğunu bildirdi: "Dünya çempionatına yaxşı hazırlaşmışdıq. Komanda üzvlərinin bir neçəsi yarışda ilk dəfə çıxış edirdi ki, onlardan 2-si Qarabağ qazisi idi. Qarabağ qazilərindən biri – görmə qabiliyyətini tam itirmiş Məhərrəm Qasımov 5-ci yerlə kifayətləndi. Digər idmançımız Rüfət Rəfiyev də 5-ci nəticə göstərdi. İlk 4-lüyə lisenziya düşürdü. Onların 5-ci yeri tutmaları o deməkdir ki, növbəti yarışda lisenziya qazana bilərlər. Oloxan Musayev və Orxan Aslanov medalsız qalsalar da, lisenziya qazana bildilər. Komandamız yaxşı formadadır və qarşıdakı yarışlarda onlardan daha yüksək nəticələr gözləyirik".



K.Məmmədov hazırda bütün idman növləri üzrə dünya çempionatlarına start verildiyini, yığmamızın hazırda Çexiyada oxatma idman növü üzrə mundialda iştirak etdiyini bildirdi: "Bəzi idman növləri üzrə dünya çempionatları birbaşa lisenziya verirsə, digərləri reytinq xalları qazandırır. Çexiyadakı yarışda idmançılarımız Paris Paralimpiadasına birbaşa vəsiqə əldə edə bilərlər. Cüdo, taekvondo, boççia kimi idman növlərində reytinq xalları verilir. Son yarışlardan – növbəti ilin may ayından sonra reytinq xalları hesablanacaq. Əsas hədəf "Paris-2024"ə vəsiqə əldə edib, ölkəmizi həmin yarışda yüksək səviyyədə təmsil etməkdir. "Tokio-2020"də 14 qızıl medal qazanan komandamız medalların əyarına görə, ilk 10-ğa daxil oldu. Paris Paralimpiadasında rəqabət nə qədər böyük olsa da, biz buna hazırlaşırıq. Düşünürük ki, ən azı Tokioda qazandığımız nailiyyəti "Paris-2024"də təkrarlamağa çalışacağıq".

Dünya çempionatında 100 və 400 məsafələrə qaçışda rəqib tanımayıb fəxri kürsünün ən yüksək pilləsində qərarlaşan Lamiyə Vəliyeva yarışa yaxşı hazırlaşdığını vurğuladı: "Dünya çempionatında ən güclülər çıxış edir. Yarışa yüksək səviyyədə hazırlaşdığım üçün özümə inanırdım. Bütün gücümdən istifadə edib qızıl medal qazandım. Vətənimi belə bir nüfuzlu yarışda layiqincə təmsil etdiyimə görə çox sevinirəm. Özümlə fəxr edirəm".

İdmançı yaxşı formada qalmaq və yüksək nəticə qazanmaq üçün hər gün məşq etdiyini dedi. O bildirdi ki, əsas hədəf Paris Yay Paralimpiya Oyunlarıdır: "Arzum Paris Paralimpiadasında Azərbaycanı layiqincə təmsil etməkdir. Bu mənim borcumdur. Paralimpiya Oyunlarında rəqabət çox güclü olur. Hər gün məşq edirəm və hər saat mənim üçün çox vacibdir. Bütün yarışlarda sübut etmək istəyirəm ki, millətimiz həmişə ön sırada olmalıdır".

Vurğulayaq ki, Lamiyə Vəliyeva 400 metr məsafəyə qaçışda Tokio Yay Paralimpiya Oyunlarının qızıl, 100 metr məsafə üzrə isə gümüş medalını qazanıb.

Fransadakı dünya çempionatında uzunluğa tullanma növündə bürünc medal alan Səid Nəcəfzadə Paralimpiya Oyunlarına lisenziya əldə etdiyi üçün məmnun olduğunu söylədi: "Dünya çempionatı güclü yarışdır və rəqabət həmişə gərgin olur. İlk dəfə idi ki, özümü belə bir yarışda sınadım. Bürünc medal qazandım. Əsas məqsədim isə Paris Paralimpiadasına lisenziya əldə etmək idi. Öz üzərimdə çalışmaqda davam edəcəyəm. Paralimpiadada daha yaxşı nəticə göstərmək üçün bütün gücümdən istifadə edəcəyəm".



Komandamızın digər üzvləri Oloxan Musayev və Orxan Aslanov dünya çempionatında 4-cü olmaqla Yay Paralimpiya Oyunlarına lisenziya qazanıblar. O.Musayev qəzetimizə açıqlamasında qeyd etdi ki, mükafatçılar sırasında yer almaq üçün potensialı olsa da, bir qədər aşağı nəticə göstərib: "Dünya çempionatında 11.74 metr nəticə ilə 4-cü oldum. Əvvəlkilərlə müqayisədə 30-40 santimetr daha az göstərici qeydə alındı. Nəticəmi 15 santimetr yaxşılaşdıra bilsəydim, azı üçüncü yeri tuta bilərdim. Amma Paris Paralimpiadasına vəsiqə əldə etdiyim üçün çox sevinirəm. İndi əsas məqsəd Paralimpiadada ölkəmizi yüksək səviyyədə təmsil etməkdir".

Xatırladaq ki, XVI Yay Paralimpiya Oyunlarında Azərbaycan komandası tarixi uğur qazanaraq 14 qızıl, 1 gümüş və 4 bürünc olmaqla 19 medala sahib olmuşdu. Komandamız medalların əyarına görə 162 dövlət arasında 10-cu yeri tutdu. Avropada 6-cı, postsovet dövlətləri arasında 3-cü, İslam ölkələri arasında isə birinci pillədə qərarlaşıb.

2024-cü ildə Parisdə keçiriləcək növbəti Yay Paralimpiya Oyunlarında paralimpiyaçılarımızı yeni zəfərlər gözləyir. Komandamızın nüfuzlu yarışlarda qazandıqları parlaq qələbələr yeni uğurlar üçün əsas yaradır.

***Leyla QURBANOVA, "Xalq qəzeti"***

Mədəniyyət xəbərləri



**Soydaşlarımızın "ÖST Ensemble" ansamblı 2020-ci ildən Avstriyada fəaliyyət göstərir. Rəhbəri bəstəkar, musiqi nəzəriyyəçisi və etnomusiqişünas Aria Torkanbouridir. Ansamblın Vyanada ilk konsert proqramı maraqla qarşılanıb.**

Vyana Musiqi və Səhnə Sənətləri Universitetində reallaşan konsertdə ansambl "Arzu Balıq" dastanını təqdim edib. Bu dastan görkəmli təbrizli yazıçı, tanınmış tərcüməçi-publisist Səməd Behrənginin "Balaca Qara Balıq" nağılı əsasında Aria Torkanbouri tərəfindən yazılıb. Performans başdan-başa Azərbaycan–Türk aşıq dastan ənənəsi əsasında qurulub.

**"Səhnə" teatrı Laçında "Sarı Aşığın dastanı" tamaşasının premyerasını təqdim edib.**

Tamaşanın prodüseri Elçin Hacı bildirib ki, Xaqani Əliyevin "Yaxşı və Aşıq" dastanının motivlərindən istifadə etməklə qələmə aldığı pyes əsasında hazırlanmış tamaşanın quruluşçu rejissoru Elvin Mirzəyev, xoreoqrafı



Zaur Əliyevdir. Tamaşa Azərbaycanda bayatı janrının poetik imkanlarının açılmasında misilsiz xidmətləri olmuş, XVII əsrdə Laçının Güləbird kəndində yaşamış şair Sarı Aşığın nakam məhəbbətindən bəhs edir.



**Füzuli Dövlət Dram Teatrı 33-cü mövsümünü Xaqani Əliyevin "Molla Nəsrəddin" tamaşası ilə başa vurub.**

Səhnə əsərinin quruluşçu rejissoru Nicat Mirzəzadə, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Ziyad Süleymanzadədir.

Tamaşada rolları Sehran Xanlarov, İntizar Quliyeva, Asif Şirinov, Şəlalə Nəsirova, Qaçaq Qarayev, Əli Hüseynov, Günel Hacıyeva, Elçin Məmmədov, Vüqar Babayev, Emin Abışov, Vüsal Həsənov, Aygün Cəfərova və Qəlbinur Əhmədli ifa ediblər. Keçmişlə bu günün sintezi olan tamaşa məşhur lətifə qəhrəmanı Molla Nəsrəddinin evlənmə əhvalatından bəhs edir. Şən musiqilər və kütləvi rəqslərlə bol olan səhnə əsərində maraqlı və gülməli hadisələr bir-birini əvəz edir.

***Ə.DOSTƏLİ, "Xalq qəzeti"***

## Rusiya, Çin və Hindistan yeni valyuta yaradır

### 40-dan çox ölkə bu pul ortaqlığına qoşulmağa hazırdır



**"Rusiya, Çin və Hindistanın yeni valyuta yaratmaq qərarı ABŞ-ın maliyyə hegemonluğuna etirazdır". Müvafiq bəyanatla Pentaqonun rəhbərinin keçmiş müşaviri, polkovnik Duqlas Makqreqor çıxış edib.**

O qeyd edib ki, artıq 40-dan çox ölkə qızılla dəstəklənən yeni valyutadan istifadə etmək arzusunu bildirib. Bu qızıl Rusiya, Hindistan və Çindədir.

Duqlasın fikrincə, bu yolla üç qüdrətli ölkə Amerikanın maliyyə sisteminə qarşı üsyan qaldırıb. Makqreqor Asiya, Afrika və Cənubi Amerikada çoxlarının Rusiyaya rəğbət bəslədiyini də vurğulayıb.

Bundan əvvəl, iyunun 16-da Rusiya prezidenti Vladimir Putin bildirib ki, konkret valyutanın dünya iqtisadiyyatına təsiri bu valyutanı buraxan ölkənin iqtisadi potensialı ilə birbaşa bağlıdır. O əlavə edib ki, Birləşmiş Ştatlar "qlobal maliyyə sahəsi də daxil olmaqla, öz gücünü sarsıdır". Rusiya liderinin sözlərinə görə, Vaşinqton dollardan "silahlı mübarizə aləti kimi" istifadə edir və bununla da valyutanın etibarlılığına şübhələr yaradır.

Fevralın 28-də Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov vurğulayıb ki, dünyada de-dollarizasiya prosesi gedir.

***"Xalq qəzeti"***

## Krım poliqonunda yanğın

### 2 mindən çox sakin təxliyə edilib

**Krımın şərqində yerləşən təlim poliqonundakı silah-sursat anbarında yanğın baş verib. Yanğının başvermə səbəbləri ilə bağlı rəsmi məlumat yoxdur.**

Bu barədə Rusiya tərəfindən işğal edilmiş bölgənin rəhbəri Sergey Aksyonov silah-sursat anbarının yaxınlığında yerləşən dörd yaşayış məntəqəsinin 2000-ə yaxın sakininin təxliyə edildiyini açıqlayıb. Yanğınla əlaqədar Tavrida şosesi ilə avtomobillərin hərəkəti dayanıb. Hadisə şahidlərinin verdiyi xəbərə görə, yanğından əvvəl partlayışlar olub.

***"Xalq qəzeti"***




"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

Dəmiryol xətləri üçün mal-materialların satın alınması məqsədilə

Müsabiqə Elan Edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 16 avqust 2023-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3704).**
**Ünvan- AZ1010. Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.**

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 150 (30266) 20 iyul 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## “Qarabağ”ın parlaq qələbəsi



**“Qarabağ”la Cəbəllütariq klubu “Linkoln” arasında keçirilən UEFA Çempionlar Liqasının I təsnifat mərhələsinin cavab oyununda Ağdam təmsilçisi rəqibi üzərində inamlı qələbə qazanıb.**

Qurban Qurbanovun kollektivi Bakı Olimpiya Stadionunda keçirilən görüşdə Cəbəllütariq çempionu “Linkoln”un qapısından 4 cavabsız qol keçirib. Albaniyalı hakim Eldorjan Hamitinin idarə etdiyi oyunda qolları Abdullah Zubir, Bəhlul Mustafazadə, Redon Cica və Marko Yankoviç vurublar.

Qeyd edək ki, bu komandalar arasında Cəbəllütariqdə keçirilən ilk oyunda “Qarabağ” 2:1 hesablı qələbə qazanmışdı.

Bununla da, II təsnifat mərhələsinə yüksələn “Qarabağ” burada Polşa çempionu “Rakuv”a rəqib olub. İlk oyun iyulun 26-da Polşada olacaq.

## “Sabah” “Olimpiakos”la heç-heçə edib



**Avstriyada təlim-məşq toplanışını davam etdirən Bakının “Sabah” klubu sonuncu yoxlama oyununda Yunanıstanın “Olimpiakos” klubu ilə qarşılaşıb.**

Qarşılıqlı hücumlar şəraitində keçən görüş 1:1 hesablı heç-heçə ilə başa çatıb.

Qeyd edək ki, “Sabah” Avstriya toplanışı çərçivəsində birinci matçda Qətərin “Al-Sadd” (3:1), ikinci oyunda isə Almaniyanın “Sankt-Pauli” (1:4) klubu ilə mübarizə aparıb.

## Klublar arasında memorandum imzalanıb

**“Neftçi” PFK ilə Rusiyanın “Spartak” (Moskva) klubu arasında 1 illik memorandum imzalanıb.**

İmzalanma mərasimində iki klub arasında gələcəkdə bütün sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

Qeyd edək ki, 1922-ci ildə yaradılmış “Spartak” Rusiyada xalqın komandası sayılır və ölkənin ən titullu klubudur.

*L.QURBANOVA, “Xalq qəzeti”*

Texnologiya yenilikləri

## Elastik, bükülən “iPhone” hazırlanacaq

**Texnologiya sənayesindəki yeniliyi ilə tanınan “Apple” hələ rəqibləri kimi qatlana bilən smartfon təqdim etməyib. Lakin şirkət ilk dəfə “rulon formasında” “iPhone” hazırlamağı planlaşdırır.**



“iPhone” yuvarlananda ekran silindr şəklini alacaq. Telefonun daxili hissəsindəki örtüklər polimid, xarici təbəqə isə polimer materialdan hazırlanacaq. Patenti alınmış məhsulun dizaynında ekranı cızıqlardan və digər zədələrdən qorumaq üçün şüşə örtüklə yanaşı, ləkə, duman və əksetdirmə əleyhinə antistatik təbəqə də olacaq.

Digər tərəfdən, məhsulun faktiki satışa çıxarılmasına zəmanət verilməsə də, 2024-cü ildən sonra hazırlanması proqnozlaşdırılır. Şirkətin məqsədi mobil cihazların görünüşlərini istənilən şəkildə formalaşdırmaqdır.

*Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”*

## Sürücülərin yuxusunu qaçıran eynək

**NASA 13 yaşlı pakistanlı Bisma Salangini ixtirasına görə ABŞ-a dəvət edib. O, sürücülərin sükan arxasında yatmasının qarşısını almağa kömək edən yeni eynək hazırlayıb.**



Bu eynəklər yol qəzalarının sayını qismən də olsa azaldacaq, piyadaların baş verə biləcək yol-nəqliyyat hadisələrindən qorunmasını təmin edəcək. Yerli xəbər saytlarına verdiyi müsahibədə Bisma Salangi pakistanlıların istedadlı olduğunu və qeyri-adi şeylərə nail olmaq üçün əzm və qətiyyətlə çalışdıqlarını bildirib.

*F.SALMANOVA, “Xalq qəzeti”*

Maraq dünyamız

## “Süni ağıl” nə fikirləşdiyimizi anlayacaq

**Kompüterlər düşüncələrimizi oxuya və hətta onları yazılı dilə çevirə bilər. Bu, beyin-kompüter interfeysləri (BCI) adlanan cihazların inkişafı sayəsində mümkün olmuşdur. MKI-lər beynimiz tərəfindən yaradılan elektrik siqnalları əsasında işləyir və yalnız düşüncələrimizdən istifadə edərək müxtəlif cihazları idarə etməyə imkan verir.**



Nəticə etibarilə, elm və texnologiya durmadan inkişaf edir və bəşəriyyət üçün yeni imkanlar açır. Lakin bu sahədə bütün yeniliklər hələ geniş ictimaiyyətə məlum deyil. Elm və texnologiya haqqında getdikcə daha çox maraqlı faktlar öyrənməklə biz zəkamızı genişləndirə və ətraf dünyaya yeni nəzərlə baxa bilərik.

## Günəş sistemində neçə planet var?

**Günəş sistemi kosmosun ən çox öyrənilən sahəsidir. Rəsmi versiyaya görə, bura 8 planet daxildir. Əslində, onlar daha çoxdur.**



Burada ən azı 5 “cırtdan” planet də var. Bunlar Pluton, Ceres, Haumea, Makemake və Erisdir. Yerdən uzaq olduqlarına görə az öyrəniliblər. Üstəlik, alimlərin fikrincə, Günəş sistemində daha 2 min potensial cırtdan planet ola bilər. Bundan əlavə, bir çox astrofiziklər doqquzuncu böyük planetin varlığını qəbul edirlər. O, Neptunun ölçüsündə və Yerin kütləsindən on qat böyükdür. Alimlər hələ 2014-cü ildə sirli “X” planetinin varlığını təxmin etməyə başlamışdılar və 2016-cı ildə kompüter modelləşdirmədən istifadə edərək ilk sübutları əldə etdilər.

## Şahmatın öz saatı…

**XIX əsrin ortalarına qədər şahmat oyununun müddəti məhdud deyildi. Bu, çox narahatçılığa səbəb olurdu, rəqiblər növbəti gediş haqqında saatlarla düşünür və bəzən oyun günlərlə davam edirdi. Məsələn, 1851-ci ildə beynəlxalq turnirlərdən birində hər iki şahmatçının yuxuya getməsi səbəbindən oyun yarımçıq qalmışdı. İki il sonra bir gedişi düşünmək üçün limit tətbiq olundu - 10 dəqiqə. Vaxt, adətən, qum saatı ilə ölçülürdü.**

Bu, mövcud vəziyyətdən ən yaxşı çıxış yolu deyildi, çünki qum saatı yalnız bir hərəkət üçün nəzərdə tutulmuşdu. 1867-ci ildə Parisdə keçirilən turnirdə hər bir oyunçuya 10 hərəkət üçün bir saat vaxt verildi, reqlamenti pozan isə cərimə ödəməli oldu. Qəribədir ki, turnirin qalibi İqnaz Koliş ən çox cərimə ödəmişdi.

Şahmatda əsl inqilab 1883-cü ildə 2 siferblatalı xüsusi saat hazırlayan ingilis Tomas Brayton Uilson tərəfindən edildi. İştirakçılar və hakimlər uzun saatlıq oyunlardan yorulmuşdular, buna görə də elə həmin il Londonda keçirilən beynəlxalq turnirdə yenilik sınaqdan keçirildi. Amma bəzi şahmatçılar oyun zamanı saatın onları çox əsəbiləşdirdiyindən şikayətlənirdilər, hətta onları “dünyanın



ən sürətli saatı” adlandırırdılar.

Qrossmeyster və ustalara 40 gediş üçün 2,5 saat verilir. Neçə-neçə qiymətli görüşlərin seytnotun qurbanı olduğuna baxmayaraq, şahmat yarışlarını saatlar olmadan təsəvvür etmək olmaz.

*P.ƏFƏNDİ, “Xalq qəzeti”*

Sağlamlıq

## Yüksək təzyiqə qarşı vitamin

**Təzyiqin yüksəlməsi birbaşa ürəyə təsir edir. Qan axının sürətlənməsi nəticəsində baş verən xəstəlik müalicəyə asanlıqla tabe olmur.**



Hipertoniklər əsasən B3 vitamin tərkibli qidalar qəbul etməklə xəstəliyin qarşısını ala bilərlər. Həkim Yelena Malışevanın sözlərinə görə, hipertoniyadan qorunmaq üçün rasiona vitamin B3 (niasin) olan qidalar daxil edilməlidir. Onun fikrincə, niasinin damar genişləndirici təsiri təzyiqin artmasının qarşısını alır.

Y.Malışeva bildirir ki, kifayət qədər vitamin B3 qəbul edən insanlarda hipertoniyaya tutulma riski 35 faiz azalır. Maddənin mənbələri çovdar çörəyi, qarabaşaq yarması, lobya, qoz-fındıq, təmizlənməmiş taxıl, yumurta sarısı, süd, ət, göbələk, ananas kimi məhsullardır. B3 vitamini ən çox mayada olur.

Davamlı yüksək qan təzyiqi böyrək damarlarının daralması səbəbindən də ola bilər. Bu daralma nəticəsində böyreklərə qan tədarükü azalır və qoşalaşmış orqan bunu qan təzyiqinin azalması kimi qəbul edir və təzyiqi artırmaqla problemi kompensasiya etməyə çalışır. Xəstə antihipertenziv dərmanlar qəbul etsə də köməyi olmur.

Ona görə də yüksək təzyiqi olanlar öncə onun yaranma səbəbini araşdırmalıdırlar.

*Z.HÜSEYNLİ, “Xalq qəzeti”*

Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 20-də Bakıda və Abşeron yarımadasında** yağmursuz keçəcək. Cənub küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq.Gecə 20-25° , gündüz 29-34° isti olacaq.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq rayonlarda qısamüddətli yağış, şimşək çaxacağı ehtimalı var. Səhər bəzi dağlıq rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22° , gündüz 30-35° , dağlarda gecə 10-15°, gündüz 16-21° isti olacaq.

*Q. QASIMOV, “Xalq qəzeti”*

## Ən qısa müddətdə çəkilən film

**Rejissor Kristofer Nolan “Oppenheimer” filmini rekord müddətdə lentə alıb.**

Bu barədə “Oppenheimer” filmində çəkilən aktyor Killian Mörfi deyib. Onun sözlərinə görə, K.Nolanın filmi inanılmaz dərəcədə sıx qrafiklə çəkilib: “Ekran əsərini inanılmaz sürətlə çəkdik. Bunu 57 gündə bacardıq. Müqayisə üçün qeyd edək ki, Kristofer Nolanın İkinci Dünya müharibəsindən bəhs edən “Dunkirk” filmi 68 günə, digər casus trilleri olan “Tenet” isə 96 günə çəkilib”.

“Oppenheimer” filminin əksər səhnələrində Killian Mörfi diqqət mərkəzindədir, bu da o deməkdir ki, sıx çəkiliş cədvəli aktyor üçün daha gərgin keçib.



“Çəkiliş prosesi gərgin keçsə də, bu əziyyətə dəyərdi. Çünki 20 ildən artıq müddətdə əməkdaşlıq etdiyim sənətini sevən rejissorla davamlı işləmək hər bir çətinliyi üstələyir”, - deyə aktyor qeyd edib.

*S.RZAYEVA, “Xalq qəzeti”*

✓ “AHAD PARFUMERY” MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.

✓ “AZ GLOBAL HOLDİNG” MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.

✓ “AZ TECHNOLOGİ” MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.

✓ “AZCONCRETE CONSTRUCTİON CO” MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.

✓ “AZMETAL STRUCTURE CO” MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.

✓ “DELTA KOM” MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.

✓ “SAPP KO” MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4580
SİFARİŞ 1791
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00